Təhsil müəssisəsinin adı

**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**

**Təhsil müəssisəsinin əmtəə nişanı**

**Lənkəran Dövlət Universitetinin**

**(Təhsil müəssisəsinin adı)**

# İnstitusional akkreditasiyası üzrə özünütəhlilin nəticələri haqqında HESABAT

**Hesabat Lənkəran Dövlət Universiteti Elmi Şurasının 28.02.2023-cü il tarixli iclasının 05 saylı qərarı ilə təsdiq edilmişdir.**

**Tarix** 15 fevral 2023.

**İmza** ____________

(müəssisənin rəhbəri)

**M.Y**

**Lənkəran 2023**

**Mündəricat**


| | | |
|---|---|---|
| **I.** | **Giriş** | **3 səh.** |
| **1.** | **Təhsil müəssisəsinə dair ümumi məlumatlar** | **3 səh.** |
| 2. | Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki | 4 səh. |
| 3. | Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti | 7 səh. |
| **II.** | **Təhsil müəssisəsinin özünütəhlili** | **17 səh.** |
| 4. | Özünütəhlil qiymətləndirməsinin icmalı | 17 səh. |
| 5. | Təhsil müəssisəsinin özünütəhlil nəticələri | 83 səh. |
| 6. | Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər | 85 səh. |
| **III.** | **Özünütəhlil Hesabatına əlavə olunan sənədlər** | **89 səh.** |

# I. Giriş

## 1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Lənkəran Dövlət Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 7 iyul 2017-ci il, Qeydiyyat N-012, 5 (beş) il müddətinə |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | - |
| Təhsil müəssisəsinin rəhbəri | Prof. İbrahimov Natiq Səhrab oğlu |
| Fakültələrin sayı | 5 (beş) |
| Kafedraların sayı | 13 (on üç) |
| Bakalavriat pilləsi üzrə ixtisasların sayı | 40 (qırx) |
| Magistratura pilləsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | İxtisas 28 (iyirmi səkkiz)<br>İxtisaslaşma (iyirmi doqquz) |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | 12 (on iki) |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalan sayı**<br>Bakalavriat: 5016 (beş min on altı)<br>Magistratura: 352 (üç yüz əlli iki)<br>Doktorantura: 15 (on beş)<br>Elmlər doktoru proqramı üzrə: 19 (on doqquz) |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 231 (iki yüz otuz bir) |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 62 (altmış iki) |
| Müəssisənin elektron ünvanı və əlaqə nömrəsi | office@lsu.edu.az<br>(+994) 025 255 25 88 |
| Müəssisənin hüquqi ünvanı | AZ4200, Lənkəran şəhəri, General Həzi Aslanov xiyabanı 50 |
| Müəssisənin faktiki ünvanı | AZ4200, Lənkəran şəhəri, General Həzi Aslanov xiyabanı 50 |

## 2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

Təşkilat komissiyasının tərkibi

| № | Pedaqoji adı (elmi dərəcə), ad, soyad | Vəzifə | Telefon (mobil) | E-mail ünvanı |
|---|---|---|---|---|
| 1. | Dos. Elvin Əliyev | Sədr | (050)707-28-07 | elvinaliyev1989@hotmail.com |
| 2. | Dos. Asif İmanlı | Sədr müavini | (050)427-60-60 | asif.imanli1974@mail.ru |
| 3. | Rəşad Fərəczadə | Katib | (050)568-49-46 | fereczade.r@mail.ru |
| 4. | Azər Əliyev | üzv | (051)994-77-08 | azer-aliyev-63@mail.ru |
| 5. | Allahşükür Quliyev | üzv | (050)362-82-52 | quliyev_allahsukur@mail.ru |
| 6. | Vaqif Quliyev | üzv | (050)633-42-46 | vaqif.quliyev.1960@mail.ru |
| 7. | Rəşad Rzazadə | üzv | (050)724-00-88 | rashad.rzazada@mail.ru |
| 8. | Ənvər Şahqubadbəyli | üzv | (050)5274787 | minbudaq@mail.ru |
| 9. | Ramin Fərzullazadə | üzv | (050)728-64-70 | framin1992@mail.ru |

Təşkilat komissiyasının fəaliyyət qrafiki

İstiqamətlər üzrə işçi qruplarının tərkibi

| № | Komissiyanın üzvü | Fəaliyyət |
|---|---|---|
| 1. | Allahşükür Quliyev-**Strateji inkişaf və idarəetmə sistemi istiqaməti üzrə işçi qrupunun rəhbəri** | 1.1.Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri<br>1.2.Strateji inkişaf proqramının icrası və monitorinqi |
| 2 | Vaqif Quliyev-işçi qrupunun üzvü | 5.1. İdarəetmə orqanları |
| 3 | Günel Əliyeva | 5.2.İnsan resurslarının idarə edilməsi |
| 4 | Rəşad Rzazadə-işçi qrupunun üzvü | 5.3. Maliyyə resurslarının idarə edilməsi |

| | | |
|---|---|---|
| 5 | Ənvər Şahqubadbəyli-işçi qrupunun üzvü | 5.4.İnformasiya idarəetmə sistemi<br>5.5. İctimaiyyətlə əlaqələr |
| 6 | Dos. Asif İmanlı-**Keyfiyyət təminatı üzrə işçi qrupunun rəhbəri** | 2.1.Keyfiyyət təminatı siyasəti |
| 7 | Nəzrin Hüseynli-işçi qrupunun üzvü | 2.2.Daxili keyfiyyət təminatı mexanizmləri |
| 8 | Rasif Həsənzadə-işçi qrupunun üzvü | 2.3. Keyfiyyət təminatı mədəniyyəti |
| 9 | Ramin Fərzullazadə-**Təlim və tədris istiqaməti üzrə işçi qrupunun rəhbəri** | 3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması |
| 10 | Rəşad Fərəczadə-işçi qrupunun üzvü | 3.2. Təhsil proqramları<br>3.3. Tədrisin təşkili<br>**3.9**. Təhsil proqramlarının monitorinqi və yenilənməsi<br>**3.10.** Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi |
| 11 | Dos. Gülbəniz Əliyeva-işçi qrupunun üzvü | 3.4. Tədris metodları və üsulları |
| 12 | Dos. Ramiz Şəmmədov-işçi qrupunun üzvü | **3.8**.Tələbəyönümlü tədris |
| 13 | Dos. Balayar Şahbazov-işçi qrupunun üzvü | |
| 14 | Dos. Elman Mirzəyev-işçi qrupunun üzvü | |
| 15 | Dos. Zaur Məmmədov-işçi qrupunun üzvü | |
| 16 | Ağazadə Əfsanə-işçi qrupunun üzvü | 3.5. Təlim və tədris resursları |

| | | |
|---|---|---|
| 17 | Xanağa Səmədov-işçi qrupunun üzvü | 3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi |
| 18 | Araz Bəşirli-işçi qrupunun üzvü | 3.7.Professor-müəllim heyəti |
| 19 | Ülkər Babayeva-**Elmi-tədqiqat istiqaməti üzrə işçi qrupunun rəhbəri** | 4.1.Elmi-tədqiqat strategiyası<br>4.2. Tədqiqat resursları |
| 20 | Abid Fərzullazadə-işçi qrupunun üzvü | 4.3. Elmi-tədqiqat fəaliyyəti |
| 21 | Lalə Şahbazova-işçi qrupunun üzvü | 4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti |
| 22 | Azər Əliyev- **İnfrastruktur istiqaməti üzrə işçi qrupunun rəhbəri** | 6.1. Tədris infrastrukturu |
| 23 | Nurəli Məmmədov-işçi qrupunun üzvü | |
| 24 | Azər Calalov-işçi qrupunun üzvü | 6.2.Elmi-tədqiqat infrastrukturu |
| 25 | Elvin Nəcəfli-işçi qrupunun üzvü | |
| 26 | Tural İsmayılov-işçi qrupunun üzvü | |
| 27 | Günel Məmmədova-**Beynəlmiləlləşmə istiqaməti üzrə işçi qrupunun rəhbəri** | 7.1. Beynəlmiləlləşmə siyasəti<br>7.2. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu |
| 28 | Rasimə Axundzadə-işçi qrupunun üzvü | 7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar |
| 29 | Tofiq Əliyev-işçi qrupunun üzvü | 7.4. Beynəlmiləlləşmə performansı |

**3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti**

| № | Tövsiyənin məzmunu | İcra olunmuşdur. |
|---|---|---|
| 1 | Lənkəran Dövlət Universiteti kadrlar şöbəsində saxlanılan professor-müəllimlərin şəxsi işlərində Əmək müqaviləsinin Elektron forması olan Bildirişlər mövcud deyildir. | Lənkəran Dövlət Universiteti kadrlar şöbəsində saxlanılan professor-müəllimlərin şəxsi işlərində Əmək müqaviləsinin Elekton forması olan Bildirişlər sistemdən çıxarılaraq müvafiq şəxsi işlərə tikilmişdir.<br>İşə qəbul prosesi ARƏM-in tələblərinə uyğun şəkildə həyata keçirilir.<br>LDU-da akademik və inzibati heyətin işə qəbulu ilə bağlı 2 sentyabr 2019-cu il tarixində 1/68 nömrəli əmrlə "Müsahibə komissiyası" yaradılmışdır. |
| 2 | "Mülki müdafiə və Tibbi biliklər" kafedrası "Ali məktəblərin kafedraları haqqında əsasnamə"nin heç bir tələbi nəzərə alınmadan yaradılmışdır. Kafedranın ümumi dərs yükünün yarısı digər kafedralardan alınmış saatların hesabına 1413 saata çatdırılıb. Kafedranın qeyri-qanuni fəaliyyətinə xitam verilməlidir. | Lənkəran Dövlət Universiteti üzrə 24 avqust 2016-cı il tarixdə 1/83 və 3 iyul 2020-ci il tarixdə 4/39 nömrəli əmrlə universitetin strukturunda dəyişikliklər edilmiş, 5 fakültə və 13 kafedra yaradılmışdır. Bununla da LDU-da "Mülki müdafiə və Tibbi biliklər" adlı kafedra fəaliyyət göstərmir. Kafedraların fəaliyyəti müvafiq qanunvericiliyin tələblərinə uyğun həyata keçirilir və tədris yüklərinin akademik heyət üzvləri arasında bölgüsü "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2010-cu il tarixli 215 nömrəli qərarına əsasən və universitet üzrə müvafiq əmrlərlə aparılmışdır. |
| 3 | Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11 oktyabr 1994-cü il tarixli 595 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin kafedraları haqqında müvəqqəti Əsasnamə"nin tələbləri gözlənilmədən 1 və ya 2 nəfər elmi adı və dərəcəsi olan professor-müəllimi olduğu halda 11 kafedra yaradılaraq saxlanılmışdır. Tibbi biliklər və mülki müdafiə kafedrası elmi adı və dərəcəsi olan professor-müəllim heyəti yoxdur. Bədən tərbiyəsi və idman kafedrasında 1 nəfər, İqtisadi və sosial coğrafiya kafedrasında 1 nəfər, Qədim dünya və orta əsrlər tarixi kafedrasında 2 nəfər, Xarici dil kafedrasında 2 nəfər, Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası kafedrasında 1 nəfər, Rus dili kafedrasında 2 nəfər, Azərbaycan dili və dilçilik kafedrasında 2 nəfər, Menecment kafedrasında 2 nəfər, Mühasibat uçotu və audit kafedrasında 1 nəfər, Dünya | Lənkəran Dövlət Universiteti üzrə 24 avqust 2016-cı il tarixdə 1/83 və 3 iyul 2020-ci il tarixdə 4/39 nömrəli əmrlə universitetin strukturunda dəyişikliklər edilmiş və aşağıda adları qeyd olunan 5 fakültə və 13 kafedra yaradılmışdır. Kafedralar üzrə mövcud elmi dərəcəli professor-müəllim heyətinin ümumi kafedra heyyətinə nisbəti aşağıdakı kimidir.<br>**Filologiya və ibtidai təhsil fakültəsi üzrə kafedralar:**<br>İbtidai təhsil və məktəbəqədər təlim 4/9<br>Azərbaycan dili və ədəbiyyat 12/17<br>Xarici dillər və tərcümə 3/22<br>**Tarix-coğrafiya və incəsənət fakültəsi üzrə kafedralar:**<br>Tarix və onun tədrisi metodikası 12/23<br>Coğrafiya və onun tədrisi metodikası 3/11<br>Pedaqogika, psixologiya və incəsənət 8/24<br>**Təbiyyat fakültəsi üzrə kafedralar:**<br>Riyaziyyat və informatika 11/21 |

| | | |
|---|---|---|
| | iqtisadiyyatı kafedrasında 2 nəfər elmi adı və ya dərəcəsi olduğu halda kafedralar yaradılmış və bu günədək fəaliyyət göstərir. | Kimya və fizika 5/10<br>Biologiya və ekologiya 7/15<br>**İqtisadiyyat və idarəetmə fakültəsi üzrə kafedralar:**<br>Maliyyə idarəetməsi və audit 4/13<br>İqtisadiyyat və innovativ idarəetmə 6/19<br>**Aqrar və mühəndislik fakültəsi üzrə kafedralar:**<br>Texnologiya və texniki elmlər 8/27<br>Baytarlıq və aqrar elmlər 12/23 |
| 4 | Azərbaycan Respublikası Təhsil Nazirliyinin 22.08.2014-cü il tarixli 913 nömrəli əmri ilə təsdiq edilmiş bakalavriat səviyyəsinin ixtisasları üzrə təhsil proqramında “Bədən tərbiyəsi və idman” fənni nəzərdə tutulmamış, lakin “Bədən tərbiyəsi və idman” kafedrasının bazasında idman klubunun təşkil olunması, müəllimlərin bu klublarda idman növləri üzrə məşqçi vəzifələrinə götürülməsi göstərilmişdir. | Bkalavriat səviyyəsinin ixtisasları üzrə təhsil proqramında “Bədən tərbiyəsi və idman” fənni ləğv edilmişdir. Təsdiq edilmiş tədris planlarında bu fənn artıq öz əksini tapmır.<br>LDU-da “Bədən tərbiyəsi və idman” kafedrası olmamış və 3 oktyabr 2014-cü il tarixli 1/82 nömrəli əmrlə “Fiziki tərbiyə və mülki müdafiə” kafedrasının bazasında idman klubu və iki idman məşqçisi ştatı yaradılmışdır. Lənkəran Dövlət Universiteti üzrə 24 avqust 2016-cı il tarixdə 1/83 və 3 iyul 2020-ci il tarixdə 4/39 nömrəli əmrlə universitetin strukturunda dəyişiliklər edilmiş, 5 fakültə və 13 kafedra yaradılmışdır. |
| 5 | Lənkəran Dövlət Universitetinin kitabxanasının ümumi vəziyyəti müasir tələblərə cavab vermir. Tədris olunan fənnlərə aid tədris müəssisəsinin kitabxana fondunda kifayət qədər elmi və informasiya mənbələri yoxdur. Belə ki, kitabxana fondu kasıb, fondu təşkil edən tədris vəsaitlərinin çap ili köhnə, alternativ tədris vəsaitlərinin çeşidləri çox məhduddur. Kitabxanaın nəzdində elektron kitabxana yoxdur. Müasir dövrdə ali təhsil müəssisəsini elektron kitabxanasız təsəvvür etmək və tədrisin səviyyəsini yüksəltmək mümkün deyil. | Lənkəran Dövlət Universitetinin Kitabxanası 2016-cı ildə universitetinin struktur bölmələrinin yenidən qurulması məqsədi ilə aparılan islahat tədbirləri nəticəsində İnformasiya-kommunikasiya və kitabxana mərkəzinin bölməsi kimi resursların hazırlığı aparılan ixtisaslar üzrə təminatı və dövrü yenilənməsi periodik olaraq aparılır. Ötən müddət ərzində universitetin kitabxana fondu 82085 nüsxəyə çatdırılmışdır. Bunlardan 55803 nüsxəsi kitab, digərləri not, albom, xəritə, disk, metodik vəsaitlərdir. Bundan başqa tövsiyə, proqram, avtoreferat, dissertasiya, müxtəlif mövzulu kataloqlar, elmi əsərlər, xarici ölkələrdə və ölkə universitetlərində nəşr olunan elmi xəbərlər və s. materiallar mövcuddur. Kitablar azərbaycan, rus, ingilis, fransız, alman və s. dillərdədir.<br>Universitetdə təhsil alan bakalavr və magistrlər, dərs aparan professor-müəllim heyəti üçün və tədris olunan fənlər ilə bağlı Oracle VBİS-də elektron bazalar yaradılmışdır. Göstərilən bazalarda yerləşdirilmiş məlumatlardan istifadə etməklə Elektron jurnal layihəsi işlənmiş və artıq 3 tədris ilidir ki, universitetdə aparılan dərslər həm də elektron jurnal vasitəsilə müşaiyyət olunur və nəticələr LDU-ya məxsus fayl serverdə arxivləşdirilir. Həmçinin bazalarda yerləşdirilmiş məlumatlardan istifadə etməklə, hər semestr üçün ayrıca Elektron dərs cədvəli hazırlanır və internet üzərindən yayımlanır. Bu bazalarda yerləşdirilmiş |

| | | |
|---|---|---|
| | | məlumatlardan istifadə etməklə Tələbələrin Şəxsi Kabineti yaradılmış və tələbənin bütün tədris fəaliyyəti həmin kabinetlərdə öz əksini tapır. İmtahan sessiyasının təşkili və keçirilməsi ilə əlaqədar bütün məlumatlar Elektron İmtahan cədvəllərində öz əksini tapır və hər bir tələbənin özünə aid olan imtahan cədvəli onun şəxsi kabinetində yerləşdirilir. Tələbələrin imtahan sessiyalarının nəticələri imtahan verdiyi gün onun şəxsi kabinetində yerləşdirilir və artıq 4 ildir ki, LDU-da keçirilən bütün imtahanların nəticələri LDU-ya məxsus fayl serverdə arxivləşdirilir. 2020-ci ilin yaz semestrindən başlayaraq keçilən bütün fənlərin həm sillabusları, həm də mühazirə materialları tələbələrin şəxsi kabinetlərində yerləşdirilir. E-Universitet layihəsi üzrə yaradılmış veb səhifəyə keçid aşağıdakı kimidir. **https://e.lsu.edu.az/php/login.php.** Hazırda Universitetin Kitabxana bölməsinin elektronlaşdırılması üzərində işlər davam etdirilir. Artıq Kitabxananın **http://lsu.edu.az/new/LSU-Library/** veb səhifəsi internet üzərindən yayımlanmaqdadır və çox qısa zamanda kitabxana fondunun da elektron bazası internet üzərindən oxucuların istifadəsinə veriləcəkdir. 2020-ci ildə universitetə ödənişli əsaslarla qəbul olunmuş tələbələrin də təhsil haqqının ödənilməsinə nəzarət qismən avtomatlaşdırılmışdır və bu istiqamətdə işlər davam etdirilir. Bazaların avtomatlaşdırılması və Elektron Universitet layihəsinin yaradılmasında əsasən Oracle VBİS, C++, Python, PHP, Delphi, MySQL və s. proqramlaşdırma sistemlərinin imkanlarından geniş istifadə olunur.<br>Kitabxana resurslarından istifadənin tələbə və professor-müəllim heyəti üçün əlçatanlığını təmin edilmiş və kitabxana fondu universal Onluq təsnifatına uyğun olaraq təsnifləşdirilmişdir. Kitabxanada oxuculara abonoment və müasir avadanlıq, sürətli internetlə təmin olunmuş iki böyük oxu zalı xidmət göstərir. Oxucuların dünya kitabxana resurslarına əlyetənliyinin təmin olunması üçün elektron kitabxana zalı fəaliyyət göstərir. Kitabxanada elektron kataloq da mövcuddur: **https://lsu.edu.az/new/LSU-Library/lb/Student/e-books.php.** |
| 6 | Lənkəran Dövlət Universitetinin Beynəlxalq internet şəbəkəsinə çıxışı demək olar ki yox dərəcəsindədir. İnformasiya əsri hesab olunan elektron təhsil dövründə universitetdə beynəlxalq informasiya şəbəkəsinə çıxışın | LDU Kitabxanasının özü – bütün şöbə və oxu zalları, iş otaqları geniş zolaqlı sürətli internet xətti ilə (60 Mb/s) təmin olunmuş, universitetdə Elektron kitabxana layihəsinin yaradılmasına start verilmiş, həmin layihə çərçivəsində elektron baza yaradılmış |

| | | |
|---|---|---|
| | olmaması universitetin məzun etdiyi kadrların İnformasiya texnologiya vasitələrindən və hesablama texnikasından istifadə imkanlarını şübhə altına alır. | və həmin bazanın zənginləşdirilməsi istiqamətində işlər davam etdirilir. Dərslik və dərs vəsaitlərinin elektron bazaya yerləşdirilməsi zamanı ilk növbədə universitetin ixtisas profilləri nəzərə alınır. Ədəbiyyatların əsasən latın qrafikası ilə nəşrinə və nəşr ilinin müasirliyinə ciddi fikir verilir. Hazırda kitabxanada dünya kitabxana resurslarına əlyetənliyin təmin olunması üçün kitabxananın xüsusi elektron avadanlıqla təmin olunmuş zalı fəaliyyət göstərir və eləcə də UNEC və LDU arasında bağlanmış ikitərəfli qarşılıqlı əməkdaşlıq müqaviləsinə əsasən UNEC-in Elmi kitabxanasının iqtisadiyyat profilli ədəbiyyat fonduna giriş üçün LDU-nun rəsmi saytı üzərindən xüsusi keçid verilmişdir: **(http://e-library.unec.edu.az/alisaweb/).** Kitabxananın elektronlaşması sahəsində görülən işlərin həcmi genişlənməkdədir.<br>Bundan başqa universitetin bütün tədris korpuslarında kitabxananın xüsusi oxu zalları vardır. Kitabxananın nəzdində Elektron Kitabxana yaradılmışdır və elektron kitabxana fondunun xüsusi internet səhifəsi vasitəsilə internet üzərindən yayımlanması davam etdirilir (keçid: **https://lsu.edu.az/new/LSU-Library/)**<br>2021-ci ildə LDU-nun Elmi Kitabxanası əsaslı təmir və bərpa edilərək yenidən istifadəyə verilmişdir. |
| 7 | Lənkəran Dövlət Universitetində fəaliyyət göstərən tədris labaratoriyaların maddi texniki təminatı müasir tələblərə cavab vermir. Labaratoriyaların mövcud olmasına baxmayaraq təchizat səviyyəsi çox aşağıdır. | Lənkəran Dövlət Universitetində Elmi-tədqiqat işlərinin aparılmasında istifadə edilən avadanlıq və cihazların maddi texniki təminatı daim diqqət mərkəzində saxlanılır. Universitetdə elmi-tədqiqat işlərinin aparılması məqsədilə “Aqrar və mühəndislik” fakültəsində 2018-ci ildə “Qida təhlükəsizliyi”, “Baytarlıq cərrahiyyəsi” və “Torpaqşünaslıq” kimi laboratoriyalar yaradılmış və həmin laboratoriyalar BioBase firmasının müasir avadanlıqları ilə təchiz olunmuşdur. 2018-ci ildən həmin laboratoriyalarda bir çox Elmi-tədqiqat işlərinin icrası həyata keçirilir. Aqrar istiqamət üzrə təhsil alan tələbələrin nəzəri biliklərinin təcrübədə həyata keçirilməsi üçün universitetin 1 saylı tədris korpusunun ərazisində 3 hektara yaxın sahədə tədris təcrübə sahəsi yaradılmış və burada bölgə üçün xarakterik olan bitkilərdən (çay, narıngi, portağal, limon, kivi) başqa, həm də tərəvəz, bostan və taxıl bitkiləri də əkilmişdir.<br>Yaxın gələcəkdə “Baytarlıq klinikası”nın fəaliyyətə başlaması nəzərdə tutulur.<br>LDU “Təbiyyat” fakültəsində fəaliyyət göstərən “Kimya və biologiya müəllimliyi” və “Ekologiya” |

| | | |
|---|---|---|
| | | ixtisaslarının laboratoriya dərslərinin təşkil edilməsi üçün müasir standartlara cavab verən PASCO rəqəmsal avadanlıqları ilə təmin edilmiş və 2017-ci ildən “Biologiya tədris laboratoriyası” və “Kimya tədris laboratoriyası” yaradılmışdır. Bu laboratoriyalar həm müəllim hazırlığına istiqamətlənmiş və həm də ilkin elmi tədqiqat işləri aparmağa imkan verən rəqəmsal laboratoriya avadanlıqları ilə təchiz olunmuşdur. “Biologiya tədris laboratoriyası”nda biologiyanın və ekologiyanın müxtəlif sahələrini əhatə edən laboratoriya işilərini bilavasitə aparmaq mümkündür. Eyni zamanda laboratoriyalar internet və kompüterlə təmin olunmuşdur ki, bu da PASCO firmasının bazasına daxil olub laboratoriya işlərini virtual olaraq izləmək imkanı yaradır. Laboratoriya işlərinin aparılması üçün müxtəlif avadanlıqlarla təmin olunmuş “Fizika tədris laboratoriyası” 2019 –cu ildə yaradılmışdır. Fizika laboratoriyası “Riyaziyyat informatika müəllimliyi”, “Riyaziyyat müəllimliyi”, “Texnologiya müəllimliyi”, “Kimya və biologiya müəllimliyi”, “Ekologiya” ixtisaslarında tədris olunan “Ümumi fizika” və “Fizika” fənninə aid laboratoriya işlərinin, həmçinin fizika müəllimliyi ixtisasının ayrı-ayrı bölmələrinə aid laboratoriya işlərini yerinə yetirmək, nümayiş təcrübələri aparmaq üçün müasir cihaz və avadanlıqlarla təchiz olunmuş və burada laboratoriya işlərinin yerinə yetirilməsi təmin edilmişdir. Eyni zamanda 2019-cu ildə “NARGİS” fondunun və “SAMSUNG” firmasının dəstəyi ilə fakültədə Samsung planşetləri (11 ədəd), “ağıllı lövhə”, televizor və 3D formatlı telefonları (2 ədəd) ilə təmin olunmuş virtual laboratoriya yaradılmışdır. Bu tədris laboratoriyasından müxtəlif ixtisas qruplarında təhsil alan tələbələr istifadə edirlər. Fakültədə fəaliyyət göstərən “İnformatika” laboratoriyası 2020-ci ildən ABŞ-ın USAİD fondunun hesabına müasir standartlara cavab verən son model kompyuterlərlə (17 ədəd) və “ağıllı lövhələr”lə təmin olunmuşdur. Laboratoriyanın internet şəbəkəsinə qoşulması, beynəlxalq və respublika səviyyəli elmi kitabxanalara çıxışı da təmin etmişdir ki, bu da tələbələrin dərsdən kənar vaxtlarda bu laboratoriyadan istifadə etməsinə imkan yaratmışdır. “İnformatika” laboratoriyası “Riyaziyyat və informatika müəllimliyi”, “Riyaziyyat müəllimliyi”, “Texnologiya müəllimliyi”, “Kimya və biologiya müəllimliyi”, “Fizika müəllimliyi, ” “Ekologiya” ixtisaslarında İnformatika, İnformatika və təhsildə İKT, |

| | | |
|---|---|---|
| | | Proqramlaşdırma üsülları, Əməliyyat sistemləri və kompüter arxitekturası, Axtarış sistemləri, Kompüter modelləşməsi və s fənlərin praktik məşğələlərinin tədrisi üçün təmin olunmuşdur. Eyni zamanda 1 saylı korpusda üç informatika tədris laboratoriyası, 2 saylı korpusda bir informatika tədris laboratoriyası, bir linqafon otağı, bir şifahi nitq laboratoriyası fəaliyyət göstərir. |
| 8 | Lənkəran Dövlət Universitetinin əməkdaşlarının ixtisasartırma kurslarında iştirakının vəziyyəti qənaətbəxş deyil. Yoxlama apardığımız son 5 il ərzində, Təbiyyat fakültəsinin və nəzdində faəliyyət göstərən kafedraların heç bir əməkdaşı ixtisasartırma kurslarında iştirak etməmişdir. | LDU-nun "Xarici dillər və tərcümə", "Maliyyə idarəetməsi və audit", "Tarix və onun tədrisi metodikası" kafedralarının müəllimləri Rumıniya və Türkiyə Cümhuriyyətində, "Baytarlıq və Aqrar elmlər" kafedrasının müəllimləri Gürcüstan Respublikasında təcrübə mübadiləsində olmuşdurlar. Həmçinin Türkiyə Cümhuriyyətinin Kars-Kafkas Universitetinin professor-müəllim heyyəti 2021/2022-ci illərdə LDU-da tələbələrə dərs keçmiş və eyni zamanda LDU müəllimləri arasında təcrübə mübadiləsi aparаraq elmi-tədqiqat və pedaqoji biliklərini paylaşmışlar. Hazırda bu əməkdaşlıq prossesi davam edir. |
| 9 | Bəzi hallarda müəllimlərə verilmiş tədris yükü və fərdi iş planları təsdiq edilməmişdir. ("İqtisadiyyat və idarəetmə", "İqtisadi təhlil və idarəetmə") | Professor-müəllim heyyətinə verilmiş tədris yükü və fərdi iş planları tədris ili başlanana qədər təsdiq edilir.<br>Kafedralar, dekanlıqlar və digər struktur vahidlərində tədris-metodiki sənədlər təsdiqlənmiş və müvafiq qovluqlarda saxlanılır. |
| 10 | LDU-nun əksər kafedralarının tədris prossesində istifadə etdiyi fənn proqramlarının mütləq əksəriyyəti digər ali təhsil müəssisələrinə məxsusdur. (BDU, ADNA, ATU, ADİU), proqramların çoxu universitetin və yaxud da kafedraların elmi-şurası tərəfindən təsdiq edilmişdir. Təhsil Nazirliyinin qrifi ilə təsdiqlənmiş proqramlar azdır. | 2017-2022-ci illərdə Lənkəran Dövlət Universitetində kafedraların əməkdaşları tərəfindən yazılan 2 dərslik, 41 dərs vəsaiti, 7 monoqrafiya, 109 fənn proqramına nəşr hüququ verilmişdir. "Tədris vəsaitlərinə nəşr hüququnun (qrif) verilməsi məsələlərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin 08.12.2015-ci il tarixli 1108 saylı əmri əsas götürülərək ali təhsil pilləsinin bakalavriat və magistratura səviyyələri üzrə hər bir ixtisasın Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş təhsil proqramlarında göstərilən fənlər üzrə proqramlar və dərsliklərə nəşr hüququ (qrif) verilməsi Elm və Təhsil Nazirliyi tərəfindən, tədris planlarına ali təhsil müəssisəsi tərəfindən daxil edilən fənlər üzrə proqramlar, eləcə də dərs vəsaitləri və digər metodik vəsaitləri ixtisasların təhsil proqramlarında göstərilən kompetensiyalara uyğun hazırlanaraq Universitet tərəfindən təsdiq edilmişdir. |
| 11 | LDU-nun bütün kafedralarının elmi-tədqiqat işlərinin mövzuları illər üzrə əmrlə təsdiq edilməmişdir. Eyni zamanda elmi-tədqiqat işlərinin hesabatlarının qəbul edilməsidə müvafiq əmrlə təsdiq edilməmişdir. Əksər | Lənkəran Dövlət Universitetində aktual elmi problemlərə həsr edilmiş, yüksək nəzəri və praktik əhəmiyyətə malik olan, regional problemləri əhatə edən Elmi-tədqiqat işləri həyata keçirilir. Lənkəran Dövlət Universitetinin rəhbərliyi tərəfindən təsdiq |

| | | |
|---|---|---|
| | kafedraların ixtisas yönümlü elmi-tədqiqat planları yoxdur. Kafedraların yerinə yetirdikləri elmi-tədqiqat işləri kafedra əməkdaşlarının fərdi tədqiqatları ilə və hər il yazdıqları məqalə və nəşr etdirdikləri kitab və metodik-vəsaitlərlə məhdudlaşır. | olunmuş plana əsasən ötən il Universitetdə fəaliyyət göstərən 13 kafedrada 28 problem üzrə 62 mövzuda 84 Elmi-tədqiqat işi aparılmışdır.<br>Hal-hazırda Universitetin strateji inkişaf planına uyğun olaraq Elmi-tədqiqat işlərinin 5 illik (2022-2026) planı təsdiq edilərək əmrləşdirilmişdir. Eyni zamanda 2022-ci ildə elmi-tədqiqat işlərinin səmərəliliyini artırmaq məqsədilə Universitetin elmi jurnalları yenilənmiş və tədqiqat işlərinin nəticələrinin bir qismi həmin jurnallarda dərc olunmuşdur. Onu da qeyd edək ki, Lənkəran Dövlət Universitetinin Elmi Xəbərlər jurnalının Humanitar elmləri seriyası Ali Attestasiya Komissiyasının tövsiyyə etdiyi dövri elmi nəşrlərin siyahısına, eyni zamanda E-Library (РИНЦ) beynəlxalq indeksləmə sisteminə- https://elibrary.ru/title_about_new.asp?id=77367 və İNDEKS COPERNİCUS beynəlxalq bazaya daxil edilmişdir: https://journals.indexcopernicus.com/search/details?id=93738&lang=pl. Riyaziyyat və Təbiyyət elmləri seriyası isə E-Library (РИНЦ) beynəlxalq indeksləmə sisteminə- https://elibrary.ru/title_about_new.asp?id=77367 daxildir. 2022-ci ilin sonunadək Universitet əməkdaşlarının "Web of Science" bazasına daxil olan jurnallarda 64 məqaləsi, "Scopus" bazasına daxil olan jurnallarda 40-dan çox məqaləsi dərc olunmuşdur. |
| 12 | Hal-hazırda III və IV kurslarda təhsil 2009-cu ildə təsdiq edilmiş dövlət standartları əsasında həyata keçirilməsinə baxmayaraq, fakültə dekanlığında müvafiq təhsil standartları mövcud deyil. (Universitetin tədris şöbəsində saxlanılır.) | Təsdiq edilmiş dövlət standartlarının bir nüsxəsi fakültə dekanlığında digəri isə Tədrisin Təşkili və Təlim Texnologiyaları Mərkəzində saxlanılır.<br>Tədris-metodiki sənədlər mövcud qanunlarla müəyyən edilmiş tələblərə və tövsiyyələrə uyğun olaraq hazırlanır. Daha sonra sənədin növündən asılı olaraq Tədrisin təşkili və təlim texnologiyaları mərkəzində, Elm və tədqiqat işləri şöbəsində, kafedralarda, fakültə elmi şuralarında, elmi-metodiki şuralarda, elmi şuralarda müzakirə edilərək təsdiqə göndərilir. Təsdiq olunduqdan sonra müvafiq struktur bölmələrə verilir. |
| 13 | Dərs yükünün bölgüsündə əvəzçiliklə və saathesabı qaydada dərs yükü aparan professor-müəllimlərin dərslə təmin edilməsində bəzi hallarda mövcud hüquqi normalar pozulur. | Professor-müəllim heyətinə verilən dərs yükləri, "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2010-cu il 215 nömrəli qərarına əsasən, universitet üzrə müvafiq əmrlərlə bölünmüşdür. |
| 14 | - Universitetin bir sıra kafedralarında professor-müəllim heyətinə dərs yüklərinin planlaşdırılmasında nöqsanlara yol verilərək bir müəllimə 7-18 müxtəlif fənn üzrə tədris | Professor-müəllim heyətinə verilən dərs yükləri, "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 |

| | | |
|---|---|---|
| | yükü ayrılmışdır. | noyabr 2010-cu il 215 nömrəli qərarına əsasən, universitet üzrə müvafiq əmrlərlə bölünmüşdür. |
| 15 | - Professor-müəllim heyətinə verilən dərs yükləri "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2010-cu il 215 nömrəli qərarına əsasən bölünməmişdir. Belə ki, dərs saatları professor-müəllimlər arasında qeyri-bərabər bölünmüşdür. Çoxlu sayda müəllimlərə 1,0 ştata 800-1000 saat dərs yükü planlaşdırılmışdır. Bu miqdarda akademik yükün icrası isə fiziki cəhətdən mümkün deyildir. Bəzi müəllimlərə normadan (240 saat) çox saathesabı olaraq planlaşdırılmışdır. Əksər kafedra müdirləri 0,5 ştat olmalarına baxmayaraq, özlərinə 600-800 saat dərs yükü planlaşdırılmışdır. Səbəb kadr çatışmamazlığı ilə əlaqələndirilir. | Professor-müəllim heyətinə verilən dərs yükləri, "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2010-cu il 215 nömrəli qərarına əsasən, universitet üzrə müvafiq əmrlərlə bölünmüşdir. |
| 16 | Professor-müəllim heyətindən və digər əməkdaşlardan bəzilərinin ixtisasları işlədikləri kafedra və şöbələrə uyğun deyil. | LDU üzrə fakültə və kafedralar yenidən formalaşdırılmış və professor-müəllim heyəti öz ixtisaslarına uyğun olaraq kafedralara daxil edilmişdir. |
| 17 | Lənkəran dövlət Universitetinin Nizamnaməsi hazırda hüquqi qüvvəsini itirmiş Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30.03.1995-ci il tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsi haqqında" Əsasnaməyə uyğun və əsasında tərtib edilmişdir. Lənkəran Dövlət Universitetinin Nizamnaməsi hal-hazırda qüvvədə olan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.01.2011-ci il tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin əsas müddəalarını özündə əks etdirmir. | Lənkəran dövlət Universitetinin Nizamnaməsi 2007-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyində təsdiq olunaraq, 17 yanvar 2008-ci il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində Dövlət qeydiyyatına alınmışdır. Lənkəran dövlət Universitetinin Nizamnaməsi 2016-cı və 2019-cu illərdə yenidən işlənərək müvafiq nazirliklərə təqdim olunmuşdur. |
| 18 | Lənkəran Dövlət Universitetinin özünütəhlil hesabatında Universitetin fakültələri haqqında və Universitetin kafedraları haqqında Əsasnamələrinin qəbul edildiyi bildirilsə də bu Əsasnamələr təqdim edilmədi. | Lənkəran Dövlət Universitetinin Elmi Şurasının 12 iyul 2016-cı il tarixli iclasında (protokol №9) fakültələr və kafedralar haqqında yeni Əsasnamələr təsdiq olumuşdur. |
| 19 | Lənkəran Dövlət Universitetində məzunların univertsitetdən sonrakı fəaliyyətini öyrənən Məzun və karyera mərkəzinin mövcudluğu barədə sənəd təqdim edilmədi. | Universitetdə Təcrübə, potensial inkişaf və karyera bölməsi Tədrisin təşkili və təlim texnologiyalarının tətbiqi şöbəsinin tərkibində fəaliyyət göstərir və universiteti bitirən son 7 ilin məzunları adlı siyahısı yığılmışdır. Hazırda məzunların univertsitetdən sonrakı fəaliyyəti barədə məlumatlar işlənilir. |

| | | |
|---|---|---|
| 20 | Lənkəran Dövlət Universitetində hüquqşünas vəzifəsi 2009-cu ildən vakantdır. Universitetinin rəsmi sənədləri heç kimlə razılaşdırılmır. | Universitetdə hüquqşünas vəzifəsində çalışan əməkdaş fəaliyyət göstərir və müvafiq rəsmi sənədlər onunla razılaşdırılır. |
| 21 | Bəzi əmrlərin qeydiyyatı və paylanması arasında böyük müddət fərqləri mövcuddur. Məsələn: 04.05.2014 tarixli 2/141 nömrəli əmrin paylanma tarixi 05.12.2014 qeydiyat edilib. Əmrlərin qeydiyyatı kitabında 2/72 nömrəli əmrin nömrəsi qeyd edilsə də əmrin tarixi və mətni hissəsi boş saxlanılıb. Əmrlərin qeydiyyatı kitabında əmrin paylanılması bölməsində ad, soyad, yerləri boş saxlanılıb. | Tövsiyədə qeyd olunan nöqsanın aradan qaldırılması və əmrlərin müvafiq qaydada paylanılması həyata keçirilir. |
| 22 | 2010-2015 tədris illərində Lənkəran Dövlət Universitetinin rektorunun vermiş olduğu heç bir əmrdə müəssisənin Həmkərlar təşkilatı sədri ilə heç bir razılaşmaya rast gəlinmədi. | Universitetin Həmkarlar İttifaqı Komitəsi ilə razılaşdırılmalı olan bütün əmrlər mütləq şəkildə HİK sədri ilə razılaşdırılır. |
| 23 | Tədris olunan fənnlərə dair tədris müəssisəsinin kitabxana fondunda elmi və informasiya mənbələrinin mövcudluğu və vəziyyəti fənnlər üzrə fərqlidir. Müəyyən vəsait çatışmamazlığı mövcuddur. | Cədvəlin 5-ci sətrində bu məsələ geniş qeyd olunub. |
| 24 | Təhsil müəssisəsinin Beynəlxalq informasiya şəbəkəsinə çıxışı qənaətbəxş deyil. Universitetin böyük bir beynəlxalq layihədən əldə etdiyi yüzlərlə kompyuterlər əldə etmələrinə baxmayaraq, internet şəbəkəsinin olmaması bu kompyuterlərdən istifadəni bir yazı makinası səviyyəsinə endirmişdir. İnternet şəbəkəsinin olmaması universitet daxilində tələbələrin müasir informasiya şəbəkəsindən tədris üçün lazmi istifadə imkanlarını sıfıra endirmişdir. | Cədvəlin 6-cı sətrində bu məsələ geniş qeyd olunub. |
| 25 | Tədris laboratoriyaların olmasına baxmayaraq, təchizat bazası müasir tələblərə uyğun deyil. | Cədvəlin 7-ci sətrində bu məsələ geniş qeyd olunub. |
| 26 | Tələbələrin İnformasiya Texnologiya vasitələrindən və hesablama texnikasından istifadənin vəziyyəti müasir tələblərə qismən cavab verir. Universitet üzrə texniki təchizatın zəif olması və internet şəbəkəsinin olmaması, tələbələrdə İnformasiya Texnologiya vasitələrindən və hesablama texnikasından səmərəli istifadə vərdişlərinin inkişafına çətinliklər yaradır. | Cədvəlin 5-6-cı sətrində bu məsələ geniş qeyd olunub. |
| 27 | Fakültədə illik planlar və layihələr bir-birini təkrarlayır. | 2016/2017-ci tədris ilindən LDU-da struktur dəyişikliklərindən sonra fakültələrin illik planları təkmilləşdirilmişdir. |

| | | |
|---|---|---|
| 28 | Fakültədə *(Universitet üzrə)* fənn jurnalları mövcud deyil. Bu da müəllimlərin və tələbələrin birbaşa dekanatlıqdan asılı vəziyyətə gəlməsinə səbəb olur. | “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.06.2017-ci il tarixli 257 nömrəli qərarına əsasən hər bir fənn üzrə ayrıca jurnalın tərtib olunması ləğv edilmişdir. |
| 29 | Təhsil müəssisəsinin Beynəlxalq informasiya şəbəkəsinə çıxışının zəif olması, Təbiyyat fakültəsinin tələbələrinin müasir informasiya şəbəkəsindən tədris üçün lazımi istifadə imkanlarını məhdudlaşdırmışdır. | UNEC və LDU arasında bağlanmış ikitərəfli qarşılıqlı əməkdaşlıq müqaviləsinə əsasən UNEC tərəfindən Beynəlxalq informasiya şəbəkəsinə çıxış üçün LDU-nun rəsmi saytı üzərindən xüsusi keçid verilmişdir |
| 30 | Tədris laboratoriyaların olmasına baxmayaraq, təchizat bazasının müasir tələblərə cavab verməməsi, fakültədə, aidiyyatı fənnlərin tədrisinin keyfiyyətinə mənfi təsir göstərir. | Cədvəlin 7-ci sətrində bu məsələ geniş qeyd olunub. |
| 31 | Kafedralarda tədris olunan fənnlər üçün fənn proqramları mövcuddur. Köhnəlmiş proqramlar problemi var. Toplu şəklində olan proqramların çap ili köhnədir. Magistraturada bəzi fənnlər üçün proqram yoxdur. | LDU-nun kafedralarının tədris etdiyi fənlər üzrə tərtib olunmuş sillabuslar Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş Təhsil Proqramlarına uyğun olaraq hazırlanmış, müasir tələblərə uyğunlaşdırılmışdır. |
| 32 | Kafedraların tədris etdiyi fənlər üzrə metodiki və maddi-texniki təminatı müasir tələblərə cavab vermir. | Lənkəran Dövlət Universiteti üzrə 24 avqust 2016-cı il tarixdə 1/83 və 3 iyul 2020-ci il tarixdə 4/39 nömrəli əmrlə universitetin strukturunda dəyişiliklər edilmiş, 5 fakültə və 13 kafedra yaradılmışdır. Kafedraların fəaliyyəti müvafiq qanunvericiliyin tələblərinə uyğun həyata keçirilir. |
| 33 | Kafedraların əməkdaşlarının ixtisasartırma kurslarında iştirakının vəziyyəti qənaətbəxş deyil. Yoxlama apardığımız son 5 il ərzində, kafedranın heç bir əməkdaşı ixtisasartırma kurslarında iştirak etməmişdir. | İxtisasartırma kursları təşkil olunmadığı üçün bu məsələ həllini tapmır. Cədvəlin 8-ci sətrində bu məsələ qismən qeyd olunub. |
| 34 | Kafedralarda tədris olunan fənnlər üçün fənn proqramlarında magistratura pilləsi üçün problem var. Magistraturada bəzi fənnlər üçün proqram yoxdur. Köhnəlmiş proqramlar problemi var. | LDU-nun kafedralarının tədris etdiyi fənlər üzrə tərtib olunmuş sillabuslar Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş Təhsil Proqramlarına uyğun olaraq hazırlanmış və müasir tələblərə uyğunlaşdırılmışdır. |
| 35 | "İqtisadiyyat və İdarəetmə" fakültəsinin tabeliyində fəaliyyət göstərən "İqtisadi informatika və ekologiya", "İqtisadiyyat və aqrotexnologiya" və "İqtisadi təhlil və idarəetmə" kafedralarının fəaliyyətində müəyyən qüsurlar aşkar edilmişdir. | Lənkəran Dövlət Universiteti üzrə 24 avqust 2016-cı il tarixdə 1/83 və 03 iyul 2020-ci il tarixdə 4/39 nömrəli əmrlə universitetin strukturunda dəyişiliklər edilmiş, 5 fakültə və 13 kafedra yaradılmışdır. Bununla da LDU-da "İqtisadi informatika və ekologiya", "İqtisadiyyat və aqrotexnologiya" və "İqtisadi təhlil və idarəetmə" adlı kafedralar fəaliyyət göstərmir. |

| | | |
|---|---|---|
| 36 | Lənkəran Dövlət Universitetində çalışan professor müəllim heyətinin 2010/2015- cü illərdə yalnız 10 nəfər müəllim 1 ay müddətində Azərbaycan Dövlət Pedaqoji Universitetində ixtisasartırma kurslarında iştirak etmişdir. | İxtisasartırma kursları təşkil olunmadığı üçün Universitetdə çalışan professor müəllim heyəti bu kurslarda iştirak etməmişdir. |
| 37 | Professor - müəllim heyətindən və digər əməkdaşlardan bəzilərinin ixtisasları işlədikləri kafedra və müvafiq şöbələrə uyğun deyil. Belə ki, fizika üzrə ixtisaslaşan Ş.M.Quliyeva “Siyasi psixologiya", “Etnopsixologiya", "Ümumpsixoloji praktikum", “Psixologiya", “Pedaqogika" fənlərindən dərs aparır. Universitetdə istifadə olunan əmək müqavilələri ƏM-nə əlavə edilmiş nümunəvi formaya uyğun deyil. | Kafedralar üzrə professor-müəllim heyətinə dərs yükü ayrılan zaman onların ixtisasları nəzərə alınır. Hazırda əməkdaşlarla bağlanan əmək müqavilələri ƏM-nə əlavə edilmiş nümunəvi formaya uyğun tərtib edilir. |
| 38 | ƏM-nin 10-1.6 maddəsinə zidd olaraq yaşı 65-dən yuxarı olan əməkdaşlardan onlarla bağlanmış müqavilələrin müddətinin növbəti il üçün uzadılması barədə razılıq ərizələri alınmamışdır. | Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması Azərbaycan Respublikasının Təhsil Nazirinin 07 avqust 1996-ci il, № 401 saylı əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında əsasnamə” ilə tənzimlənir. ARƏM-nin 10-1. -ci maddəsi və onun alt bölmələri «Dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddi»ni müəyyən edir. |

## II. Təhsil müəssisəsinin özünütəhlili
## 4. Özünütəhlil qiymətləndirməsinin icmalı

Lənkəran Dövlət Universitetinin Özünütəhlil Hesabatı Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) F-176 nömrəli 28.10.2022 tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Lənkəran Dövlət Universitetinin Özünütəhlil Hesabatı Elmi Şuranın 28 fevral 2023-cü il tarixli 05 nömrəli protokolu ilə təsdiqlənmiş Təşkilat Komissiyası tərəfindən aparılmışdır. Təşkilat Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

### 1. STRATEJİ İNKİŞAF

*1.1. Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

**1.1.1.ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti**

Lənkəran Dövlət Universitetinin qısa və ortamüddətli dövr üçün strateji inkişaf planı mövcuddur. Universitetin Elmi Şurasının qərarı ilə təsdiq olunmaq üçün Elm və Təhsil Nazirliyinə göndərilmişdir. Lənkəran Dövlət Universitetinin istər respublikanın, istərsə də yaxın və uzaq ölkələrin elm - təhsil məkanına inteqrasiyasına şərait yaradan, daxili və xarici çağırışlara cavab verən Strateji İnkişaf Planı 2022–2030-cu illəri əhatə edir. Regional elm və təhsil mərkəzləri kimi LDU-nun Strateji İnkişaf Planı perspektiv dövr üçün qarşısında duran əsas məqsəd, vəzifə və konkret istiqamətləri formalaşdırmaqla ölkənin təhsil bazarında onun rəqabətqabiliyyətliliyinin təmin edilməsini və inkişaf etmiş

modern universitetin yaradılmasını nəzərdə tutur.
Strateji İnkişaf Planı aşağıdakı prioritet istiqamətləri əhatə etməklə işlənib hazırlanmışdır:

1. Universitetin daxili və xarici mühit amillərinin təhlili əsasında qısa və ortamüddətli dövrdə elm və təhsil sahəsində nailiyyətlərin əldə edilməsinə imkan verən "minimal faktorların" -əsas fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi.
2. Məqsədin formalaşdırılması–LDU-nun strateji inkişafı, strategiyanı xarakterizə edən konkret göstəricilər toplusu və onların əsaslandırılması.
3. Məqsədə çatmağa istiqamətlənmiş vəzifələrin müəyyənləşdirilməsi.
4. Qarşıya qoyulan vəzifələrin icrasına mütəmadi nəzarətin həyata keçirilməsi.

Birinci iki mərhələnin strateji foksunda LDU-nun inkişafı ilə bağlı strateji məqsədlər və onların əsaslandırılması, 3-cü və 4-cü mərhələlərdə isə LDU-nun bu strategiyadan irəli gələn missiyasının reallaşmasını nəzərdə tutan cari işlər xarakterizə edilir.

**1.1.2.ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu**

Lənkəran Dövlət Universitetinin missiyası-dövlətin, regionun və vətəndaş cəmiyyətinin maraqları naminə tələbələrin, professor-müəllim heyətinin və əməkdaşların peşəkar-şəxsi keyfiyyətlərinin yaxşılaşdırılması və inkişafı üçün əlverişli açıq məkanı formalaşdırmaqdan ibarətdir. Müəyyən edilən missiyasından irəli gələrək təhsil, elmi-tədqiqat və innovasiya, beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi, kommunikasiya və reputasiyanın idarə edilməsi, sosial və tərbiyə işləri universitetin fəaliyyət istiqamətlərini təşkil edir.
Ali təhsil ocağının məqsədi yeni unikal əsas və əlavə təhsil proqramlarının formalaşdırılması, perspektivli hesab edilən elmi - metodiki xarakterli tədqiqatların yerinə yetirilməsi ilə regionda fasiləsiz təhsil mərkəzi kimi mövqeyinin möhkəmləndirilməsindən ibarətdir.
Praktiki olaraq mövcud resursların mobilliyi, eləcə də ayrı-ayrı mərhələlər üzrə strategiyanın reallaşmasında professor - müəllim heyətinin aktiv iştirakının təmin edilməsi baxımından universitetin Strateji İnkişaf Planında müəyyən edilən missiyası onun əsas məqsəd və hədəfləri ilə uyğunluq təşkil edir.

**1.1.3.SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu**

Bilik iqtisadiyyatının, o cümlədən rəqəmsal iqtisadiyyatın müasir inkişaf mərhələsində təhsil sistemi gələcək mütəxəssislərdə kreativ və sosial kapitalın formalaşmasına xidmət edən müasir təhsil texnologiyalarının modernləşdirilməsinə istiqamətlənmişdir. Bu baxımdan LDU-nun təhsil siyasəti tələbə və magistrantlarda təhsil, tədqiqat, komanda işi və özünüifadəyə kimi yeni kompetensiyalara (fərdi bilik, bacarıq və vərdişlər) malik məzun modelinin formalaşdırılmasından ibarətdir. Bununla əlaqədar olaraq əmək bazarının, müasir cəmiyyətin, iqtisadiyyatın tələbləri, eləcə də Lənkəran-Astara iqtisadi rayonunda insan kapitalının formalaşması baxımından LDU-nun təhsil sisteminin modernləşdirilməsi SİP-də mühüm hədəf seçilmişdir.
Əmək bazarının inkişaf meyllərinə uyğun olaraq universitet məzunların bazara çıxışının təmin olunmasına, işəgötürənlərin məzunların konkret peşə tələblərinə zəmanət verməklə yüksək keyfiyyətli təhsil mərkəzinə çevrilməyə səy göstərir və müasir rəqəmsal platformalardan istifadə etməklə iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğun gələn yeni iş yerlərinin yaradılması üçün imkanlar axtarır.

**1.1.4.SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu**

Akademik fəaliyyət kredosu "istedadlı tələbə, əməksevər müəllim, nailiyyətlərə sahib ölkə" triadasından təşkil edilən LDU-nun əsas fəaliyyət prinsipi fasiləsiz inkişaf, keyfiyyət ənənələrinə sadiqlik nümayiş etdirən kollektivdə təhsil mədəniyyəti formalaşdırmaqdan ibarətdir.

Akademik fəaliyyəti vətənpərvərlik, şəffaflıq, akademik azadlıq, akademik etika, milli ənənələrə sadiqlik kimi dəyərlər üzərində qurulan LDU-nun SİP-də müəyyən edilən prioritet istiqamətlər qəbul edilən Dövlət Proqramları və Dövlət Strategiyası əsasında tərtib edilməklə ATM qarşısında qoyulan məqsəd və vəzifələrə uyğun olaraq müəyyənləşdirilmişdir.

**1.1.5.SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi**

Strateji İnkişaf Planında müəyyən edilən əsas məqsəd və hədəflər aşağıdakılardan ibarətdir:

-əmək bazarının və peşə standartlarının tələblərinə uyğun yüksək keyfiyyətli mütəxəssis hazırlığının təmin edilməsi;

-təhsil alanlarda kreativ təfəkkürün formalaşması və inkişafı üçün imkanların yaradılması;

-gələcək mütəxəssislərdə innovativ düşüncə stilinə və innovasiya fəaliyyətinin həyata keçirilməsinə motivasiyaların formalaşdırılması:

-universitetin elmi potensialından mütəxəssis hazırlığının keyfiyyətini yüksəltmək üçün maksimum istifadə edilməsi;

-iqtisadi, humanitar, pedoqoji, mühəndis, informasiya - kommunikasiya texnologiyaları, aqrar və s. sahələrdə universitetin lider kimi qəbul edilən imicinin beynəlxalq arenada möhkəmləndirilməsi;

-universitetin inkişafına təkan verə biləcək xarici kapitalın cəlb edilməsi məqsədi ilə rəqabətqabiliyyətli elmi - texnoloji məhsulların yaradılması:

-universitetin elmi fəaliyyətinin respublikanın və Lənkəran - Astara iqtisadi rayonunun innovativ inkişaf amilinə çevrilməsi:

-universitet kollektivinin və tələbələrin sosial - mədəni mühitə effektiv adaptasiyasına imkan verən əlverişli şəraitin yaradılması məqsədilə sosial və tərbiyə işlərinin təkmilləşdirilməsi;

-təhsilalanlar və əməkdaşların peşəkar fəaliyyəti və sosial şəraitinin yaxşılaşdırılması üçün universitetin idarəetmə sisteminin inkişaf etdirilməsi və s.

**1.1.6.SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması**

Universitetin Strateji İnkişaf Planında qısa və orta müddətli dövr üçün görüləcək tədbirlər aşağıdakı kimi müəyyən edilmişdir:

-Lənkəran-Astara iqtisadi rayonunda təhsil siyasətinin formalaşdırılması və reallaşdırılması məqsədilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə strateji əməkdaşlıq münasibətlərini genişləndirmək;

-regionda akademik dəyərlərə və üstünlüyə malik mərkəzləri yaratmaq;

-insan kapitalını inkişaf etdirmək-yüksək sosial və vətəndaş məsuliyyətinə, mədəni dəyərlərə malik şəxsiyyət formalaşdırmaq;

-ortamüddətli dövr üçün regionun ixtisaslı kadrlara tələbatını planlaşdırmağa imkan verən kompleks tədbirlər sisteminin işlənib hazırlanması;

-regional əmək bazarının tələbini ödəmək üçün orta, peşə və orta ixtisas təhsili müəssisələri ilə qarşılıqlı fəaliyyəti sosial əməkdaşlıq prinsipi əsasında inkişaf etdirmək;

-qabaqcıl elmi - texnoloji tədqiqatları təşviq etmək;

-universitet daxilində formalaşmış korporativ mədəniyyəti gücləndirmək;

-sosial infrastrukturu (gələcəkdə kompus infrastrukturunu) inkişaf etdirmək;

-rəqəmsal texnologiyalardan istifadə etməklə universitetin idarəetmə sistemini təkmilləşdirmək;

-sosial - humanitar park kimi qəbul edilən universitetin brendini inkişaf etdirmək və s.

**1.1.7.SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi**

SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və keyfiyyət göstəriciləri qarşıya qoyulan məqsədə və yerinə yetirilməsi nəzərdə tutulan vəzifələrə görə müəyyənləşdirilir:

a) təhsil fəaliyyəti sahəsində: akademik mobillik proqramında iştirak edən müəllimlərin sayının 1,5-2 dəfəyə qədər artırılması; təhsil proqramlarının peşə standartlarının tələblərinə 100% adaptasiya olunması; cari, aralıq və yekun attestasiyaların 100% vahid qiymətləndirmə materialları formatında aparılması; təhsil proqramlarının 20%-nin sertifikasiyalaşdırılmasının xarici steykholderlər tərəfindən icra edilməsi və s.

b) elmi-tədqiqat və innovasiya fəaliyyəti sahəsində: universitetin professor- müəllim heyəti tərəfindən Web of Science və Scopus məlumatlar bazasında indeksləşdirilən resenziyalı beynəlxalq jurnallarda hər 100 müəllimə 10 ədəd hesabı ilə nəşrlərin sayının artırılması; universitetin bazasında elm və texnilkanın prioritet inkişaf istiqamətləri üzrə hər il 10-15 beynəlxalq və ümumrespublika təyinatlı elmi-praktiki konfranslar, seminarlar, dəyirmi masaların təşkil edilməsi; elmi - tədqiqat işlərində iştirak edəcək tələbələrin sayının ümumi tələbə kontingentinin 35 - 40%-ə qədər artırılması; bütün elmi- pedaqoji kollektivin daha geniş formatda universietin tədqiqat və innovasiya fəaliyyətinə cəlb edilməsi məqsədi ilə 2030-cu ilə qədər professor - müəllim heyətinin 60%-dən çoxunun elmi - tədqiqat işlərində aktiv iştirakının təmin edilməsi; elmi-tədqiqat layihələrinin 30%-nin müəssisə və təşkilatların sifarişləri əsasında yerinə yetirilməsi və s.

c) beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi sahəsində: akademik mobil proqramlar üzrə təhsil alanların sayının atırılması: xarici ölkə universitetləri ilə ikili diplom üzrə təhsil proqramlarının reallaşdırılması: professor-müəllim heyəti və əməkdaşların beynəlxalq təkmilləşdirmə səviyyəsinin yüksəldilməsi; dünya təhsil məkanına inteqrasiya mexanizminin inkişaf etdirilməsi və s.

**1.1.8.SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti**

Lənkəran Dövlət Universitetinin Strateji İnkişaf Planına əlavə kimi təqdim edilən fəaliyyət planında 2022-2030-cü illərdə yerinə yetiriləcək tədbirlər, onların icra müddəti, tədbirin həyata kecirilməsi üçün zəruri maliyyə vəsaitilərinin həcmi aşağıdakı istiqamətlər (alt istiqamətlərdə göstərilməklə) üzrə verilmişdir:

a) Müasir tələblərə cavab verən və ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması (Dövlət Proqramına əsasən );

b) Səriştəyə əsaslanan şəxsiyyətyönümlü yeni təhsil sisteminin formalaşdırılması (Dövlət Strategiyasına əsasən):

c) Təhsilin dayanıqlı və muxtəlif mənbələrdən maliyyələşdirilməsinin yeni mexanizminin yaradılması;

d ) Universitetin maddi-texniki bazasının gücləndirilməsi və s.

**1.1.9.SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti**

Universitetin illik büdcə palanlaşdırılması zamanı real islahatların aparılması məqsədilə SİP-də ayrı-ayrı illər üzrə yerinə yetirilməsi proqnozlaşdırılan inzibati - təşkilatı xarakterli tədbirlər istiqamətlər üzrə nəzərə alınır (bax. Lənkəran Dövlət Universitetinin 2022 - 2030 -cu illər üzrə strateji inkişafın həyata keçirilməsi üzrə fəaliyyət planı).

**1.1.10.SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti**

Yeni tip cəmiyyət - informasiya cəmiyyəti universitetin təhsil xidmətləri bazarına təklif etdiyi məhsulların obrazının (reputasiyanı və rəhbərliyin obrazını yaratmaq, təhsil xidmətləri bazarında əlverişli mövqe tutmaq, ali təhsil ocağı kimi universitetin ictimai və sosial xarakteristikasını ifadə etmək) formalaşdırılması, istənilən fəaliyyət sahəsi üçün rəqabətqabiliyyətli kadrların hazırlanması, innovativ texnologiyaların inkişafına şərait yaradan islahatların həyata keçiririlməsi, sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə

transferi, əqli mülkiyyətin qorunması, beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi, kommunikasiya və reputasiyanın idarə edilməsi, təhsil alanlarda kreativ və sosial kapitalın inkişafı, universitetin vahid informasiya mühitinin formalaşdırılması, kadr potensialının inkişafı kimi məsələlərinin diqqətdə saxlanılmasını tələb edir. Qeyd edilən məsələlərin hər biri bu və ya digər dərəcədə SİP-də öz əksini tapmışdır.

**1.1.11.Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması**

2022–2030-cu illəri əhatə edən Strateji İnkişaf Planının işlənilib hazırlanması zamanı daxili və xarici çağırışlara cavab olaraq universitetin bütün fəaliyyət istiqamətləri (təhsil proqramları, maraqlı tərəflərin - tələbələrin, valideynlərin, işə götürülənlərin, məzunların, professor-müəllim heyətinin, elmi-tədqiqat işlərinin, maliyyə - iqtisadi idarəetmənin, tədris metodiki işlərin, infrastrukturun və informasiya-texniki bazanın keyfiyyətinin yaxşılaşdırılması, kommunikasiya və sosial-tərbiyə siyasəti) üzrə innovasiya yönümlü dayanıqlı sistemin formalaşmasına xidmət göstərən mövcud vəziyyəti nəzərə almışdır.

**1.1.12.SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması**

Rəqabətin kəskinləşdiyi, iqtisadi, sosial və digər ictimai problemlərin dərinləşdiyi qloballaşma şəraitində LDU-nun çoxsaylı formatları reallaşdırmağa imkan yaradan çevik təhsil arxitekturası daxilində fəaliyyəti qiymətləndirilməli, ortamüddətli dövrdə cəmiyyətin gələcək ixtisas sahiblərinə tələbi və universitetin bunları ödəyə bilməsi imkanları dəyərləndirilməlidir. Bu ilk növbədə universitetin həyat fəaliyyətinin ümumi şərtləri, onun zəif və güclü cəhətləri nəzərə alınmaqla, imkan və mümkün təhlükələrlə əlaqədar risklərin təhlili əsasında həyata keçirilir. Fərqli münasibətlər sistemi çərçivəsində daha yüksək mədəniyyət daşıyıcıları və düşüncə sahibləri hesab edilən müəllimlər, doktorantlar, magistrant və bakalavrlar üçün gələcək universitet strategiyasının işlənib hazırlanması məqsədilə ayrı-ayrı istiqamətlər üzrə GZİT (S – strengt; W – weakness; O – opportunities; T - threats) təhlili aparılmışdır.

**1.1.13 .SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti**

Strateji İnkişaf Planı müxtəlif foks qruplarının (rektor, prorektorlar, ayrı - ayrı struktur bölmənin rəhbərləri, tələbələr və əməkdaşlar) və Lənkəran-Astara iqtisadi rayonunda fəaliyyət göstərən firma və şirkət rəhbərlərinin, həmçinin menecerlərin “Akademik inkişaf”, “Fundamental tədqiqat”, “Regional inkişafa töfhə”, “Korporativ mədəniyyət”, “Effektiv menecment”, “Rəqəmsallaşdırma strategiyası” və bu kimi müxtəlif istiqamətlər üzrə rəy və tövsiyyələri əsasında işlənib hazırlanmışdır.

**1.1.14.SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi**

Strateji İnkişaf Planı qeyri-mərkəzləşdirmə prinsipi əsasında idarə edilir, səlahiyyətlər müvafiq istiqamətlər üzrə prorektorlara və universitetin müvafiq struktur bölmələrinə verilir. Ayrı-ayrı istiqamətlər üzrə proqram tədbirlərinin reallaşması və müəyyənləşdirilən strateji məqsədlərə nail olmaq üçün layihə qrupları yaradıla bilər. Planda nəzərdə tutulan proqram xarakterli tədbirlərin həyata keçirilməsinin qiymətləndirilməsi və ona nəzarətin təşkili universitetin böyük Elmi Şurası tərəfindən aparılır.

*1.2. Strateji inkişaf proqramının icrası və monitorinqi*

**1.2.1.SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırması vəziyyəti**

Lənkəran Dövlət Universitetinin struktur bölmələrinin dövrü hesabatları 2022-2030-cu illər üzrə “Strateji İnkişaf planından” irəli gələn “Fəaliyyət Planı” əsasında aparılır. Belə ki, burada ayrı-ayrı istiqamətlər üzrə struktur bölmələrinin üzərinə düşən vəzifələr göstərilmişdir.

**1.2.2.SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti**

"Strateji İnkişaf Planı" üzrə Lənkəran Dövlət Universitetinin struktur bölmələrinin dövrü hesabatlarının müzakirəsi müvafiq struktur bölməyə nəzarət edən şəxs tərəfindən həyata keçirilir.

**1.2.3.SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti**

Lənkəran Dövlət Universitetin struktur bölmələrinin illik monitorinqi "Fəaliyyət Planı"nın icrasına nəzarət edən şəxs tərəfindən aparılır.

**1.2.4.SİP-in icrasının dövrü ( illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti**

Universitetin struktur bölmələrinin illik monitorinqinin nəticələrinin müzakirəsi "Strateji İnkişaf Planı"ndan irəli gələn "Fəaliyyət Planı"nın icrasına nəzarət edən şəxs tərəfindən təşkil olunur.

**1.2.5.SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti**

Universitetin struktur bölmələrinin illik monitorinqinin nəticələri müzakirə olunduqdan sonra aidiyyatı strukturlara məlumat verilir. Həmçinin iş sirri olmayan məlumatlar Mətbuat xidməti tərəfindən bəzən açıq media resurslarında, o cümlədən Universitetin rəsmi saytı və sosial media hesablarında dərc olunur. Bununla da maraqlı tərəflər üçün əlçatanlıq təmin olunur.

## 2. KEYFİYYƏT TƏMİNATI

*2.1. Keyfiyyət təminatı siyasəti*

**2.1.1. ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətinini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı.**

Lənkəran Dövlət Universitetinin Keyfiyyət Təminatı Siyasəti sənədi 2022-ci ilin dekabr ayında Elmi Şurada müzakirə olunaraq 5 yanvar 2023-cü il tarixində təsdiqlənmişdir. Keyfiyyət Təminatı Siyasəti *(bundan sonra*-KTS*)* Azərbaycan dövlətinin təhsil siyasəti və cəmiyyətin inkişaf perspektivləri nəzərə alınmaqla, ali təhsilin yüksək səviyyədə təşkili və beynəlxalq rəqabətliliyin artırılması yolu ilə əmək bazarının tələblərinə uyğun, yaradıcı, yüksək ixtisaslı kadr və mütəxəssislərin hazırlanması məqsədi daşıyır. KTS Lənkəran Dövlət Universitetinin Strateji İnkişaf Planı istiqamətlərinə uyğun olmaqla təhsilin keyfiyyətinin təmin olunmasına və fasiləsiz inkişafına yönəlmişdir. KTS LDU-da həyata keçirilən fəaliyyətlərin Boloniya təhsil prosesinin müddəalarına, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə, "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və qaydalar"a, dövlətin bu sahədəki digər müvafiq sənədlərinə və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin normativ hüquqi aktlarına əsaslanır.

**2.1.2.ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti**

KTS LDU-nun bütün fakültə, şöbə və mərkəzlərində keyfiyyət-idarəetmə sisteminin strukturlaşdırılması və idarəedilməsi zamanı Azərbaycan dövlətinin təhsil siyasəti və müasir keyfiyyətin idarəedilməsi anlayışına əsaslanır və bütün əməkdaşlar tərəfindən qəbul edilən əsas elementləri izah edərək keyfiyyət mədəniyyətinin formalaşmasına təkan verir. KTS LDU daxilində müxtəlif fakültə, şöbə və mərkəzlərdə idarəetmə funksiyalarını yerinə yetirərkən qərarların qəbulu, məsləhətləşmə, təsdiq və monitorinq proseslərini izah edir, təhsilalanların ehtiyaclarına uyğun olaraq hazırlanmış standart təhsil proqramının keyfiyyətli icrasını təmin etmək üçün təhsil fəaliyyətlərində iştirak edən müxtəlif struktur bölmələr arasında əlaqə, əməkdaşlıq və koordinasiyanın müntəzəm və davamlı mövcudluğunu ehtiva edir. Müvafiq struktur bölmə rəhbərlərinin birgə fəaliyyətləri nəticəsində təlim-tədris və tədqiqat fəaliyyətləri arasında əməkdaşlıq

və koordinasiyanı dəstəkləyir və gücləndirir. Bunun üçün mütəmadi iclaslar, görüşlər və birgə fəaliyyətlər həyata keçirilir. Bütün struktur bölmələr öz fəaliyyətlərini LDU-nun Strateji İnkişaf Proqram missiyasına və hədəflərinə nail olmaq üçün tələb olunan fəaliyyətlərə uyğun olaraq proqnozlaşdırır və həyata keçirir. Bu proqramdan irəli gələn missiya və istiqamətlərə müvafiq olaraq həyata keçirilən tədbirlərin səmərəliliyi hesabatlar və monitorinq məlumatları əsasında qiymətləndirilir və zərurət olduğu zaman ona uyğun müvafiq qərarlar verilir. Əldə olunan nəticə və təkmilləşdirmənin davamlı olmasına mütəmadi nəzarət olunur.

**2.1.3.ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi**

Hazırlanmış KTS sənədi LDU-da bütün bölmələr, şöbələr, kollegial qurumlar və rəhbər şəxslər üçün etibarlı olan əsas meyardır. Müxtəlif strukturlarda Keyfiyyət Siyasətinin necə yerinə yetiriləcəyi metodologiyasının fərqli olmasını nəzərə alaraq, hər bir struktur mövcud keyfiyyət siyasətinə uyğun olaraq, bu sənəddə göstərilən keyfiyyət tələbinin davamlı və dayanıqlı olması üçün görüləcək işləri müəyyənləşdirir. Ali təhsil müəssisəsinin professor – müəllim heyyəti, əməkdaşları və tələbələri müxtəlif elektron və sosial şəbəkələr vasitəsilə KTS barədə məlumatlıdırlar.

**2.1.4.Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)**

KTS LDU daxilində müxtəlif fakültə, şöbə və mərkəzlərdə idarəetmə funksiyalarını yerinə yetirərkən qərarların qəbulu, məsləhətləşmə, təsdiq və monitorinq proseslərini izah edir, təhsilalanların ehtiyaclarına uyğun olaraq hazırlanmış standart təhsil proqramının keyfiyyətli icrasını təmin etmək üçün təhsil fəaliyyətlərində iştirak edən müxtəlif struktur bölmələr arasında əlaqə, əməkdaşlıq və koordinasiyanın müntəzəm və davamlı mövcudluğunu ehtiva edir. Müvafiq struktur bölmə rəhbərlərinin birgə fəaliyyətləri nəticəsində təlim-tədris və tədqiqat fəaliyyətləri arasında əməkdaşlıq və koordinasiyanı dəstəkləyir və gücləndirir. Bunun üçün mütəmadi iclaslar, görüşlər və birgə fəaliyyətlər həyata keçirilir. Bütün struktur bölmələr öz fəaliyyətlərini LDU-nun Strateji İnkişaf Proqram missiyasına və hədəflərinə nail olmaq üçün tələb olunan fəaliyyətlərə uyğun olaraq proqnozlaşdırır və həyata keçirir. Bu proqramdan irəli gələn missiya və istiqamətlərə müvafiq olaraq həyata keçirilən tədbirlərin səmərəliliyi hesabatlar və monitorinq məlumatları əsasında qiymətləndirilir və zərurət olduğu zaman ona uyğun müvafiq qərarlar verilir. Əldə olunan nəticə və təkmilləşdirmənin davamlı olmasına mütəmadi nəzarət olunur.

*2.2. Daxili keyfiyyət təminatı mexanizmləri*

**2.2.1.ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)**

Universitetdə daxili keyfiyyət təminatı sistemi əvvəllər Tədrisin təşkili və keyfiyyətə nəzarət şöbəsinin tərkibində kollegial orqan formasında təşkil olunmuşdur. Lakin 5 yanvar 2023-cü il tarixində 4/03 saylı əmrlə Universitetdə daxili keyfiyyət təminatı sisteminin möhkəmləndirilməsi məqsədilə Keyfiyyət təminatı üzrə komissiya yaradılmışdır.

**2.2.2.ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması**

Komissiya müxtəlif fakültələri təmsil edən bir qrup əməkdaşdan təşkil olunmuşdur və komissiyaya LDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru sədrlik edir. Komissiya öz fəaliyyəti barədə hesabatı rektora və zəruri hallarda LDU-nun Elmi Şurasına təqdim edir. LDU bu bacarıqları dəstəkləmək üçün struktur bölmələri müvafiq resurlarla təmin edir. LDU-da işəgötürmə prosesi şəffaf və öncədən müəyyən olunmuş

kompetensiya meyarları əsasında aparılır. Akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi öncədən LDU-nun hədəflərinə uyğun olaraq müəyyənləşdirilmiş meyarlar əsasında mütəmadi olaraq aparılır. İnzibati kadrların vəzifəyə təyin olunması və ya vəzifədən kənarlaşdırılması onların vəzifə təlimatlarında müəyyən edilmiş əsas fəaliyyət göstəricilərinin icra olunma vəziyyətinin qiymətləndirilməsinə müvafiq olaraq aparılır. Eləcə də, LDU tərəfindən mütəmadi olaraq inzibati və akademik heyətin (tədris köməkçi heyət də daxil olmaqla) gördükləri işlərin səmərəliliyinin artırılması və onların bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün tədbirlər görülür.

**2.2.3.ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti**

LDU-nun daxili keyfiyyət təminatı sistemi üzrə Fəaliyyət Planının Strateji İnkişaf Planındakı hədəflərə uyğunluğu vəziyyətinin nəzərdən keçirilməsinə və icrasına, eləcə də, keyfiyyət mədəniyyətinin (hər bir kəsin keyfiyyət baxımından bərabər məsuliyyəti bölüşməsi) təmin olunmasına dəstək olacaq işlər həyata keçirilir;

Keyfiyyətli təhsil təminatı istiqaməti LDU-nun Strateji İnkişaf Proqramının tərkib elementidir və onun müvafiq fəaliyyətlərinin planlaşdırılması üçün əsas hesab olunur. LDU-nun daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın əsas məqsədi peşəkar fəaliyyət sahələrinin müasirliyini və inkişafını qabaqcıl nailiyyətlər səviyyəsində təmin edə bilən, ölkədə və xaricdə rəqabətə davamlı məzunlar hazırlamaqdır.

**2.2.4.ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması**

Tədris-metodiki işin məzmunu, forma və metodlarının təkmilləşdirilməsi sahəsində metodiki tövsiyələr hazırlanır, Tədrisin müəyyən olunmuş qaydalar çərçivəsində təşkilinə nəzarət edilir, tədris-proqram sənədlərinin (fənn proqramı və sillabuslar) və tədris-metodiki materiallarının keyfiyyətini təmin edir və tədris prosesinin gedişatına nəzarət (monitorinq) edir. Tədrisin təşkilini, tədris-proqram sənədlərinin və metodiki materialların keyfiyyətini nəzarətdə saxlayır.

**2.2.5.ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması**

LDU daxilində təhsil, təlim, təqdiqat və digər xidmət fəaliyyətləri üçün zəruri olan proseslərin hər bir struktur və bölmə əməkdaşları tərəfindən eyni formada və standart şəkildə yerinə yetirilməsi müəyyən edilir. Bunun üçün lazım olan ümumi qaydalar, prinsiplər, zəruri olan prosedurlar və eləcə də məsul şəxslər müəyyən olunur. Komissiya öz vəzifə borclarının və funksiyalarının icrasını təmin etmək məqsədilə öz işini LDU-nun digər struktur bölmələri, habelə universitetin nəzdində olan təşkilatlar ilə qarşılıqlı əlaqə şəklində qurur. Komissiyanın sədri komissiya üzvləri arasında müəyyən iş bölgüsü aparır və hesabatlara birbaşa nəzarət edir.

**2.2.6.ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti**

Komissiya LDU-da tədrisin və tədrisə dəstək xidmətlərinin (psixoloji, tyutor xidməti, yataqxana, yeməkxana və s.) keyfiyyətinin yüksəldilməsi, fəaliyyətə nəzarəti və davamlı inkişaf funksiyalarını icra edən tələbəyönümlü tədris mühitinin dəstəklənməsi, tədris-metodiki işin məzmun, forma və metodlarının təkmilləşdirilməsi sahəsində metodiki tövsiyələrin işlənməsi üçün səlahiyyətləri olan müvəqqəti kollegial orqandır. Komissiya tədris prosesi ilə bağlı metodiki materialların keyfiyyətinə, dövlət standartlarının tətbiqinə, eləcə də, institusional və proqram akkreditasiyası üzrə özünütəhlil nəticələri haqqında hesabatın hazırlanmasına bilavasitə nəzarət edir.

**2.2.7.ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması**

LDU-nun əsas fəaliyyət sahəsinə aid olan təhsil, tədqiqat, xidmətlər və bu xidmətlərin icrası haqqında ən müasir, qərəzsiz və obyektiv keyfiyyətli məlumatlar, eyni zamanda Təhsil haqqında qanunun müvafiq müddəalarına əsasən aşağıda qeyd olunan sənədlərlə maraqlı tərəflərin tanış olması üçün şərait yaradılır:

1. LDU-nun Nizamnaməsi;
2. LDU-nun və təhsil proqramlarının akkreditasiya məlumatları (Yekun hesabat)
3. Təhsil müəssisəsinin strategiyası;
4. Keyfiyyət Təminatı Siyasəti.

**2.2.8.ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi**

Daxili keyfiyyət təminatı sistemi üzrə aşağıdakı sahələrdə təhlil, monitoriq və qiymətləndirmə aparılır:

- *Tələbələrin inkişafı və müvəffəqiyyəti;*
- *Məzunların məşğulluğu;*
- *Proqramların qiymətləndirilməsi;*
- *Tədqiqatın keyfiyyəti;*
- *Nəşrlərin keyfiyyəti;*
- *Xidmətlərin keyfiyyəti;*
- *Resurslardan səmərəli istifadə;*
- *Tələbə məmnuniyyəti;*
- *İşçi məmnuniyyəti;*

**2.2.9.Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti**

Universitetdə daxili keyfiyyət təminatı sistemi yeni qurulur və Tədrisin təşkili və keyfiyyətə nəzarət şöbəsi olaraq TKTA-nın 16.02.2022-ci il tarixli 00-02-103/TKTA saylı müraciəti ilə bağlı Lənkəran Dövlət Universitetində son akkreditasiya qiymətləndirilməsi zamanı (2016-cı il yanvar) Akkreditasiya Komissiyası tərəfindən hazırlanmış Yekun Hesabatda göstərilən tövsiyələrin icrası və çatışmazlıqların aradan qaldırılması ilə əlaqədar görülmüş işlər barədə hesabat TKTA-ya, 2022-ci ildə görülən işlər barədə şöbənin hesabatı isə LDU rəhbərliytinə təqdim olunmuşdur.

**2.2.10.Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti**

Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrası ilə bağlı Təşkilat komissiyası, İstiqamətlər üzrə İşçi qruplarının yaradlması barədə təqdimatlar LDU rəhbərliyinə təqdim edilərək əmrləşdirilmiş və iclaslar keçirilmişdir. Özünütəhlillə bağlı Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki hazırlanmışdır.

**2.2.11.ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti**

Lənkəran Dövlət Universitetində ayrı-ayrı peşə ixtisaslarının cəmiyyətdə tanıdılması,

Universitet ilə iqtisadiyyat, aqrar və pedaqoji sahənin müxtəlif sektorlarında fəaliyyət göstərən müəssisələr arasında əməkdaşlığın inkişaf etdirilməsi və nəticədə mütəxəssis kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi məqsədi ilə Universitetdə hər il "məzun yarmarkası" keçirilir. 27.05.2022-ci il tarixində Universitet Rektorunun rəhbərliyi ilə Tədrisin təşkili və keyfiyyətə nəzarət şöbəsi olaraq müvafiq fakültə dekanları və kafedra müdirlərinin dəstəyi ilə I saylı tədris korpusunda Lənkəran Dövlət Universiteti və Lənkəran-Astara Regional Məşğulluq filialının birgə təşkilatçılığı ilə məzun yarmarkası keçirilmişdir. Bölgədə fəaliyyət göstərən 50-dən artıq idarə, müəssisə və təşkilatlar tərəfindən məzun yarmarkasına ümumilikdə 450-yə yaxın vakant iş yerləri təqdim olunmuşdur. Bu iş yerləri üzrə işəgötürənlər tərəfindən 600-dən çox məzunun anket forması qəbul edilmişdir. Müəssisələrdə işə qəbul prosesi yerində aparılmadığı və mərhələli olduğu üçün məzun yarmarkası üzrə tədbir günü ərzində 212 məzunun bilik, bacarıq və vərdişləri işəgötürənlərin parametrlərinə uyğun olduğu üçün ilkin mərhələdən uğurla keçmişlər.
Həmçinin 2017/2018-ci tədris ilində elektron formada və 2021/2022-ci tədris ilində ənənəvi formada tələbələrin müəllimlərdən məmunluğu haqqında anonim sorğu keçirilmişdir.

*2.3. Keyfiyyət təminatı mədəniyyəti*

**2.3.1. ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması**

LDU-nun bütün fakültə, şöbə və mərkəzlərində keyfiyyət idarəetmə sisteminin strukturlaşdırılması və idarəedilməsi zamanı Azərbaycan dövlətinin təhsil siyasəti və müasir keyfiyyətin idarəedilməsi anlayışına əsaslanılır və bütün əməkdaşlar tərəfindən qəbul edilən əsas elementləri izah edəilərək keyfiyyət mədəniyyətini formalaşdırılır. LDU daxilində müxtəlif fakültə, şöbə və mərkəzlərində idarəetmə funksiyalarını yerinə yetirərkən qərarların qəbulu, məsləhətləşmə, təsdiq və monitorinq proseslərini izah edlir, təhsilalanların ehtiyaclarına uyğun olaraq hazırlanmış standart təhsil proqramının keyfiyyətli icrasını təmin etmək üçün təhsil fəaliyyətlərində iştirak edən müxtəlif struktur bölmələr arasında əlaqə, əməkdaşlıq və koordinasiyanın müntəzəm olaraq davam etdirilir. Müvafiq struktur bölmə rəhbərlərinin birgə fəaliyyətləri nəticəsində təlim-tədris və tədqiqat fəaliyyətləri arasında əməkdaşlıq və koordinasiyanı dəstəkləyir və gücləndirir. Bunun üçün mütəmadi iclaslar, görüşlər və birgə fəaliyyətlər həyata keçirilir.

**2.3.2.Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması**

Keyfiyyət siyasəti əsasında hazırlanmış fəaliyyət planının icrasına nəzarət edir, digər struktur bölmələrin fəaliyyətinin keyfiyyət baxımından qiymətləndirilməsi metodologiyasını, meyarlarını müəyyənləşdirir və müəyyən olunmuş metodologiya və meyarlar əsasında qiymətləndirilməsini müzakirə edir və hesabatlar hazırlayır.
Tədrisin keyfiyyətini qiymətləndirmək üçün tədris ili ərzində təhsilalanlar və məzunlar arasında müxtəlif mövzularda keçirilmiş sorğuların nəticələrini analiz edərək aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üçün tövsiyələr verir və onların icrasına nəzarət edir.

**2.3.3.Keyfiyyətin təmin olunmasında ATM rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər**

Universitet rəhbərliyi TKTA-nın bütün tədbirlərində Keyfiyyət təminatı şöbəsinin iştirakını təmin edir, vəzifə və funksiyaların yerinə yetirilməsi üçün zəruri olan informasiya və sənədləri müvafiq strukturlardan toplamağa, struktur bölmələrininin fəaliyyəti ilə əlaqədar məsələlərin müzakirəsində iştirak etməyə şərait yaradır.

**2.3.4.Keyfiyyətin təmin olunmasında ATM-nin strukturlararası fəaliyyətin**

**koordinasiyası vəziyyəti**
Keyfiyyət təminatı şöbəsi vəzifə borclarının və funksiyalarının icrasını təmin etmək məqsədilə öz işini LDU-nun digər struktur bölmələri ilə qarşılıqlı əlaqə şəklində qurur.

## 3.TƏLİM VƏ TƏDRİS

*3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

**3.1.1. Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti**
Hər bir tədris ili üçün tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş ixtisasların təhsil proqramlarında qeyd olunan standartlar və tələblər nəzərə alınır. Bu zaman kadr potensialı, infrastruktur, müvafiq laboratoriya, avadanlıqlar, təcrübə sahələrinin mövcudluğu və s. məsələlər analiz edilir. Təhsil proqramında qeyd olunan standart və tələblər ödənildiyi halda həmin ixtisas üzrə tələbə qəbulu sifarişi verilir.
**3.1.2. ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti**
İxtisaslar üzrə təcrübələrin təşkili zamanı Lənkəran Dövlət Universiteti ilə regionda yerləşən aparıcı dövlət və özəl müəssisələr ilə müqavilələr bağlanılır. Həmçinin əhalinin regional məşğulluq mərkəzləri və kadr agentlikləri ilə qarşılıqlı əlaqələr yaradılır. Bundan əlavə hər tədris ilinin sonunda (pandemiya dövrü istisna olmaqla) "Məzun yarmarkası və açıq qapı günü" təşkil olunur və bu tədbirə müəssisələrin nümayəndələri dəvət olunurlar. Beləliklə, müəssisələr ilə əlaqələrin qurulması və işəgötürənlərlə sıx təmasların yaradılması əmək bazarında olan tələbatı müəyyən etməyə imkan verir. Bütün bu qeyd olunanlara əsasən alınmış nəticələr tələbə qəbulu sifarişlərinin müəyyən edilməsi (ixtisaslar və yerlərin sayı) zamanı əsas götürülür.
**3.1.3.Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti**
3.1.2-ci yarımbənddə qeyd olunduğu kimi Lənkəran Dövlət Universiteti ilə regionda yerləşən aparıcı dövlət və özəl müəssisələr, o cümlədən, regional məşğulluq mərkəzləri və kadr agentlikləri arasında yaradılmış qarşılıqlı əlaqələr nəticəsində işəgötürənlərin fikirləri, təklifləri və tövsiyyələri (rəsmi və ya qeyri-rəsmi formada müraciətlərinə əsasən) nəzərə alınır və tələbə qəbulu üzrə sifarişlərin formalaşmasında əsas götürülür.
**3.1.4. Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti**
Qəbul olmuş tələbələrin əvvəlki təhsili tanınır və əvvəlki təhsilində fənlər üzrə qazandıqları kreditlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20.05.2019-cu il tarixli 230 nömrəli qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları"na əsasən qəbul olunduqları ixtisasın təhsil proqramına uyğun olaraq nəzərə alınır. Hər tədris ilində həmin tələbələrin əvvəlki təhsilini təsdiq edən sənədlərinə (diplom, diploma əlavə və s.) əsasən fənlər üzrə qazandıqları kreditlərinin təhsil proqramına uyğun olaraq qəbul edilməsi barədə Lənkəran Dövlət Universiteti üzrə müvafiq əmrlər verilir.

*3.2. Təhsil proqramları*

**3.2.1.ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi**
Lənkəran Dövlət Universitetində ali təhsil pilləsinin hər üç səviyyəsi (bakalavriat, magistratura və doktorantura) üzrə kadr hazırlığı aparılır. Bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə kadr hazırlığı həyata keçirilən ixtisaslar (ixtisaslaşmalar)

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11.02.2019-cu il tarixli 45 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.06.2011-ci il tarixli 95 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15.03.2012-ci il tarixli 65 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na uyğundur. Həmin ixtisasların (ixtisaslaşmaların) siyahısı təhsil səviyyələri üzrə aşağıdakı kimidir:

***Bakalavriat səviyyəsi üzrə:***

| | | |
|---|---|---|
| *1.* | *050101* | *Azərbaycan dili və ədəbiyyatı müəllimliyi* |
| *2.* | *050103* | *Coğrafiya müəllimliyi* |
| *3.* | *050105* | *Fizika müəllimliyi* |
| *4.* | *050107* | *İbtidai sinif müəllimliyi* |
| *5.* | *050110* | *Kimya və biologiya müəllimliyi* |
| *6.* | *050112* | *Məktəbəqədər təhsil* |
| *7.* | *050113* | *Musiqi müəllimliyi* |
| *8.* | *050114* | *Riyaziyyat müəllimliyi* |
| *9.* | *050115* | *Riyaziyyat və informatika müəllimliyi* |
| *10.* | *050116* | *Tarix müəllimliyi* |
| *11.* | *050117* | *Tarix və coğrafiya müəllimliyi* |
| *12.* | *050118* | *Təhsildə sosial-psixoloji xidmət* |
| *13.* | *050119* | *Təsviri incəsənət müəllimliyi* |
| *14.* | *050120* | *Texnologiya müəllimliyi* |
| *15.* | *050121* | *Xarici dil müəllimliyi (ingilis dili üzrə)* |
| *16.* | *050215* | *Tərcümə (ingilis dili üzrə)* |
| *17.* | *050310* | *Muzey, arxiv işi və abidələrin qorunması* |
| *18.* | *050401* | *Beynəlxalq ticarət və logistika* |
| *19.* | *050402* | *Biznesin idarə edilməsi* |
| *20.* | *050404* | *Dövlət və bələdiyyə idarəetməsi* |
| *21.* | *050405* | *İqtisadiyyat* |
| *22.* | *050406* | *Maliyyə* |
| *23.* | *050407* | *Marketinq* |
| *24.* | *050408* | *Menecment* |
| *25.* | *050409* | *Mühasibat* |
| *26.* | *050504* | *Ekologiya* |
| *27.* | *050602* | *Aqromühəndislik* |
| *28.* | *050616* | *İnformasiya texnologiyaları* |
| *29.* | *050620* | *Kompüter mühəndisliyi* |
| *30.* | *050635* | *Qida mühəndisliyi* |
| *31.* | *050701* | *Aqronomluq* |
| *32.* | *050702* | *Bağçılıq və tərəvəzçilik* |
| *33.* | *050704* | *Baytarlıq təbabəti* |
| *34.* | *050705* | *Bitki mühafizəsi* |
| *35.* | *050706* | *Meşəçilik* |
| *36.* | *050707* | *Şərabçılıq* |
| *37.* | *050709* | *Torpaqşünaslıq və aqrokimya* |
| *38.* | *050711* | *Zoomühəndislik* |
| *39.* | *050807* | *Sosial iş* |

| | | |
|---|---|---|
| 40. | 050810 | *Turizm işinin təşkili* |

***Magistratura səviyyəsi üzrə:***

| | | |
|---|---|---|
| 1. | 060101 | *Azərbaycan dili və ədəbiyyatı müəllimliyi*<br>*- Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası* |
| 2. | 060103 | *Xarici dil müəllimliyi (ingilis dili üzrə)*<br>*- İngilis dilinin tədrisi metodikası və metodologiyası* |
| 3. | 060105 | *Riyaziyyat müəllimliyi*<br>*- Riyaziyyatın tədrisi metodikası və metodologiyası* |
| 4. | 060107 | *Texnologiya müəllimliyi*<br>*- Texnologiya fənninin tədrisi metodikası və metodologiyası* |
| 5. | 060109 | *Biologiya müəllimliyi*<br>*- Biologiya fənninin tədrisi metodikası və metodologiyası* |
| 6. | 060110 | *Kimya müəllimliyi*<br>*- Kimya fənninin tədrisi metodikası və metodologiyası* |
| 7. | 060111 | *Tarix müəllimliyi*<br>*- Tarix fənninin tədrisi metodikası və metodologiyası* |
| 8. | 060112 | *Coğrafiya müəllimliyi*<br>*- Coğrafiya fənninin tədrisi metodikası və metodologiyası* |
| 9. | 060113 | *İnformatika müəllimliyi*<br>*- İnformatika fənninin tədrisi metodikası və metodologiyası* |
| 10. | 060115 | *İbtidai sinif müəllimliyi*<br>*- İbtidai sinifdə tədrisin metodika və metodologiyası* |
| 11. | 060117 | *Məktəbəqədər təlim və tərbiyə*<br>*- Məktəbəqədər təlim və tərbiyənin metodika və metodologiyası* |
| 12. | 060119 | *Pedaqogika*<br>*- Təhsildə qiymətləndirmə və monitorinq* |
| 13. | 060301 | *Muzeyşünaslıq, arxiv və abidələrin qorunması*<br>*- Muzeyşünaslıq* |
| 14. | 060402 | *Mühasibat uçotu və audit*<br>*- İstehsal sferasında mühasibat uçotu və audit* |
| 15. | 060403 | *Maliyyə*<br>*- Maliyyə menecmenti* |
| 16. | 060404 | *İqtisadiyyat*<br>*İqtisadiyyatın tənzimlənməsi* |
| 17. | 060408 | *Marketinq*<br>*- Marketinq (sahələr üzrə)* |
| 18. | 060409 | *Biznesin idarə edilməsi*<br>*- Biznesin təşkili və idarə edilməsi* |
| 19. | 060409 | *MBA proqramı üzrə Biznesin idarə edilməsi*<br>*- Biznesin təşkili və idarə edilməsi (aqrobiznes)*<br>*- Biznesin təşkili və idarə edilməsi (ərzaq sahəsi üzrə)* |
| 20. | 060510 | *Ekologiya*<br>*- Ətraf mühitin mühafizə metodları və bərpası* |
| 21. | 060631 | *Kompüter mühəndisliyi*<br>*- Kompüter mühəndisliyi* |
| 22. | 060632 | *İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi* |

| | | |
|---|---|---|
| | | *- İnformasiya texnologiyaları və telekommunikasiya sistemləri* |
| *23.* | *060642* | *Qida məhsulları mühəndisliyi*<br>*- Qida təhlükəsizliyi* |
| *24.* | *060701* | *Torpaqşünaslıq və aqrokimya*<br>*- Aqrokimya* |
| *25.* | *060702* | *Aqronomluq*<br>*- Meyvəçilik* |
| *26.* | *060704* | *Baytarlıq*<br>*- Baytar-sanitar ekspertizası* |
| *27.* | *060708* | *Meşəçilik*<br>*- Meşə quruluşu* |
| *28.* | *060803* | *Turizm və otelçilik*<br>*- Turizm və sosial-mədəni servis xidməti* |

***Doktorantura səviyyəsi üzrə:***

| | | |
|---|---|---|
| *1.* | *1211.01* | *Diferensial tənliklər* |
| *2.* | *2415.01* | *Molekulyar biologiya* |
| *3.* | *5301.01* | *Daxili fiskal siyasət və dövlət maliyyəsi* |
| *4.* | *5404.01* | *Regional coğrafiya* |
| *5.* | *5408.01* | *Fiziki coğrafiya və biocoğrafiya torpaq coğrafiyası, landşaftalrın geofizikası və geokimyası* |
| *6.* | *5503.02* | *Vətən tarixi* |
| *7.* | *5801.01* | *Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası* |
| *8.* | *5802.01* | *Təhsilin təşkili və planlaşdırılması* |
| *9.* | *5808.01* | *Sosial pedaqogika* |
| *10.* | *6107.01* | *Ümumi psixologiya* |

**3.2.2. ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti**

İxtisasların təhsil proqramları bir qayda olaraq Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunur. Burada ümumi və ixtisas fənləri, onların məzmunu və kreditləri müəyyən olunur. Təhsil proqramlarında kreditlərin bir qismi ali təhsil müəsissəsi tərəfindən müəyyən olunan fənlərə ayrılır. Həmin fənlər Lənkəran Dövlət Universiteti tərəfindən müəyyən olunarkən professor-müəllim heyətinin təcrübəsi, yerli və beynəlxalq iş imkanları, eləcə də, işəgötürənlərin təklif və tövsiyələri əsas götürülərək əmək bazarının və cəmiyyətin tələbləri nəzərə alınır.

**3.2.3. ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti**

Universitetdə kadr hazırlığı aparılan ixtisasların təhsil proqramları Elm və Təhsil Nazirliyi tərəfindən hazırlanır, peşə və kvalifikasiya standartlarına uyğundur.

**3.2.4.Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu**

Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş təhsil proqramları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18.07.2018-ci il tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin tələblərinə uyğundur.

**3.2.5.Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu**

İxtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələri və məzmun standartları Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş təhsil proqramlarında öz əksini tapmışdır. Universitetdə hazırlanan fənn proqramları və tədris planları bu təhsil proqramına əsasən tərtib olunmuşdur.

**3.2.6. Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu**

Təhsil proqramları üzrə ixtisasların tədris planları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinə əsasən Avropa Kredit Transfer Sisteminin (AKTS) prinsiplərinə uyğun olaraq hazırlanır. Tədris planlarında bir kredit tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabərdir. Bu saatların 40%-ni auditoriya, 60%-ni isə auditoriyadankənar saatlar təşkil edir. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. Həftəlik auditoriya saatının həcmi 20-22 saat (bəzi hallarda daha az) müəyyən edilmişdir.

**3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu**

Təhsil proqramlarında əksini tapmış ümumi və ixtisas fənləri həmin proqramda nəzərdə tutulmuş kreditə və mövzulara uyğun olaraq tədris olunur. Bu zaman təhsil proqramında qeyd olunan tələblər nəzərə alınaraq fənn proqramı və sillabuslar tərtib edilir. Ali təhsil müəssisəsi tərəfindən müəyyən olunan fənlər isə Lənkəran Dövlət Universiteti tərəfindən professor-müəllim heyətinin təcrübəsi, tədqiqat infrastukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq tədris planına daxil edilir. Bu fənlər tələbələr üçün seçmə xarakteri daşıyır.

**3.2.8.Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu**

Təhsil proqramları üzrə ixtisasların tədris planları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinə əsasən hazırlanır. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. Həftəlik auditoriya saatının həcmi 20-22 saat (bəzi hallarda daha az) müəyyən edilmişdir.

**3.2.9.Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı**

Əldə olunacaq təhsil proqramları, təlim nəticələri haqqında məlumatlar fənlər üzrə sillabuslarda öz əksini tapır. Sillabuslar semestrin əvvəlində çap və elektron formatda tələbələrə təqdim edilir. Bu da həmin təlim nəticələrinin tələbələr və ictimaiyyət üçün əlaçatanlığını təmin edir. Həmçinin təlim nəticələri müvafiq komissiyalarda, kafedra iclaslarında vacib olduqda Elmi şurada müzakirə olunur və universitetin veb saytında, sosial şəbəkə hesablarında mütəmadi olaraq paylaşılır.

**3.2.10.Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti**

Təhsil proqramları Elm və Təhsil Nazirliyi tərəfindən hazırlanır və təsdiqlənir. Təhsil proqramında müəyyən kredit miqdarında fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən olunur. Həmin fənlər Lənkəran Dövlət Universiteti tərəfindən müəyyən olunan zaman işəgötürənlərin fikirləri, təklif və tövsiyyələri nəzərə alınır.

3.3. *Tədrisin təşkili*

**3.3.1.Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti**

İxtisasın (ixtisaslaşmanın) təhsil proqramına əsasən tədris planları Azərbaycan

Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinə uyğun olaraq tərtib edilir (bu qaydalara əlavə olunmuş forma əsasında). Belə ki, ali təhsilin hər iki səviyyəsində əyani təhsilalma forması üzrə tədris ili 40 həftədir. Hər semestr 20 həftədən (o cümlədən, 5 həftə imtahan sessiyası) ibarətdir. Qiyabi təhsilalma forması üzrə tədris ili 32 həftədir. Hər semestr 16 həftədən (o cümlədən, 1 həftə imtahan sessiyası) ibarətdir. Bir semestrə, tədrisə tam cəlb olunan (fulltime) tələbəyə əyani təhsilalma forması üzrə 30 kredit, qiyabi təhsilalma forması üzrə 24 kredit (tələbənin prerekvizit fənn və ya fənlərdən akademik borcu qaldığı halda, kreditlərin sayı az ola bilər) müəyyənləşdirilir. Bir kredit tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabərdir. Ümumi saatların 40%-ni auditoriya, 60%-ni isə auditoriyadankənar saatlar təşkil edir. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. Həftəlik auditoriya saatının həcmi 20-22 saat (bəzi hallarda daha az) müəyyən edilmişdir. Tələbənin həftəlik işinin həcmi 1,5 kreditdir (yay semestri istisna olmaqla). Buraxılış işinin, magistrlik dissertasiyasının hazırlanmasına və müdafiəsinə, eləcə də buraxılış dövlət və semestr imtahanlarına hazırlığa, imtahanın verilməsinə və təcrübələrin keçirilməsinə ayrılmış hər bir həftə 1,5 kreditə bərabərdir. İxtisasın (ixtisaslaşmanın) təhsil müddətindən asılı olaraq, tələbələrə bakalavriatda 240-300 kredit, magistraturada isə 120 kredit müəyyənləşdirilir. Hər semestrdə tədris olunan fənlərin sayı 6-dan çox olmur.

**3.3.2.İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti**

İxtisasların (ixtisaslaşmaların) tədris qrafiki Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinə uyğun olaraq hazırlanır (bu qaydalara əlavə olunmuş forma əsasında). Həmin tədris qrafikləri ixtisasların (ixtisaslaşmaların) aid olduqları fakültə dekanlıqlarında saxlanılır.

**3.3.3.Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti**

Təhsil proqramında ümumi və ixtisas fənlərinin kreditinin bir qismi ali məktəb tərəfindən müəyyən olunan fənlərə ayrılır. Təhsil proqramına uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələbləri əsasında hazırlanmış tədris planlarında həm ümumi, həm də ixtisas fənləri məcburi və seçmə fənlərə bölünür. Məcburi fənlər də öz növbəsində ardıcıl öyrənilən və ardıcıllığı vacib olmayan fənlərə bölünür. Seçmə fənlər ali məktəb tərəfindən müəyyən olunur və tələbələr üçün seçmə xarakteri daşıyır.

**3.3.4.Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti**

Hər bir ixtisasın Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş təhsil proqramında ümumi və ixtisas fənlərinin kredit miqdarı konkret olaraq göstərilir. Bu təhsil proqramı əsasında tərtib olunan tədris planlarında proqrama uyğun olaraq ümumi və ixtisas fənləri arasında balans saxlanılır. Eyni zamanda seçmə fənlər də ümumi və ixtisas fənləri olmaqla balanslı şəkildə bölünür.

**3.3.5.Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti**

Fənnin proqramı və sillabuslar tərtib edilərkən fənnin təlim nəticələri Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş ixtisasın təhsil proqramında əksini tapmış təlim nəticələri ilə əlaqələndirilir. Uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mütəmadi olaraq kafedra iclaslarında və bu məqsədlə yaradılmış komissiyaların iclaslarında həyata keçirilir.

**3.3.6. Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti**

Fənnin təlim nəticələri fənn sillabuslarının müvafiq bəndlərində öz əksini tapır və buna həmin fənnə aid kafedra müdirləri və Tədrisin təşkili təlim tenologiyalarının tətbiqi şöbəsi sillabusların təsdiq olunmasından qabaq nəzarət edir.

**3.3.7.Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti**

Tədris planında bir kredit tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq (qiyabi təhsilalma forması üzrə 10 saat) işinə bərabərdir. Ümumi saatların 40%-ni auditoriya, 60%-ni isə auditoriyadankənar saatlar təşkil edir. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. Həftəlik auditoriya saatının həcmi 20-22 saat (bəzi hallarda daha az) müəyyən edilmişdir. Hər semestrdə tədris olunan fənlərin sayı 6-dan çox deyil. Bütün bunlar da tələbələrin dərsdənkənar məşğələlərə vaxt ayırmasına kifayət edir.

**3.3.8.Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti**

Tələbələrin fərdi tədris planları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinə uyğun olaraq tyutorların nəzarəti ilə hazırlanır (bu qaydalara əlavə olunmuş forma əsasında). Həmin fərdi tədris planları tyutorların nəzarəti altında olmaqla fakültələrdə saxlanılır.

**3.3.9.İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti**

İxtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinə uyğun olaraq hazırlanır (bu qaydalara əlavə olunmuş forma əsasında). Həmin illik işçi tədris planları ixtisasların (ixtisaslaşmaların) aid olduqları fakültə dekanlıqlarında saxlanılır.

**3.3.10.Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti**

Müəllimlərin illik işçi tədris planı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinə uyğun olaraq hazırlanır (bu qaydalara əlavə olunmuş forma əsasında). Bu illik işçi tədris planları müvafiq kafedralarda saxlanılır.

**3.3.11. Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)**

Tədris növlərinə (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlər) ayrılan saatların miqdarı müvafiq ixtisasların və ixtisaslaşmaların təsdiqlənmiş tədris planına uyğun olaraq müəyyən olunur.Bütün fakültələr üzrə ixtisas və ixtisaslaşmaların tədris növlərinin saatları tədris planı ilə eynilik təşli edir.

**3.3.12.Məsləhət xidmətinin təşkili vəziyyəti**

Fənn üzrə tərtib olunmuş sillabuslarda müvafiq bölmədə professor-müəllim heyətinin məsləhət günləri və vaxtları qeyd olunur. Kafedra müdirləri tərəfindən məsləhət xidməti cədvəlləri tərtib olunmuş və buna əsasən məsləhət xidməti təşkil olunur.

**3.3.13.Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti**

Hazırda Lənkəran Dövlət Universiteti üzrə sərbəst işlər nəzərdə tutulmayıb.

**3.3.14. Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti**

Lənkəran Dövlət Universitetində Elmi Şurasının 25.09.2017-ci il tarixli 01 saylı protokolu ilə təsdiq olunmuş "Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Qaydaları"na və tədris planlarına uyğun olaraq bakalavriat səviyyəsində 14 (on dörd) həftəlik istehsalat təcrübəsi, pedaqoji yönümlü ixtisaslarının sonuncu tədris ili tələbələri üçün isə 14 (on dörd) həftəlik pedaqoji təcrübə təşkil olunur. İstehsalat təcrübəsinin təşkili ilə əlaqədar bir çox müəssisələrlə (1 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsi, Milli Aerokosmik Agentliyi Xüsusi Konstruktor Texnoloji Bürosu, Qida Təhlükəsizliyi Agentliyinin Lənkəran regional bölməsi, Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun Lənkəran Bölgə Zona Təcrübə Stansiyası, Azərbaycan Elmi Tədqiqat və Çay İnstitutunun Lənkəran Çay filialı, Lənkəran Regional Aqrar Təlim Mərkəzi, Lənkəran Regional Meşə Təsərrüfatı Mərkəzi, Dövlət Arxivinin Lənkəran Filialı, Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi, "LŞ Audit" MMC, Lənkəran Şəhər Statistika İdarəsi, Azərbaycan Mikro Kredit BOKT MMC, "Bank Respublika" ASC-nin Lənkəran filialı, "Kapital Bank" ASC Lənkəran filialı, "İsmayıl Kredit İttifaqı" MMC-nin Lənkəran filialı, "ASEL" Kredit BOKT MMC-nin Lənkəran filialı, "Kredit evi" QSC Lənkəran filialı, "La Ran" MMC Şirniyyat fabriki, "Qızıl Tac" mehmanxanası, "Elit" Kredit İttifaqı, "Grand" kredit təşkilatının Lənkəran filialı, "Lankaran Springs Wellness Resort" sanatoriyası, "Hirkan Park Hotel") müqavilələr bağlanmışdır. Həmçinin pedaqoji təcrübənin təşkili ilə əlaqədar Lənkəran şəhər 2, 3, 6, 7, 8, 10 №-li tam orta ümumtəhsil məktəbləri, Xarici dillər təmayüllü gimnaziya, Lənkəran şəhəri 17 saylı körpələr evi-uşaq bağçası və "Nağıl Lənkəran" körpələr evi-uşaq bağçası ilə müqavilələr bağlanmışdır. Cari tədris ilində bakalavriat səviyyəsi üzrə "Baytarlıq" ixtisasının 5-ci tədris ili tələbələri Türkiyənin Kars-Kafkas Universitetində təcrübə keçirlər.

**3.3.15. Stajkeçmənin təşkili vəziyyəti**

LDU-nun "Xarici dillər və tərcümə", "Maliyyə idarəetməsi və audit", "Tarix və onun tədrisi metodikası" kafedralarının müəllimlərinin Rumuniya və Türkiyə Cümhuriyyətində, "Baytarlıq və Aqrar elmlər" kafedrasının müəllimlərinin Gürcüstan Respublikasında təcrübə mübadiləsidə olmuşdurlar. Həmçinin Türkiyə Cümhuriyyətinin Kars-Kafkas Universitetinin professor-müəllim heyyəti LDU-da tələbələrə dərs keçmiş və eyni zamanda LDU müəllimlər arasında təcrübə mübadiləsi apararaq elmi-tədqiqat və pedaqoji biliklərini paylaşmışlar. Hazırda bu əməkdaşlıq prossesi davam edir. Son illərdə Türkiyənin Kars-Kafkas Universitetinin professor-müəllim heyəti LDU-nun "Aqrar və mühəndislik" fakültəsinin tələbələrinə dərs keçirlər və yerli müəllimlərlə öz təcrübəsini paylaşırlar.

**3.3.16. Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili**

**vəziyyəti**
Lənkəran Dövlət Universiteti üzrə kadr hazırlığı aparılan ixtisasların (ixtisaslaşmaların) spesifikasına görə zərurət olmadığı üçün kurs layihəsinin (işi) və referatların hazırlanması təşkil olunmur. Lakin Universitetində 2017-ci ildən etibarən 715 magistrant qəbul olunmuş, 306 magistrant dissertasiya işini uğurla müdafiə edərək magistr dərəcəsi almışdır.

**3.3.17.Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti**

Lənkəran Dövlət Universitetində 2017-ci il üzrə 66 magistrant qəbul olunmuş, 21 magistrant dissertasiya işini uğurla müdafiə etmişdir, 2018-ci il üzrə 63 magistrant qəbul olunmuş, 18 magistrant dissertasiya işini uğurla müdafiə etmişdir, 2019-cu il üzrə 67 magistrant qəbul olunmuş, 51 magistrant dissertasiya işini uğurla müdafiə etmişdir, 2020-ci il üzrə 136 magistrant qəbul olunmuş, 47 magistrant dissertasiya işini uğurla müdafiə etmişdir, 2021-ci il üzrə 197 magistrant qəbul olunmuş, 57 magistrant dissertasiya işini uğurla müdafiə etmişdir, 2022-ci il üzrə 186 magistrant qəbul olunmuş, 112 magistrant dissertasiya işini uğurla müdafiə etmişdir.

**3.3.18. İmtahan sessiyasının təşkili vəziyyəti**

Hər semestrin sonu imtahan sessiyasının təşkili və keçirilməsi haqqında müvafiq əmr verilir. Bu əmrə əsasən hər bir tədris korpusunda imtahan sessiyası təşkil olunur. İmtahan sessiyası üçün tələbə sayına uyğun imtahan zalları hazırlanır və lazımi maddi-texniki baza ilə təmin edilir. İmtahan zalları üzrə universitet əməkdaşlarından ibarət nəzarətçi-koordinator qrupları yaradılır. Fakültələr üzrə hazırlanmış imtahan cədvəlləri əvvəlcədən tələbələrə elan edilir. Hər bir fakültə üzrə tələbələr arasında imtahan qaydaları ilə bağlı maarifləndirmə aparılır.
Bəzi spesifik fənlər istisna olmaqla digər fənlər üzrə imtahanlar yazılı formada təşkil olunur. İmtahanda suallarını cavablandırmaq üçün tələbələrə 2 saat 30 dəqiqə vaxt verilir. İmtahan qaydalarını pozan tələbələrin nəticələri aktlaşdırılaraq ləğv edilir.
Obyektivliyi təmin etmək məqsədilə tələbələrin yazılı cavabları kodlaşdırma heyəti tərəfindən kodlaşdırılır. Kodlaşdırılmış yazılı cavabların yoxlanılması prosesinə əksər hallarda bir neçə mütəxəssis-müəllim cəlb olunur. Tələbələrin  imtahan nəticələri operativ olaraq imtahan günü onların elektron şəxsi kabinetlərində elan olunur.
İmtahan sessiyasının təşkili haqqında əmrə əsasən tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etmək, yarana biləcək neqativ halları dərhal aradan qaldırmaq və digər müvafiq tədbirləri həyata keçirmək məqsədi ilə Operativ Qərargah yaradılır və tərkibinə universitetin rəhbər şəxsləri daxil edilir. Sessiyanın gedişatı Operativ Qərargahın iclaslarında mütəmadi olaraq müzakirə olunur və qərarlar qəbul olunur.  Eyni zamanda imtahanların təşkili və gedişatında nöqsanlara, neqativ hallara yol vermiş şəxslər barədə mövcud qanunvericiliyə uyğun tədbirlər göürülür.
İmtahanların nəticəsindən yarana biləcək narazılıqların və şikayətlərin mövcud qaydada araşdırılması və müvafiq qərar qəbul edilməsi məqsədi ilə hər bir tədris korpusu üzrə apellyasiya komissiyaları yaradılır. İmtahan nəticələrindən narazı olan tələbələrin müraciətlərinə ədalətlilik prinsipi əsasında qanunauyğun şəkildə baxılır və cavablandırılır.
Cari və aralıq qiymətləndirmənin nəticələrinə, habelə aralıq qiymətləndirmənin nəticəsinə görə, eləcə də üzrsüz səbəbdən imtahanda iştirak etmədiyinə görə akademik borcu yaranmış tələbəyə həmin fənn (fənlər) üzrə təkrar imtahan vermək üçün imtahan sessiyasından sonra növbəti semestr başlayanadək şərait yaradılır. Üzrlü səbəbdən imtahanda (imtahanlarda) iştirak etməyən tələbəyə isə növbəti semestrin dərsləri başlanana qədər bir dəfə həmin imtahanı (imtahanları) vermək imkanı yaradılır.
İmtahan sessiyasının gedişatı haqqında universitetin mətbuat xidməti tərəfindən ictimaiyyətə və mediaya mütəmadi olaraq informasiya verilir. Həmçinin ictimaiyyətlə

əlaqələri genişləndirmək, universitetdə görülən işlərin əhali arasında təbliği və obyektiv qiymətləndirilməsi məqsədi ilə yaradılmış "İctimai şura" imtahan sessiyasının gedişatını müntəzəm olaraq izləyir.
İmtahan sessiyası bitdikdən sonra sessiyanın təşkili, keçirilməsi və nəticəsi barədə Elm və Təhsil Nazirliyinə yekun hesabat göndərilir.
Qeyd edək ki, pandemiya dövründə də imtahan sessiyası "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs tərəfindən hazırlanmış "İmtahanlar zamanı koronavirus infeksiyasının (COVİD-19) profilaktikasına dair metodiki göstərişlər" və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10.09.2020-ci il tarixli 332 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"n tələbləri gözlənilməklə təşkil edilmiş və keçirilmişdir. Tədris distant formada təşkil edilən semestrlərdə imtahanlar onlayn şəkildə keçirilmişdir. Bu zaman tələbələrin apellyasiya müraciətləri onlayn formada qəbul edilmiş və cavablandırılmışdır.

**3.3.19. Yay semestrinin təşkili vəziyyəti**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinə uyğun olaraq hər tədris ilində yay semestri təşkil olunur. Akademik təqvimə uyğun olaraq yaz semestri başa çatdıqdan sonra 6 (altı) həftəlik yay semestri (nəzəri təlim və imtahanlar) təşkil olunur. İmtahan müddəti 1 (bir) həftədən artıq olmamaqla, yay semestrinin sonuncu həftəsində təşkil edilir. Yay semestri və imtahanlar növbəti tədris ilinin başlanmasına 2 həftə qalanadək başa çatdırılır. Yay semestrinin təşkili haqqında müvafiq əmr verilir və əmrdə yay semestrinə cavabdeh şəxslər təyin olunur (bu işə tyutorlar da cəlb olunurlar). Yay semestrinə müəllimlər könüllü surətdə cəlb olunurlar. Bu zaman müəllimin fəaliyyətinin ödəniş məbləği saathesabı qaydada həyata keçirilir. Fənn üzrə qrupdan əldə olunan vəsaitin hesabına bu işə cəlb olunan digər əməkdaşların da əməkhaqları ödənilir. İmtahanlıarın təşkili barədə də müvafiq əmr verilir. Bu əmrə əsasən nəzarətçi-koordinator qrupu və apellyasiya komissiyası yaradılır. Yay semestrində üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbələr üçün növbəti semestrin başlanğıcına qədər bir dəfə imtahan təşkil olunur.

**3.3.20. Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası**






**3.3.21. Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illərin üzrə dinamikası**




**3.3.22. Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyi Tədrisin təşkili və təlim texnologiyaları mərkəzi, fakültə dekanlıqları və kafedralar tərəfindən izlənilir. Təlim nəticələrinə maksimum nail olmaq üçün həmin noramalarda müntəzəm olaraq təkmilləşdirmələr aparılır. Buna misal olaraq son illərdə tələbələrin tədrisə münasibətinin səmərəliliyini artırmaq üçün mövcud qanunvericilik çərçivəsində bir sıra tədbirlər görülmüşdür. Belə ki, effekt verməyən sərbəst işlər, davamiyyətə görə limit saxlanmaqla davamiyyət balı ləğv edilmiş, əsas diqqət kollokvium və seminar məşğələlərinin nəticələrinə yönəldilmişdir. Belə ki, tələbəyə 30 bal kollokvium, 20 bal da seminar və ya laboratoriya məşğələlərinin nəticələrinə görə verilir. Bu da tələbələrdə məsuliyyəti artırmaqla illər üzrə tədrisin keyfiyyətinə müsbət təsir göstərmişdir.

*3.4. Tədris metodları və üsulları*

**3.4.1. Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti**

Mühazirələrdə mütəmadi olaraq texniki və multimedia vasitələrindən istifadə olunmaqla tədris materialları cədvəllər, slaydlar və s. vasitəsilə təqdim edilir. Seminar və laboratoriya dərslərində müxtəlif interaktiv metod və texnologiyalardan istifadə üçün daha çox imkanlar olur. Müəllim ilə tələbələr arasında tədris prosesi zamanı qarşılıqlı pozitiv münasibətlərin yaradılması, tədris materiallarının mənimsənilməsində tələbələrin fəal iştirakı və bu prosesdə özünün rolunu dərk etməsi, tələbələrin təşəbbüsünün stimullaşdırılması, informasiyanın təqdim edilməsinin forma və üsullarının müxtəlifliyinin təmin edilməsinə diqqət verilir.

**3.4.2. Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti**

Təhsildə yeni təhsil üsullarının istifadəsinə imkan yaratmaqla tələbələrin müxtəlifliyinə hörmətlə yanaşmaq və onların ehtiyaclarına xidmət etmək, müvafiq hallarda tədrisin müxtəlif yollarla həyata keçirilməsini nəzərdən keçirmək və tətbiq etmək, tələbə və müəllim arasında münasibətlərin qarşılıqlı hörmət əsasında qurulmasını təmin etmək, müəllimdən müvafiq təlimat və yardım almaq şərti ilə tələbələrdə müstəqillik hissinin stimullaşdırmaq məqsədini daşıyan tədris yanaşmalarından istifadə edilir. Praktik tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə üçün universitetin müvafiq ixtisaslar üzrə müasir laboratoriyaları və təcrübə sahələri mövcuddur.

**3.4.3. Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti**

Tədris metodlarının tətbiqi həm əyani, həm qiyabi təhsilalma forması üzrə mümkün olur. Lakin interaktiv təlim metodları əyani təhsilalma forması daha çox tətbiq olunur.

**3.4.4. Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti**

Tələbələrin tədrisində ən yaxşı vasitələrdən olan multimedia texnologiyaları dərindən öyrənmə, maraqlanma və motivasiyaya səbəb olur. Müxtəlif media faylları - şəkillər, mətn, audio və video fayllarını birgə nümayiş etdirməyə imkan verən müasir informasiya texnologiyalarının (kompüter, proyektor, monitor ekranları və s.) köməyi ilə tədris prosesi təşkil olunur. Bu da mövzunu daha ətraflı açmağa, zəruri obyektləri, prosesləri və ya hadisələri aydın şəkildə təsvir etməyə imkan verir.

**3.4.5. Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti**

Hər bir müəllim tərəfindən tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi keçilən mövzuların elmi-praktiki xüsusiyyətlərinə uyğun olaraq seçilir və kafedralar tərəfindən mütəmadi yoxlanılır və nəzarətdə saxlanılır. Belə ki, mühazirə və praktiki məşğələ zamanı tələbənin fərdi xüsusiyyətləri nəzərə alınmaqla uyğunlaşdırılmış tədris metodlarından istifadə olunmaqla tələbələr məsləhət saatlarına və əlavə məşğələlərə daha çox cəlb olunurlar. Əsasən III-IV-V tədris ili tələbələri tədris metodları və üsullarına alışmış olurlar və onlar bu işin həyata keçirilməsində daha aktiv fəaliyyət göstərirlər.

**3.4.6. Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti**

Müasir əmək bazarının tələblərinə uyğun olaraq fənlərin tədrisinin forma və metodlarının dərk edilməsində müəyyən düzəlişlər edilir. Tədrisin metod və vasitələrində müasir informasiya texnologiyaları xüsusi yer tutur. Kompüter və internet texnologiyalarının təsirinin ən nəzərə çarpan təzahürlərindən biri də tədris prosesində interaktiv metodlardan istifadə edilməsi olmuşdur. Kafedralar aktiv və interaktiv təlimlərin təşkilinə və

keçirilməsinə nəzarəti artırmaqla tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsini təmin edirlər.

**3.4.7. Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti**

Keçilən dərslərin müntəzəm olaraq dinlənilməsi, o cümlədən açıq dərslərin müzakirəsi zamanı yeni təlim və tədris metodlarının optimal variantları təhlil edilir. Həmin tədris metodlarından istifadə edən müəllimlərin açıq dərsləri yüksək qiymətləndirilir. Bununla yanaşı kafedralar üzrə professor-müəllim heyəti arasında innovativ təlim metodları və interaktiv metodların tətbiqi təşviq olunur.

**3.4.8. Tədris metod və üsullarının dövrü monitorinqi və preventiv tədbirlərin sistematik qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Universitetin keyfiyyət təminatı şöbəsi tərəfindən dövri monitorinq aparılır. Eyni zamanda açıq dərslər zamanı professor-müəllim heyətinin tətbiq etdiyi tədris metod və üsulları konkret meyarlar üzrə təhlil edilir və müvafiq ballarla qiymətləndirilir. Sonrakı mərhələdə tədris metodlarının təkmiləşdirilməsi ətrafında müzakirələr aparılır, yeni fikir və ideyalar nəzərdən keçirilir.

3.5. *Təlim və tədris resursları*

**3.5.1. ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti**

LDU-da 2016-cı ildən Elektron Universitet (https://e.lsu.edu.az/php/login.php) layihəsinin yaradılmasına start verilmiş və sistem uğurla tətbiq edilməkdədir. Layihə çərçivəsində universitetdə dərs deyən professor-müəllim heyətinin, təhsil alan tələbələrin və tədris olunan fənlərin ORACLE bazası və bu bazaların əsasında elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının elektron idarə olunması sistemləri yaradılmışdır. Tələbələrin tədris fəaliyyəti və imtahan prosesinin gedişi onların şəxsi kabinetində öz əksini tapır. Hazırda sistemin daha da genişləndirilməsi məqsədilə yaradılmış işçi qrupun elektron sənəd dövriyyəsi (lokal şəbəkədə), əmək haqlarının hesablanması sistemi (lokal şəbəkədə), elmi jurnallara göndərilən məqalə və tezislərin qəbulu, qeydiyyatı və cavablandırılması üçün elektron sistem, (https://technoagrarian.lsu.edu.az/index.php), (https://lsu.edu.az/new/Elmi-jurnallar.php) tələbə ödənişlərinə nəzarət sistemi və elektron kitabxana və kataloq sistemi (https://lsu.edu.az/new/LSU-Library/) və s. tələbə və əməkdaşların xidmətindədir. Bunlardan əlavə, pandemiya dövründə onlayn dərslərin təşkili MS Teams proqramı üzərindən aparılmış və imtahan sessiyalarının keçirilməsi üçün LDU İKTK mərkəzi tərəfindən yaradılmış onlayn imtahan sistemi uğurla tətbiq edilmişdir.

**3.5.2. ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti**

LDU-da müasir təlim prosesini həyata keçirmək üçün proyektorlar, kompüter, ağıllı lövhələr, linqafon və qida təhlükəsizliyinin vəziyyətinin öyrənilməsi və s. kimi laboratoriyalar mövcuddur. Bundan əlavə bütün fakültə dekanlıqları və bəzi kafedralarda fənn auditoriyalarında və kabinalarında proyektorlardan istifadənin təmin olunması üçün proyektorla təmin edilmişdir.

**3.5.3. Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti**

LDU-da 2016-cı ildən Elektron Universitet (https://e.lsu.edu.az/php/login.php) layihəsinin yaradılmasına start verilmiş və sistem uğurla tətbiq edilməkdədir. Layihə çərçivəsində universitetdə dərs deyən professor-müəllim heyətinin, təhsil alan tələbələrin və tədris olunan fənlərin ORACLE bazası və bu bazaların əsasında elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının elektron idarə olunması sistemləri

yaradılmışdır. Tələbələrin tədris fəaliyyəti və imtahan prosesinin gedişi onların şəxsi kabinetində öz əksini tapır. Hazırda sistemin daha da genişləndirilməsi məqsədlə yaradılmış işçi qrupun elektron sənəd dövriyyəsi (lokal şəbəkədə), əmək haqlarının hesablanması sistemi (lokal şəbəkədə), elmi jurnallara göndərilən məqalə və tezislərin qəbulu, qeydiyyatı və cavablandırılması üçün elektron sistem, (https://technoagrarian.lsu.edu.az/index.php), (https://lsu.edu.az/new/Elmi-jurnallar.php) tələbə ödənişlərinə nəzarət sistemi və elektron kitabxana və kataloq sistemi (https://lsu.edu.az/new/LSU-Library/) və s. tələbə və əməkdaşların xidmətindədir. Bunlardan əlavə, pandemiya dövründə onlayn dərslərin təşkili MS Teams proqramı üzərindən aparılmış və imtahan sessiyalarının keçirilməsi üçün LDU İKTK mərkəzi tərəfindən yaradılmış onlayn imtahan sistemi uğurla tətbiq edilmişdir.

**3.5.4. Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu**

LDU-da 2016-cı ildən Elektron Universitet (https://e.lsu.edu.az/php/login.php) layihəsinin yaradılmasına start verilmiş və sistem uğurla tətbiq edilməkdədir. Layihə çərçivəsində universitetdə dərs deyən professor-müəllim heyətinin, təhsil alan tələbələrin və tədris olunan fənlərin ORACLE bazası və bu bazaların əsasında elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının elektron idarə olunması sistemləri yaradılmışdır. Tələbələrin tədris fəaliyyəti və imtahan prosesinin gedişi onların şəxsi kabinetində öz əksini tapır. Hazırda sistemin daha da genişləndirilməsi məqsədlə yaradılmış işçi qrupun elektron sənəd dövriyyəsi (lokal şəbəkədə), əmək haqlarının hesablanması sistemi (lokal şəbəkədə), elmi jurnallara göndərilən məqalə və tezislərin qəbulu, qeydiyyatı və cavablandırılması üçün elektron sistem, (https://technoagrarian.lsu.edu.az/index.php), (https://lsu.edu.az/new/Elmi-jurnallar.php) tələbə ödənişlərinə nəzarət sistemi və elektron kitabxana və kataloq sistemi (https://lsu.edu.az/new/LSU-Library/) və s. tələbə və əməkdaşların xidmətindədir. Bunlardan əlavə, pandemiya dövründə onlayn dərslərin təşkili MS Teams proqramı üzərindən aparılmış və imtahan sessiyalarının keçirilməsi üçün LDU İKTK mərkəzi tərəfindən yaradılmış onlayn imtahan sistemi uğurla tətbiq edilmişdir.

**3.5.5. İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti**

Hazırda LDU-da ümumi olaraq 285 kompüter dəstindən aktiv istifadə olunur. Onlardan 280 dəst kompüter sürətli internet şəbəkəsinə qoşulmuşdur. Tədris prosesində istifadə edilən 180 sayda kompüter dəstinin 121 ədədi tədris laboratoriyalarında, qalan 59 dəst isə fakültə dekanlıqları və kafedralarda, eləcə də tədris hissəsində işin təşkili üçün istifadə olunur. Ümumiyyətlə, LDU-da orta hesabla hər 100 tələbəyə 5 kompüter düşür.

**3.5.6. ATM-in auditoriya fondunun (kv.m.) onun tələbə sayına uyğunluğu**

Universitetin auditoriya fondunun onun tələbə sayına nisbəti aşağıdakı kimidir:
4496,08 kv.m. / 5295 tələbə.

**3.5.7. Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası**

2016 – 1555,79 kv.m
2017 – 1555,79 kv.m
2018 – 1555,79 kv.m
2019 – 1759,99 kv.m
2020 – 1912,69 kv.m
2021 – 1912,69 kv.m
2022 – 1912,69 kv.m
2022 – 1912,69 kv.m

**3.5.8. Kitabxananın eyni zamanda (elektron və bilavasitə) bmüəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası**

Hazırda LDU Kitabxanasında 15 dəst kompüter vardır. Bütün işçi kompüterlər universitetin daxili şəbəkəsinə və internetə qoşulmuşdur. Həmçinin universitetin kitabxanasında demək olar ki, bütün ixtisaslar üzrə electron ədəbiyyat mövcuddur və həmin materiallar universitetin elektron kitabxana səhifəsində yerləşdirilmişdir. Universitetdə elektron kitabların sayı 562 ədəddir. Universitetdə tələbə və akademik heyətin istifadəsində olan electron ədəbiyyatın artım dinamikası daim diqqət mərkəzindədir.

**3.5.9. ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası**

Son 5 ildə universitet kitabxanasında istifadə olunan ədəbiyyatların artım dinamikası aşağıdakı kimi olmuşdur: 2018-ci il 48 ədəd, 2019-cu il 19 ədəd, 2020-ci il 5 ədəd, 2021-ci il 22 ədəd, 2022-ci il 23 ədəd. Hazırda universitetin kitabxana fondunda 12265 ədəd dərslik və dərs vəsaiti vardır.

**3.5.10. Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası**

Hazırda Kitabxana fondunda müxtəlif xarici dillərdə elmi, dərslik və dərs vəsaitlərinin sayı12265 ədəddir. Onlardan rus dilində 10811, ingilis dilində 1150, alman dilində 56, fransız dilində 73, ərəb dili 54, fars dili 49, türk dili 60 ədəd, digər dillərdə 12 nüsxə ədəbiyyatdır. Kitabxanada 2018-ci ilin əvvəlində 12151 xarici dillərdə kitab mövcud olmuşdur. 2018-ci ildə 48 kitab alınmış və bu say 12199 ədədə yüksəlmişdir. 2019-cu ildə 16 kitab alınmış və bu say 12542 olmuşdur. 2020-ci ildə 5 kitab alınmış və bu say 12547 olmuşdur. 2021-ci ildə 22 kitab alınmış və 12242-yə çatmışdır. 2022-ci ildə 23 kitab alınmış və bu say 12265 ədəd olmuşdur.

**3.5.11. ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası**

Lənkəran Dövlət Universitetində dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün hər il təsdiq olunan illik smetada 25000 manat məbləğində xərclərin ayrılması nəzərədə tutulur.

**3.5.12. Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti**

LDU-da təlim və tədris resurslarıdan istifadənin və yenilənmənin ümumi vəziyyəti yaxşıdır. Belə ki, hər tədris ilində tələbə kontingentinin sayının artması yeni-yeni rəqəmsal laboratoriyaların yaranmasına və bu laboratoriyaların yeni avadanlıqlarla təchiz olunmasını tələb edir. Bu baxımdan LDU-da təlim və tədris resurslarından istifadənin və yenilənmənin ümumi vəziyyəti qənaətbəxşdir.

**3.5.13. Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti**

-Kitabxana resurslarından istifadənin tələbə və professor-müəllim heyəti üçün əlçatanlığı təmin edilərək, kitabxana fondu universal Onluq təsnifatına uyğun olaraq, təsnifləşdirilib. Kitabxanada oxuculara abonoment və müasir avadanlıq, sürətli internetlə təmin olunmuş iki böyük oxu zalı xidmət göstərir, oxucuların dünya kitabxana resurslarına əlyetənliyinin təmin olunması üçün elektron kitabxana zalı və fəaliyyət göstərir. Kitabxanada elektron kataloqda fəaliyyət göstərir **https://lsu.edu.az/new/LSU-Library/lb/Student/e-books.php.**

-LDU Kitabxanasının özü – bütün şöbə və oxu zalları, iş otaqları geniş zolaqlı sürətli internet xətti ilə (60 Mb/s) təmin olunmuş, universitetdə Elektron kitabxana layihəsinin yaradılmasına start verilmiş, həmin layihə çərçivəsində elektron baza yaradılmış və həmin bazanın zənginləşdirilməsi istiqamətində işlər davam etdirilir. Dərslik və dərs vəsaitlərinin elektron bazaya yerləşdirilməsi zamanı ilk növbədə universitetin ixtisas profilləri nəzərə alınır, ədəbiyyatların əsasən latın qrafikası ilə nəşrinə və nəşr ilinin müasirliyinə ciddi fikir verilir. Hazırda Kitabxanada dünya kitabxana resurslarına əlyetənliyin təmin olunması üçün kitabxananın xüsusi elektron avadanlıqla təmin olunmuş

zalı fəaliyyət göstərir və eləcə də UNEC və LDU arasında bağlanmış ikitərəfli qarşılıqlı əməkdaşlıq müqaviləsinə əsasən UNEC-in Elmi kitabxanasının iqtisadiyyat profilli ədəbiyyat fonduna giriş üçün LDU-nun rəsmi saytı üzərindən xüsusi keçid verilmişdir **(http://e-library.unec.edu.az/alisaweb/).** Kitabxananın elektronlaşması sahəsində görülən işlərin həcmi genişlənməkdədir.

-Bundan başqa universitetin bütün tədris korpuslarında kitabxananın xüsusi oxu zalları vardır. Kitabxananın nəzdində Elektron Kitabxana yaradılmışdır və elektron kitabxana fondunun xüsusi internet səhifəsi vasitəsi ilə internet üzərindən yayımlanması davam etdirilir (keçid: **https://lsu.edu.az/new/LSU-Library/)** 2021-ci ildə LDU nin Elmi Kitabxanası əsaslə təmir və bərpa edilərək yenidən istifadəyə verilmişdir. Hazırda LDU-da Elektron Kitabxana sistemi mövcuddur və həmin sistem https://lsu.edu.az/new/LSU-Library/ səhifəsi vasitəsi ilə internet üzərindən oxuculara xidmət göstərir. Oxucular göstərilən sistemin imkanlarında istifadə etməklə https://lsu.edu.az/new/LSU-Library/lb/Student_/student_login.php keçidi vasitəsi ilə elektron resurslardan istifadə edə bilirlər.

**3.5.14. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti**

Cəmiyyət hər bir fərdə inklüziv yanaşma tələb etməklə yanaşı, həm də hər kəsdən xeyirxahlıq, yaxşılıq hisslərinin, humanizmin qorunmasını, təbliğini tələb edir. Bu məqsədlə Lənkəran Dövlət Universitetində əlilliyi olan tələbələr üçün imkanlar yaradılmışdır. Universitetimiz bu sahədə yerli və avropa təcrübəsindən geniş istifadə edir. Avropa ittifaqının maliyyələşdirdiyi Xəzər Universitetinin koordinator olduğu və Lənkəran Dövlət Universitetinin tərəfdaş olduğu ESFİDİP (Əlilliyi olan əşəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması) TEMPUS qrant layihəsi çərçivəsində Xəzər Universiteti, Lodz Universiteti, Makedoniya Universiteti, Qraz Universiteti, Gəncə Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Naxçıvan Dövlət Universiteti, Əmək və Sosial Problemlər üzrə Elmi Tədqiqat və Tədris Mərkəzi və Əlil Təşkilatları İttifaqının nümayəndələri birgə bu sahədə əməkdaşlıq etmişlər. Layihə çərçivəsində Lənkəran Dövlət Universitetində "Əlil tələbələr üçün mərkəz yaradılmış", mərkəz müasir avadanlıqlarla təchiz edilmiş, əlillərin tədris alması məqsədiylə 2 saylı tədris binasında onlar üçün panuslar, lift qurşdırılmış və digər lazımi avadanlıqlarla təchiz edilmişdir.

"Əlilliyi olan tələbələr üçün Mərkəz"in fəaliyyəti sağlamlıq imkanları məhdud tələbələrə aid məsələləri təşkil və idarə etməkdən ibarətdir. Mərkəzin əsas funksiyası əlilliyi olan tələbələrə təhsildə dəstək olmaq üçün onları məlumatlar və xidmətlərlə təmin etməkdən ibarətdir.

Universitetdə gözdən əlil tələbələr üçün tədrisin təşkili məqsədi ilə ixtisaslaşdırılmış rəqəmsal laboratoriya fəaliyyət göstərir və o laboratoriya müasir rəqəmsal avadanlıqla təchiz edilmişdir.

**3.5.15. Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti**

Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsinin ümumi vəziyyəti yaxşıdır. Belə ki, hər tədris ilində tələbə kontingentinin sayının artması yeni-yeni rəqəmsal laboratoriyaların yaranmasına və bu laboratoriyaların yeni avadanlıqlarla təchiz olunmasını tələb edir.

**3.5.16.Tələbə klublarınn, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu**

Lənkəran Dövlət Universitetində tələbələrin asudə vaxtını təşkil etmək üçün aşağıdakı klub və dərnəklər fəaliyyət göstərir.

1. Kitab klub
2. Conversation klub

3. Debat klub
4. Gənc iqtisadçılar klubu
5. İdman klubu
6. Poeziya dərnəyi
7. Teatr dərnəyi

İdman klubunun daxilində aşağıdakı bölmələr fəaliyyət göstərir.
1. Basketbol
2. Voleybol
3. Mini futbol
4. Şahmat
5. Ağır atletika (ağırlıq qaldırma)
6. Güləş
7. Cüdo

**3.5.17. Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti**

Gələcək məktəb psixoloqlarının peşəkarlıq səviyyəsinin artırılması məqsədilə "Təhsildə sosial-psixoloji xidmət" ixtisas qrupunun tələbələri ilə "Məktəbdə sosial-psixoloji xidmətin əsas istiqamətləri" mövzusunda seminarın keçirilmişdir.

Məktəb psixoloqlarının peşəkarlıq səviyyəsinin artırılması məqsədilə Lənkəran rayonu üzrə məktəb psixoloqları ilə "Altı yaşlı uşaqların məktəbə hazırlığının psixoloji xüsusiyyətləri" mövzusunda təlimlər keçirilmişdir.

Ali təhsil müəssisələrində psixoloq hazırlığı proqramlarının müasir tələblər baxımından təkmilləşdirilməsi, psixoloji xidmət sahəsində kadr hazırlığının genişləndirilməsi və keyfiyyətini yaxşılaşdırılması ilə bağlı məktəb psixoloqları və "Təhsildə sosial-psixoloji xidmət" ixtisas qrupunun tələbələri ilə birlikdə "Yeniyetmələrin ünsiyyət sferasının sosial-psixoloji aspektləri" mövzusunda seminar keçirilmişdir.

"Təhsildə sosial-psixoloji xidmət" ixtisası üzrə tədris planınının Seçmə fənlər (peşə hazırlığı) blokunda olan (İPFS-B03) "Məktəbdə psixoloji praktikumun təşkili" – seçmə fənn proqramı tərtib olunmuşdur.

"Təhsildə sosial psixoloji xidmət" ixtisas qruplarının tələbələri ilə "Risk qrupuna aid edilən uşaq və yeniyetmələrlə işin xüsusiyyətləri" mövzusunda praktik seminar keçirilmiş və bu istiqamətdə xüsusi kursun məzmunu hazırlanmışdır.

*3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

**3.6.1.Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti**

Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə. İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| 1. | 91-100 | əla | A |
| 2. | 81-90 | çox yaxşı | B |
| 3. | 71-80 | yaxşı | C |
| 4. | 61-70 | kafi | D |
| 5. | 51-60 | qənaətbəxş | E |

| | | | |
|---|---|---|---|
| 6. | 50 və ondan aşağı | qeyri-kafi | F |

**3.6.2.Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti**

**Qiymət meyarları aşağıdakılardır:**

*- 10 bal- tələbə keçirilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*

*- 9 bal-tələbə keçirilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.*

*- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*

*- 7 bal- tələbə keçirilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*

*- 6 bal- tələbənin cavabı əsasən düzgündür.*

*- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*

*- 4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*

*- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*

*- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.*

*- 0 bal- suala cavab yoxdur.*

**3.6.3.Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti**

Lənkəran Dövlət Universitetində imtahanların keçirilməsi haqqında Universitet rektoru tərəfindən hər semest üzrə müvafiq əmr olur və bu əmrlərə əsasən imtahanın keçirilməsi qaydalaır müəyyənləşir. Belə ki, universitetimizdə imtahanlar aşağıdakı formada təşkil edilir:

1. Üz-üzə (yazılı)
2. Üz-üzə (şifahi)
3. Üz-üzə (qarışıq)
4. Məsafədən

Qeyd edək ki, təlbələrin böyük əksəriyyəti hər biletdə 5 sual olmaqla yazılı imtahan verir. İmtahan müddətində onlara 2.5 saat vaxt verilir. Yazılar əvvəlcədən ayrılmış İmtahan komissiyası tərəfindən kodlaşdırılır, sonra müəllimlər tərəfindən yoxlanılır və tələbələrə (onların şəxsi kabinetlərində) elan edilir. Universitetdə bir sıra tətbiqi fənlər əsasən şifahi formada həyata keçirilir. Tərcümə, Rəsm müəllimliyi, Musiqi müəllimliyi, Baytarlıq ixtisaslarının müvafiq fənlərində eləcə də Yekun Dövlət Attestasiyası və Tibbi biliklər fənni üzrə imtahanlarda tələbələr əsasən şifahi dindirlərək qiymətləndirilir.

Rəsm müəllimiyi, Musiqi müəllimliyi ixtisasların bir sıra fənlərində tələbə əvvəlcədən verilmiş tapşırığı icra edir, sonra bilet çəkərək müvafiq suallar üzrə cavablar verir. Məsafədən imtahan qaydaları Covid-19 pandemiyası dövründə İT və kitabxana mərkəzinin əməkdaşları tərəfindən MS Times platforması üzərində müəllim və tələbələr üçün kabinetlər açılmış, tələbələrin onlayn imtahan verməsinə və o imtahanların müəllimlər tərəfindən qiymətləndirilməsinə imkanlar yaradılmışdır.

**3.6.4.Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti**

İmtahan sessiyasında tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etmək, yarana biləcək neqativ halları dərhal aradan qaldırmaq və digər müvafiq tədbirləri həyata keçirmək məqsədi ilə LDU rektorunun sədrliyi ilə Operativ Qərargah yaradılır. Tələbələrin biliyinin qiymətləndirilməsində qeyri-obyektivliyə yol verilən hər bir neqativ hal üçün fakültə dekanlarının və kafedra müdirlərinin məsuliyyət daşıyır və belə hallar baş verdikdə vəziyyət Operativ Qərargahda müzakirə olunaraq müvafiq ciddi tədbirlər görülür.

İmtahanlarda Sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıqların və şikayətlərin mövcud qaydada araşdırılması və müvafiq qərar qəbul edilməsi məqsədilə Apellyasiya komissiyaları yaradılır. Tələbə aralıq qiymətləndirmənin

nəticəsindən narazı olduğu halda Apellyasiya Komissiyasına əsaslandırılmış şəkildə ərizə ilə müraciət edir, bu barədə Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektora məlumat verilir. İmtahan qəbul edən müəllimin və kafedra müdirinin iştirakı ilə müvafiq Apellyasiya Komissiyası tələbənin yazılı cavablarının təkrar yoxlanılması təmin edilir.

**3.6.5.Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti**

Tələbələrin öz tərəqqisini əks etdirməsinə və qiymətləndirilməsinə kömək etmək üçün özünü qiymətləndirmədən istifadə edilməsi zəruridir. Ancaq reallıq budur ki, ali təhsil müəssisələrində özünü qiymətləndirmədən nadir hallarda istifadə olunur. Çox hallarda onun obyektivliyi şübhə daşıyır. Səbəb isə tələbələrin əksəriyyətinin özünü qiymətləndirmənin mahiyyətini düzgün dərk etməməsi, bu məqsədlə verilən sual və tapşırıq nümunələrini olduğundan yüksək qiymətləndirməyə meyilli olmalarıdır.

**3.6.6.Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti**

Tələbələrin gündəlik tədris fəaliyyəti üzrə qiymətləndirmənin nəticələri, həmçinin yekun imtahanlar üzrə qiymətləndirmənin nəticələri univrsitetin rəsmi internet saytında tələbələr üçün yaradılmış şəxsi kabinetlərdə yerləşdirilir.

**3.6.7.Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti.**

Sağlamlıq imkanları məhdud olan şəxslərin məhdudluq dərəcəsinə uyğun olaraq tədris və imtahan prosesində digərlərindən fərqli prosedur həyata keçirilir.

**3.6.8.Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti**

Cari qiymətləndirmədə şəffaflıq və ədalətlilik prinsipi təmin etmək məqsədi ilə müəllim tələbələri əvvəlcədən sillabusda olan qiymətləndirmə meyarları ilə tanış edir və qiymətləndirməsini əsaslandırır. Ədalətlilik və şəffaflığın təmin oluması üçün akademik təqvimə uyğun olaraq hər semestrdə 3 dəfə (hazırda 2), yazılı üsulla tələbəyə 3 sual təqdim edilməklə (hər bir sual 10 bal qiymətləndirilir) kollokviumlar akademik məslətçi-tyutorlar tərəfindən təşkil olunur. Cari qiymətləndirmədə kollokviumlar 30 bal təşkil edir. Fənlərin spesifikliyi nəzərə alınaraq aralıq qiymətləndirmədə şifahi imtahanlar, cari qiymətləndirmədə isə sağlamlıq imkanları məhdud şəxslər üçün şifahi kollokviumlar təşkil olunur. Kollokviumların qiymətləndirilməsi barəsində tyutorlar mütəmadi olaraq tələbələrə məlumat verir.

**3.6.9.Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)**

Lənkəran Dövlət Universitetində bakalavriat səviyyəsi üzrə Yekun Dövlət imtahanı Azərbaycan Respublikası Təhsil Nazirliyinin 27.01.1997-ci il tarixli 54 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavriat pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"nin, magistratura səviyyəsi üzrə magistrlik dissertasiya işlərinin müdafiəsi və qiymətləndirilməsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin 20.04.1998-ci il tarixli 202 nömrəli əmri ilə təsdiq edilmiş "Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə" və 10.11.1998-ci il tarixli 742 nömrəli əmri ilə təsdiq edilmiş "Magistrlik dissertasiyasının müdafiəsi üçün ixtisaslaşdırılmış Elmi şuralar haqqında Əsasnamə" nin tələblərinə uyğun həyata keçirilir.

Eyni zamanda fəlsəfə doktoru proqramı üzrə dissertasiya işlərinin müdafiəsi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili barədə təlimat"a uyğun şəkildə həyata

keçirilir.

**3.6.10.Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Bilik və bacarıqların qiymətləndirilməsində tələbələrin təklifləri nəzərə alınaraq sərbəst işlər və davamiyyətə görə verilən bal ləğv olunmuşdur.

Bununla bağlı olaraq hər il semestrin sonunda kəmiyyət və müvəffəqiyyət göstəriciləri əsas götürülərək müzakirə olunur.

**3.6.11.Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 27.01.1997-ci il tarixli 54 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavriat pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"yə əsasən bakalavriat səviyyəsi üzrə təhsil proqramını bitirən buraxılış kursunun tələbələri üçün Yekun Dövlət Attestasiyası təşkil olunur. Universitetdə Dövlət attestasiyası Dövlət imtahanı formasında təşkil olunur. Dövlət imtahanı üçün tədris planında 9 kredit ayrılmışdır. Dövlət imtahanından əvvəl tələbələrə hazırlaşmaq üçün dövlət imtahanı sualları verilir. Dövlət imtahanının sualları əsasən ixtisas fənlərinə aid olur.

Lənkəran Dövlət Universitetində magistratura və doktorantura səviyyəsində təhsil alanlar üçün təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri haqqında ətraflı məlumatlar Universitetin rəsmi saytında yerləşdirilmişdir. Bundan əlavə təhsilalanlara bu haqda Elm və tədqiqat işləri şöbəsi və müvafiq kafedralarda maarifləndirici məlumatlar verilir.

**3.6.12.Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müavafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu**

Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müavafiq arayışın verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.04.2010-cu il tarixli 82 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin bakalavriat və magistratura səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi qaydası" və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 27.01.1997-ci il tarixli 54 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavriat pilləsində dövlət attestasiyası haqqında Əsasnamə" nin tələblərinə tam uyğun olaraq həyata keçirilir.

*3.7. Professor-müəllim heyəti və inzibati-texniki işçilər*

**3.7.1.Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti**

Lənkəran Dövlət Universitetində akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinatı məsələsi mövcüd qanunvericiliyin tələblərinə uyğun şəkildə aparılır. Professor-müəllim vəzifələrinin tutulması Azərbaycan Respublikasının Təhsil Nazirinin 7 avqust 1996-cı il, № 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında əsasnamə" ilə tənzimlənir. Müsabiqə haqqında bu əsasnaməyə uyğun olaraq dövrü mətbuatda, Universitetin http://lsu.edu.az/ internet saytında və ya digər kütləvi informasiya vasitələrində elan verilir. Bununla da ictimaiyyət üçün əlçatanlıq təmin olunur.

**3.7.2.Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti**

Lənkəran Dövlət Universitetinin tərəfdaş olduğu qurumlar, universitetlər və onların koordinatorluq etdiyi layihələr çərçivəsində akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsi məqsədilə müxtəlif təlimlərə cəlb edilirlər. Ali təhsildə potensialın gücləndirilməsi Erasmus+ layihəsi çərçivəsində akademik heyət

nümayəndələri müxtəlif təlimlərdə, professor-müəllim mübadiləsində iştirak edirlər.

**3.7.3.Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti**

Müvafiq kafedra müdirləri tərəfindən kafedranın professor-müəllim heyətinə tədris metodları ilə bağlı geniş izahlar verilmiş, bütün kafedra əməkdaşları təlimatlandırılmışdır. Tələbənin biliyinin qiymətləndirilməsi metodları (interaktiv, aktiv) ilə bağlı müzakirələr aparılmışdır. Son illərdə mövcud pandemiya şəraitində Universitetimiz də qısa müddətə distant təhsil sisteminə keçmiş və bununla bağlı professor-müəllim heyətinə təlimatlar verilmiş və bir müddət tədris prosesi distant formada davam etmişdir. Sonra isə xüsusi karantin rejimi yüngülləşdikdən sonra yenə ənənəvi tədrisə davam edilmişdir. Universitetin distant təhsil istiqamətində təcrübəsi və müvafiq təlimatları vardır.

**3.7.4.Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti**

LDU-nun “Xarici dillər və tərcümə”, “Maliyyə idarəetməsi və audit”, “Tarix və onun tədrisi metodikası” kafedralarının müəllimləri Rumuniya və Türkiyə Cümhuriyyətində, “Baytarlıq və Aqrar elmlər” kafedrasının müəllimləri Gürcüstan Respublikasında təcrübə mübadiləsində olmuşdurlar. Həmçinin Türkiyə Cümhuriyyətinin Kars-Kafkas Universitetinin professor-müəllim heyyəti 2021/2022-ci və 2022/2023-cü tədris illərində LDU-da tələbələrə dərs keçmiş və eyni zamanda LDU müəllimlər arasında təcrübə mübadiləsi apararaq elmi-tədqiqat və pedaqoji biliklərini paylaşmışlar. Hazırda bu əməkdaşlıq prossesi davam edir.

**3.7.5. Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti**

Lənkəran Dövlət Universitetində Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı barəsində tətbirlər nəzərdə tutulmuş, lakin mövcud pandemiyanın baş verməsi nəticəsində həmin tədbirlərin icrasını həyata keçirmək mümkün olmamışdır

**3.7.6.Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti**

TTTTM-in şöbə müdirlərindən ibarət yaradılan komissiya akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarını monitorinq etməkdən ötrü kafedra müdirlərinin iştirakı ilə açıq dərsləri dinləyir. Tərtib olunmuş açıq dərslərin qiymətləndirilmə meyyarları əsasında qiymətləndirilmə aparılır.

**3.7.7. Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti**

Lənkəran Dövlət Universitetində professor-müəllim heyətinin dərs yükünün bölgüsü aşağıdakı qaydalar əsas götürülməklə “Təhsil, təlim-tərbiyə müəssisələrinin rəhbər, inzibati təsərrüfat, tədris-köməkçi və digər işçilərin tutduqları vəzifə ilə yanaşı ixtisasları üzrə dərs yükü (pedaqoji iş) aparmaları haqqında normalar”; “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Təhsil Nazirinin 04.02.2011-ci il tarixli 194 saylı əmri nəzərə alınmaqla aparılır. Orta faktiki dərs yükü 600 saatdan yuxarı olan kafedralarda artıq qalan akademik yük Universitetin professor-müəllim heyəti, dərs demək hüququ olan digər işçiləri və həmçinin kənardan dəvət olunmuş yüksək ixtisaslı mütəxəssislər arasında əmək haqqı saathesabı və ya əvəzçiliklə ödəmək əsasında bölüşdürülür. Bu zaman əvəzçiliklə və ya 0,5 ştat əlavə verilən tədris yükünün miqdarı 275 saatdan az olmaması və həmin yükün ən azı 60 faizi aktiv yükdən ibarət olması nəzərə alınmaqla dərs yükü bölgüsü aparılır.Dərs yükünün bölünməsi zamanı mühazirə dərsləri ilk növbədə professor və dosentlərə (dərs yükünün 25-40%-dən az olmamaqla) həvalə olunur.

**3.7.8.Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)**

Lənkəran Dövlət Universitetində fakültələr üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti aşağıdakı kimidir:

1. Təbiyyat - 45/979
2. Aqrar və mühəndislik - 52/1218
3. Filologiya və ibtidai təhsil - 46/984
4. Tarix-coğrafiya və incəsənət - 56/901
5. İqtisadiyyat və idarəetmə - 32/1213

**3.7.9.Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti**

Lənkəran Dövlət Universitetində tədris prosesində iştirak edən professor-müəllim heyətinin ümumi sayı 231 nəfərdir. Onlardan 60 nəfərin əsas iş yeri digər müəssisə, 171 nəfərin əsas iş yeri LDU-dur. Ümümilikdə tədris prosesində iştirak edən professor-müəllim heyətinin 74 faizinin əsas iş yeri LDU-dur.

**3.7.10 .Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi**

Kafedra üzrə ixtisas qruplarında bəzi mühazirə dərslərinin tədris edilməsi üçün və magistr səviyyəsində dərs yüklərində bölgüdə yaranan problemlərin aradan qaldırılması üçün kənardan elmi dərəcəli kadrlara ehtiyac yaranmışdır. Bu problemləri həll etmək üçün kənardan dərəcəli mütəxəssislər dəvət edilmişdir.

**3.7.11.Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti**

Universitetin professor-müəllim heyəti üçün differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi ilə bağlı verilən təkliflər üzərində iş gedir. Lakin buna baxmayaraq professor-müəllim heyətini rəğbətləndirmək mədsədilə bayram günlərində xüsusi mükafatlar təyin edilir. Həmçinin imtahan sessiyasına və ictimai işlərə cəlb olunanlara fəal iştiraklarına görə mükafatlar verilir.

**3.7.12.Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professormüəllim heyətinin mövcudluğu vəziyyəti**

**1.** Biologiya üzrə fəlsəfə doktoru, dosent Elvin Ərkan oğlu Əliyev biologiya üzrə bakalavr təhsilini 2006-2010-cu illərdə Türkiyə Cümhuriyyətinin Qars Dövlət Kafkas Universitetində, Tibbi biokimya ixtisaslaşması üzrə magistratura təhsilini 2010-2012-ci illərdə Türkiyə Respublikası Atatürk Universitetinin Tibb fakültəsində, doktorantura təhsilini 2012-2015-ci illərdə Türkiyyə Respublikası Atatürk Universitetinin Tibb Fakültəsində almış və Tibbi Biokimya ixtisası üzrə Fəlsəfə doktoru (Ph.D) elmi dərəcəsi almışdır. Hazırda LDU-da Elm və innovasiya məsələləri üzrə prorektor vəzifəsində çalışır.

**2.** Rzalı Şəmsi Pərviz oğlu, Kırıkkale Universiteti, Wyższe Szkoły Bankowe w Poznan, Bursa Uludağ Universitetlərində təhsil almış, 2020-2021-ci illərdə Lənkəran Dövlət Universitetində müəllim kimi fəaliyyət göstərmişdir.

**3.** Əliyev Cavidan Rəhim oğlu 2012-ci il Bakı Dövlət Universitetinin "Coğrafiya" fakültəsinin "Coğrafiyaçı, coğrafiya müəllimi" ixtisasını, 2015-ci ildə Rusiya Dövlət Hidrometeorologiya İnstitutunun "Hidrometeorologiya" ixtisası üzrə magistr təhsili pilləsini fərqlənmə diplomu ilə bitirmişdir. 2017-ci ildən Lənkəran Dövlət Universitetinin "Coğrafiya və onun tədrisi metodikası" kafedrasında 1,0 ştat müəllim vəzifəsində işləyir.

*3.8. Tələbəyönümlü tədris*

**3.8.1. Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi**

Lənkəran Dövlət Universitetində kredit sisteminə uyğun olaraq Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş forma üzrə fərdi tədris planı tərtib olunur. "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının

magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na əsasən tələbə və tyutorun birgə iştirakı ilə fərdi tədris planları tərtib olunaraq imzaları ilə təsdiqlənir.

**3.8.2.Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələbləri əsasında hazırlanmış tədris planlarında həm ümumi, həm də ixtisas fənləri məcburi və seçmə fənlərə bölünür. Məcburi fənlər də öz növbəsində ardıcıl öyrənilən və ardıcıllığı vacib olmayan fənlərə bölünür. Seçmə fənlər ali məktəb tərəfindən müəyyən olunur və tələbələr üçün seçmə xarakteri daşıyır.

**3.8.3. Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsiplərinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi**

Universitetdə tyutor hazırlığı kurslarında yüksək nailiyyət qazanan kadrlar fakültələr üzrə müvafiq qruplara tyutor təyin edilirlər.

**3.8.4.Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası**

Lənkəran Dövlət Universitetində semestrin sonu müəllimlərin dərsdəki fəaliyyəti haqqında 10 bənd üzrə sorğu aparılmışdır. Bu sorğu blankında tələbələr professor-müəllim heyyəti barədə öz fikirlərini bildirirlər. Tələbələrin müəllimlər haqqındakı bu fikirləri Universitet rəhbərliyi tərəfindən nəzərə alınaraq müvafiq tədbirlər görülür. Qeyd edək ki, bu sorğuda tələbələrin anonimliyi qorunur. Keçirilən sorğuların nəticələrindən məlum olmuşdu ki, universitetin tələbələri professor-müəllim heyyətinin təlim və tədris fəaliyyətindən qənaətbəxş səviyyədə məmnundurlar. Hazırda sorğunun istiqamətlərini genişləndirmək məqsədilə yeni sorğu hazırlanır.

**3.8.5.ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası**

Lənkəran Dövlət Universitetinin hər bir fakültəsində rəy və təkliflər qutusu yerləşdirilmişdir. Tələbə və məzunlar öz təklif və iradlarını sərbəst şəkildə irəli sürərək müvafiq qutulara daxil edirlər. Verilən təklif və iradlar Universitet rəhbərliyi tərəfindən nəzərə alınır. Belə ki, tələbələrin təklifi ilə aralıq qiymətləndirmə zamanı keçirilən kollokviumların sayı 3-dən 2-yə endirilmişdir. Həmçinin tələbələr üçün təşkil olunan yekun qiymətləndirmə zamanı sessiya imtahanında tələbələrə ayrılan 2 saat imatahan müddəti onların təklifləri nəzərə alınaraq 30 dəqiqə artırılmışdır. Həmçinin bundan əlavə digər təkliflərin də növbəti sessiya müddətinə qədər nəzərdən keçirilərək tətbiq olunması nəzərdə tutulmuşdur.

**3.8.6.Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti**

Tələbələrin müxtəlif rəyləri hər korpus üzrə yerləşdirilmiş rəy və təkliflər qutusunda toplanılır. Bu rəylər tədris prosesinin təşkilində müsbət addımlara yol verəcəyi təqdirdə nəzərə alınıb müzakirəyə qaldırılır. Əksinə mənfi nöqsanlara yol vermiş şəxslər barəsində olduqda isə bu istiqamətdə araşdırmalar aparılıb həqiqiliyi əks etdirdiyi halda müvafiq tədbirlər görülür.

**3.8.7.Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti**

Təhsilalanların müxtəlif növ müraciətlərini nəzərdən keçirmək üçün universitetin fakültə tyutorları tərəfindən watchapp qrupları yaradılmışdır. Orada tələbələrin şikayət və təklifləri qeydə alınır. Həmçinin, universitetin office@lsu.edu.az elektron poçt ünvanına tələbələr tərəfindən müxtəlif müraciətlər daxil olur. Eyni zamanda universitetin hər

korpusunda rəy və təkliflər qutusu yerləşdirilmişdir. Bunun əsasında tələbələr universitetlə bağlı olan bütün fikirlərini paylaşmaq imkanı əldə edirlər.

**3.8.8.Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutorlar) mövcudluğu vəziyyəti**

Lənkəran Dövlət Universitetində Tədrisin təşkili və təlim exnologiyaları mərkəzi daxilində tyutor fəaliyyəti də vardır. Müasir tədris prosesinin nizamlanmasında vacib olan tyutorlar tələbələrə akademik məsləhət verməklə tədrisin təşkilində yaxından iştirak edirlər. Tələbələrin kredit sistemi ilə bağlı maarifləndirilməsi, onlara akademik məsləhətlərin verilməsi üçün hər fakültə üzrə ayrı-ayrı tyutorlar xidmət göstərirlər. Universitetdə ümumilikdə 4 dəfə tyutor kursu təşkil olunmuş və bu kursun keçirilməsi ilə bağlı kənardan və yerli mütəxəssislər dəvət olunmuşdur. Tyutor kursunda müsahibədən uğur qazanmış namizədlər iştirak etmişlər.

Kursun sonunda imtahanlar təşkil olunmuş və müvəffəq bal toplayan namizədlər universitetdə tyutor vəzifəsində çalışmağa başlamışlar.Tyutorlar tələbələrin tədris olunacaq fənlərinin seçimində, tələbələrin akademik borclarını ləğv etməsində və digər akademik problemlərinin həllində onlara yaxından köməklik göstərirlər.

**3.8.9.Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti**

Tələbə və müəllim, həmçinin tələbə və tyutor arasında mobil telefondan istifadə etməklə zəng və ya watchapp, elektron poçt kimi vasitələrlə onlayn şəkildə kommunikasiya yaradılır. Universitetin İKT vasitələri ilə tələbələrin şəxsi kabinetlərinə sms göndərilir. Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında kommunikasiya auditoriya və ya auditoriyadan kənar üzbəüz də təşkil edilir.

**3.8.10.Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti**

Avropa Universitetlərinin (Lodz Universiteti, Makedoniya Universiteti, Qraz Universiteti) təcrübəsindən yararlanaraq professor-müəllim heyətinin tələbələrlə əməkdaşlıq çərçivəsində inklüziv təhsil mühitinin yaradılması müzakirə olunaraq həmin universitetlərə səfərlər olunmuşdur.

Layihə çərçivəsində Lənkəran Dövlət Universitetində "Əlil tələbələr üçün mərkəz yaradılmış", mərkəz müasir avadanlıqlarla təchiz edilmiş, əlillərin tədris alması məqsədiylə 2 saylı tədris binasında onlar üçün panuslar, lift qurşdırılmış və digər lazımi avadanlıqlarla təchiz edilmişdir.

"Əlilliyi olan tələbələr üçün Mərkəz"in fəaliyyəti əlilliyi olan tələbələrə aid məsələləri təşkil və idarə etməkdən ibarətdir. Mərkəzin əsas funksiyası əlilliyi olan tələbələrə təhsildə dəstək olmaq üçün onları məlumatlar və xidmətlərlə təmin etməkdən ibarətdir. Mərkəz əsasən tam və ya qismən görmə qabilliyətini itirmiş, fiziki məhdudiyyətli və nitq məhdudiyyətli əlilliyi olan tələbələrə yardım və xidmət göstərməsi nəzərdə tutulmuşdur.

**3.8.11. Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti**

**1)** Aşağıdakı imtiyazlı kateqoriyaya aid tələbələr Dövlət hesabına təhsil alırlar:

I. Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi haqqında" 14 sentyabr 2011-ci il tarixli Sərəncamına əsasən məcburi köçkün statusu olan Azərbaycan Respublikası vətəndaşları illik təhsil haqqı ödənişindən azad edilirlər.

II. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" 22 iyun 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu (maddə 5) və "Təhsil haqqında" Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli

Qanununa (maddə 14-8-1) əsasən aşağıdakı kateqoriyalara aid olan ən çoxu 23 yaşınadək şəxslər illik təhsil haqqı ödənişindən azad edilirlər. Həmçinin bu kateqoriyadan olan tələbələrə təqaüdün ikiqat misli məbləğində vəsait ödənilir.

III. Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil müddəti ərzində təhsil haqqı xərcləri 2019/2020-ci tədris ilindən etibarən dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi haqqında" 3 may 2019-cu il tarixli Sərəncamına əsasən bu kateqoriyalardan olan şəxslər illik təhsil haqqı ödənişindən azad edilirlər. Həmçinin bu kateqoriyadan olan tələbələrə aldıqları təqaüdün əlli faizi məbləğində əlavə ödənc verilir.

IV. Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" 18 mart 2014-cü il tarixli Sərəncamına əsasən 2014/2015-ci tədris ilindən etibarən həmin şəxslərin təhsil alan övladları illik təhsil haqqı ödənişindən azad edilirlər.

IV.I. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş vətəndaşların övladları.

IV.II. Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların övladları (Şəhidlərin övladları).

**2)** "Koronavirus (COVID-19) pandemiyasının Dünya ərzisində yayılması ilə əlaqədar Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 13 aprel 2020-ci il 138 nömrəli qərarı ilə Azərbaycan Respublikasının təhsil müəssisələrində normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan (təkrar ali və orta ixtisas təhsili istisna olmaqla) və sosial baxımdan aşağıdakı həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin 3 semestr ərzində təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilmişdir:

I. ünvanlı dövlət sosial yardımı alanlar;

II. hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) və ya qanuni nümayəndələri aşağıdakı kateqoriyaların hər hansı birinə aid olanlar:

1. I və II dərəcə əlilliyi olan şəxslər;
2. işsiz kimi qeydiyyatda olanlar;
3. yaşa görə əmək pensiyaçıları;
4. yaşa görə sosial müavinət alanlar.

**3)** "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 iyun tarixli 1367 nömrəli Fərmanının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 24 iyul 2021-ci il 226 nömrəli qərarına əsasən "Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası" təsdiq edilmişdir.

Belə ki, Təhsil Tələbə Kreditinin 2 (iki) növü mövcuddur:

I. Sosial;

II. Standart.

Aşağıdakı tələbələr təhsillərinin birinci tədris ilinin ilk semestrindən (yarımildən) sosial TTK-dən istifadə etmək hüququna malikdirlər:

1. ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;
2. orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş

şəxslər;

3. hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) aşağıda qeyd olunan kateqoriyaların hər hansı birinə aid olanlar:

3.1. orqanizmin funksiyalarının 61-80 və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər;

3.2. işsiz kimi qeydiyyatda olanlar;

3.3. yaşa görə əmək pensiyası alanlar;

3.4. yaşa görə sosial müavinət alanlar;

4. ailə başçısını itirməyə görə əmək pensiyası alanlar;

5. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak edərək "Müharibə veteranı" adı almış şəxslər.

**3.8.12.Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti**

Lənkəran Dövlət Universitetində 2022/2023-cü tədris ilinin yaz semestri üzrə bakalavriat səviyyəsində 1929, magistratura səviyyəsində isə 69 təqaüd yeri ayrılmışdır. Universitetdə prezident təqaüdüçüsü yoxdur.

Adlı təqaüd isə ildə 2 dəfə yaz və payız semestrlərində ümumilikdə 4 nəfər üçün təyin olunur. Bu əsasən semestr üzrə ümumi orta müvəffəqiyyət göstəricisi yüksək olan, universitetin Həmkarlar İttifaqı komitəsinin üzvü olan və ictimai işlərdə fəal iştirak edən tələbələr arasından seçilir. Eyni zamanda pedaqoji kadr hazırlığı aparılan ixtisaslara yüksək balla qəbul olunmuş tələbələrin siyahısı hər il Elm və Təhsil Nazirliyinin müvafiq əmri ilə Lənkəran Dövlət Universitetinə daxil olunur. Bu siyahıya uyğun olaraq sonuncu semestrdə 8 tələbəyə "Gələcəyin müəllimi təqaüdü" ayrılmışdır.

*3.9. Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

**3.9.1.Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu**

LDU-da təhsil proqramları üzrə hazırlığın məzmunu və strukturu "Ali təhsilin dövlət standartı və proqramı"nın (AR NK-nin 23.04.2010-cu il tarixli 75 nömrəli Qərarı) tələblərinə, "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları", AR TN tərəfindən 22 avqust 2014-cü il tarixli 913 nömrəli əmri ilə təsdiq edilmiş "Ali Təhsil Pilləsinin Dövlət Standartları"na (hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələbləri) və "Ali təhsil müəssisələrinin bakalavriat, magistratura və AMEA-nın magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın (AR NK-nın 24.12.2013-cü il tarixli 348 nömrəli Qərarı, edilmiş dəyişikliklərlə) tələblərinə uyğun olaraq həyata keçirilir.

**3.9.2.Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu**

Əsas tədris sənədlərindən biri olan ixtisaslar (proqramlar) üzrə tədris planları AR TN-in 22 avqust 2014-cü il tarixli 913 nömrəli əmri ilə təsdiq edilmiş "Ali Təhsil Pilləsinin Dövlət Standarları"na (Bakalavriat səviyyəsinin ixtisas üzrə təhsil proqramı) uyğun hazırlanmışdır. Qeyd edək ki, tədris planları mövcud normalara uyğun hazırlanır, LDU-nun Elmi Şurasında müzakirə edilərək qərar qəbul edilir, rektor tərəfindən təsdiq edildikdən sonra fakültələr və kafedralarda icra olunur.

**3.9.3.Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti**

LDU-da tələbələrin təhsili ixtisas (ixtisaslaşma) üzrə təhsil proqramı əsasında həyata keçirilir. AR NK-nin 11 fevral 2019-cu il tarixli 45 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali

təhsilin bakalavriat səviyyəsi üzrə ixtisaslarının (proqramlarının) Təsnifatı"na uyğun olaraq ixtisasalar üzrə kadr hazırlığı həyata keçirilir: Monitorinqlərdə təhsilin keyfiyyətinin yüksəldilməsi ilə əlaqədar tədris planları və fənn proqramları tərtib edilərkən dövlət standartlarının tələblərinə uyğun olaraq ixtisasların xüsusiyyətinə, proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblərə - Ümummədəni kompetensiyalar (ÜK) (səriştələr), peşə kompetensiyalarına (PK) xüsusi diqqət yetirilir.

**3.9.4.Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti**

Özünüqiymətləndirmə hesabatları hazırlanarkən tədris və təlim prosesində müasir tədris materiallarından, innovativ, yaradıcı və interaktiv metodlardan, yeni nəsil təhsil texnologiyalarından istifadənin nəticələri təhlil edilir və qiymətləndirilir.

**3.9.5.Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti**

LDU-da təhsil proqramları ali təhsil üzrə dövlət proqramları, milli standartlar, cəmiyyətin, sənayenin, istehsalın və əmək bazarının tələbləri nəzərə alınmaqla hazırlanır. Təhsil proqramının məzmunu müvafiq ixtisaslar üzrə son tədqiqatlar və beynəlxalq təcrübələr nəzərə alınmaqla mütəmadi olaraq yenilənir. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyində təşkil olunan komissiya tərəfindən ali təhsil üzrə təhsil proqramları hazırlanıb təsdiq edildikdən sonra universitetdə yaradılan komissiya tərəfindən tədris planları hazırlanmışdır.Tədris olunan təhsil proqramlarının əmək bazarına və cəmiyyətin tələblərinə uyğun yenilənməsi ilə əlaqədar məzunlarının əmək bazarında iştirakının payı izlənilir. Bu məqsədlə Univrsitetin Tədrisin təşkili və təlim texnologiyalarının tətbiqi şəbəsində Təcrübə, potensial inkişaf və karyera bolməsi fəaliyyət göstərir. Burada universitet məzunlarının işlə təmin olunması prosesi izlənilir, həmçinin regionda olan müəssisə və təşkilatlarla əməkdaşlıq edilir və onların iştirakı ilə hər il əmək yarmarkası keçirilir.

*3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

**3.10.1. Karyera mərkəzinin mövcudluğu vəziyyəti**

Lənkəran Dövlət Universitetində Tədrisin təşkili və təlim texnologiyalarının tətbiqi şöbəsinin bölmələrindən biri olan Təcrübə, potensial inkişaf və karyera bölməsi mövcuddur. Bu bölmədə mövcud məzun bazası əsasında məzunların hansı işlə təmin olunması, onların hazırki əmək fəaliyyəti, həmçinin bitirdikləri ixtisasın əmək bazarında səmərəliliyinin olub-olmaması ilə bağlı informasiyalar da toplanılır.

**3.10.2.Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti**

Təcrübə, potensial inkişaf və karyera bölməsi tələbə və məzunların iş dünyasına olan marağını artırmaq və bu istiqamətdə addım atmalarına nail olmaq üçün səylərini göstərir. Bu istiqamətdə bəzən qrup şəklində üz-üzə, bəzən onlayn şəkildə watchapp qruplarında, bəzən də fərdi olaraq hər bir tələbənin və ya məzunun karyera planını qurma qaydaları haqqında məlumatlandırılması və müvafiq məsləhətlər almasına köməklik göstərir.

**3.10.3. Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti**

Məzunların əmək bazarında izlənmələri üçün məzun bazasında müvafiq siyahılər tərtib

olunmuş və həmin siyahilərdə illər üzrə universiteti bitirən məzunların ixtisası, yaşayış ünvanı, əlaqə nömrəsi, doğum tarixi, qəbul olunduğu il, məzun olduğu il, əmək bazarında məşğulluq fəaliyyəti kimi məlumatlar öz əksini tapmışdır. Hər il məzun sayı artdıqca məzun-məlumat bazası da artmaqda davam edir.

**3.10.4. Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti**

Məzunlar müvafiq təhsil proqramını mənimsədikdən sonra bir çox qismi öz ixtisaslarına uyğun işlə təmin olunurlar. Bunun baş tutması üçün Lənkəran Dövlət Universiteti hər ilin sonu «Dövlət Məşğulluq Agentliyi» ilə birgə Məzun yarmarkaları keçirir. Bu Məzun yarmarkalarına regionun çoxlu sayda müəssisə, təşkilat və idarələrinin təmsilçiləri cəlb olunurlar. Yarmarka müddətində müəssisələrin nümayəndələri məzunlarımızdan CV qəbul edir, yerindəcə baxır və tələblərə cavab verdikləri halda onları əmək bazarında müvafiq işlə təmin edirlər. Təhsil proqramları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən hazırlanıb, təsdiqlənməklə Lənkəran Dövlət Universitetinə göndərilir. Təhsil proqramları təsdiqlənmədən öncə Elm və Təhsil Nazirliyi tərəfindən onların keyfiyyət səviyyəsi ölçülür. Bu ölçülmə meyarlarına uyğun olaraq bu proqramı mənimsəməkdə olan tələbələr və proqramı mənimsəyən məzunlar da bu səviyyədən məmnundurlar.

**3.10.5. Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti**

Təcrübə, potensial inkişaf və karyera bölməsi məzunlarla müəyyən onlayn vasitələr ilə (elektron poçt, watchapp qrupları, mobil zənglər) davamlı əlaqə saxlayırlar. Bu istiqamətdə həm məzunların bir qisminin işlə təmin olunması üçün məsləhətlərin verilməsi, həm də yeni işlə təmin olunanların qeydiyyata alınıb LDU məzun-bazasına daxil edilməsi kimi işləri həyata keçirirlər. Həmçinin, karyera qurma istiqamətində çətinliklə qarşılaşan məzunlara fərdi və ya qrup şəklində davamlı məsləhətlər verilir və bunun nəticəsi olaraq məzunun hazırki əmək fəaliyyəti LDU məzun-bazasında öz əksini tapır.

## 4. ELMİ TƏDQİQAT

*4.1. Elmi-tədqiqat strategiyası*

**4.1.1. ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti**

Elmi-tədqiqat strategiyası mövcuddur. Belə ki, 2030-cu ilə qədər LDU-nun elm-tədqiqat və innovasiya fəaliyyətinin inkişafı tədqiqat universitet modelinin formalaşması və reallaşmasına əsaslanır. Mahiyyət etibarı ilə tədqiqat universiteti modeli təhsil və elmi-tədqiqat fəaliyyətinin effektiv vəhdəti və inteqrasiyasından ibarətdir. Bu əsasda elmi tədqiqatlar professor-müəllim heyətinin fəaliyyətinin ayrılmaz tərkib hissəsi deyil, eyni zamanda vahid sosial-iqtisadi sistem kimi universitetin fundamental əsasını təşkil edir. Tədqiqat universiteti modelində təhsil prosesi fundamental və tətbiqi elmi tədqiqatların, eləcə də innovativ texnologiyaların inteqrasiyası əsasında bilavasitə elmi, maliyyə-iqtisadi və istehsal fəaliyyəti ilə müşahidə edilir. Elm və praktiki fəaliyyətin nəticələrinin bilavasitə tədris prosesinə tətbiqi təhsil alanların elmi-tədqiqat işlərinə cəlb edilməsi, elmin imicinin və populyarlığının yüksəldilməsinə kömək edir.

**4.1.2.Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti**

Əlverişli investisiya mühitinin yaradılması üçün gənclər, tələbələr arasında sahibkarlıq mühitinin inkişaf etdirilməsi;

- regional bazar və sosial - iqtisadi infrastrukturun təhlili;
- ev təsərrüfatlarının prioritet inkişaf istiqamətlərinin, eləcə də kənd əhalisinin xüsusi

resurslarının iqtisadi proseslərə aktiv cəlb edilməsi metod və formalarının aşkar edilməsi;
- yeni iş yerlərinin yaradılması, turizm, ekologiya, tikinti, şəhərsalma və digər sahələrdə beynəlxalq əməkdaşlıq üçün yeni imkanların yaradılması ilə əlaqədar yaşıl texnologiyadan istifadənin inkişaf etdirilməsi.

**4.1.3.ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexazimlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti**

Aşağıdakı strateji məqsəd və vəzifələri hədəfləyir:

Strateji məqsəd:
- universitetin elmi potensialından mütəxəssis hazırlığının keyfiyyətini yüksəltmək üçün maksimum istifadə edilməsi;
- universitetin elmi fəaliyyətinin rəqabətqabiliyyətliliyinin təmin edilməsi;
- universitet alimlərinin respublika və dünya elm cəmiyyəti ilə inteqrasiyasına nail olunması;
- universitetin elmi fəaliyyətinin respublikanın və Lənkəran - Astara iqtisadi rayonunun innovativ inkişaf amilinə çevrilməsi;
- universitet tədqiqatlarının özünüödəməsinin təmin edilməsi, əməkdaşların rifah halının yüksəldilməsi və universitetin maddi - texniki bazasnın inkişaf etdirilməsi.

Strateji vəzifə:
- mütəxəssis hazırlığının bütün mərhələlərində elmi-tədqiqat işlərinin yerinə yetirilməsi ilə tədris prinsiplərinin reallaşdırılması;
- universitetdə yeni elmi məktəbin formalaşdırılması, onların maddi - texniki bazasının möhkəmləndirilməsi;
- universitetin yeni yaradılacaq elmi məktəblərində fundamental elmi tədqiqatların inkişaf etdirilməsi;
- Azərbaycan Milli Elmlər Akademiyası, ölkə və xarici elmi mərkəzlərlə yaradıcılıq əlaqələrinin və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi;
- beynəlxalq, regional və ölkə səviyyəsində innovativ - elmi proqramlar və layihələrin reallaşmasında aktiv iştirak edilməsi;
- elm və texnologiyaların prioritet inkişaf istiqamətləri üzrə tətbiq xarakterli elmi tədqiqatların spektrinin genişləndirilməsi;
- mühəndis və informasiya - kommunikasiya texnologiyaları sahəsində aparıcı mövqeyə nail olunması;
- professor-müəllim heyətinin, tələbə və magistrantların, dissertant və doktorantların elmi tədqiqatlara cəlb edilməsi ilə onları tədqiqat işləri aparmağa həvəsləndirən mexanizmin təkmilləşdirilməsi;
- universitetdə yüksək səviyyəli kadr hazırlığının istiqamətlərinin genişləndirilməsi, müxtəlif istiqamətlər üzrə dissertant və doktorantların sayının artırılması, onların elmi yaradıcılıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi;
- elmi tədqiqatlarda monitorinqin təşkili və nəticələrin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi; elmi-tədqiqat və konstruktor işləmələri üzrə məlumatlar bazasının yaradılması, məlumatlar bazasının əlyetərliyinin təmin edilməsi, elektron sənəd dövriyyəsinin formalaşdırılması;
- universitetin elmi kollektivinin və bölmələrinin strukturunun optimallaşdırılması;
- müasir avadanlıq, alət və proqram vasitələri ilə elmi tədqiqatların təmin edilməsi;
- universitetdə elmi tədqiqatların yerinə yetirilməsinin sürətləndirilməsi və inkişaf etdirilməsi məqsədi ilə bütün səviyyələrdə büdcə və büdcədənkənar vəsaitlərin, müəssisə və xüsusi səhmdarların vəsaitlərinin cəlb edilməsi üzrə fəaliyyətin aktivləşdirilməsi;
- əksər elmi tədqiqatların nəticələrini əmtəəlik məhsul kimi kommersiyalaşdırılması;
- intellektual mülkiyyət hüququnun qorunması və informasiya təhlükəsizliyinin təmin edilməsi mexanizminin inkişaf etdirilməsi;
- intellektual mülkiyyətin kommersiyalaşdırılması, kommersiya menecmenti ilə bağlı

alimlərə, tələbə və aspirantlara təlimlərin təşkil edilməsi;
- universitetin innovativ infarstrukturunun (biznes inkubator, elmi-texnoloji park, texnologiyaların transfer mərkəzi, gənc sahibkarların inkişaf tədris mərkəzi, treyninq mərkəzi və s.) inkişaf etdirilməsi və onun regionun və bütövlükdə respublikanın iqtisadi və elmi məkanı ilə inteqrasiyasına nail olunması;
- tələbələrin innovativ fəaliyyəti üçün müvafiq infrastrukturu yaratmaq və s.

**4.1.4.Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu**

— Elmi – tədqiqat və innovasiya fəaliyyətinin prioritet istiqamətləri

Universitetin elmi - tədqiqiat və innovasiya fəaliyyəti aşağıdakı məsələlərin həll edilməsinə istiqamətlənir:

- tələbələri konkret peşəkar fəaliyyət kompetensiyalarına uyğun tədqiqat qrupları tərəfindən aparılan və laboratoriyalarda yerinə yetirilən işlərə cəlb etməklə bakalavr və magistr proqramlarının mənimsənilməsi;
- universitetdə aparıcı elmi məktəbin yaradılması və inkişaf etdirilməsi;
- yüksək elmi nəticələrə nail olmaq üçün büdcə və büdcədənkənar maliyyə vəsitlərinin cəlb və istifadə mexanizminin təkmilləşdirilməsi;
- elmi - tədqiqatların maddi - texniki bazasının inkişaf etdirilməsi;
- dissertant və doktorantlara elmi rəhbərliyin məhsuldarlığının artırılması;
- müasir innovativ iqtisadiyyatın və prioritet elmi istiqamətlərin vəzifələrinə uyğun dissertant və doktorantura üzrə ixtisasların spektrinin genişləndirilməsi;
- dissertant və doktorant hazırlığının büdcədənkənar formasının inkişaf etdirilməsi;
- beynəlxalq elmi proqramlarda, təcrübələrdə və mütəxəssis mübadiləsində iştirak etməklə xarici ölkələrin qabaqcıl elmi təcrübəsinin mənimsənilməsi;
- yüksək elmi nəticələrin əldə edilməsi məqsədilə professor-müəllim heyəti, tələbə və magistrantlar üçün real həvəsləndirmə sisteminin formalaşdırılması;
- universitetin perspektiv dövr üçün innovasiya infrastrukturunun inkişaf etdirilməsi;
- univeristetə mənsub intellektual mülkiyyət obyektlərinin bazara irəlilədilməsi və tətbiqi ilə əlaqədar olan innovasiya fəaliyyətinin inkişaf etdirilməsi;
- univeristetin professor-müəllim heyəti, tələbələr, magistrantlar və müvafiq struktur bölmələri tərəfindən aparılan tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırlması ilə əlaqədar fəaliyyətin hərtərəfli müdafiə edilməsi;
- iqtisadiyyatın prioritet sahələrinin maraqları naminə universitetdə tətbiqi tədqiqat xarakterli işlərin həcminin artırılması və tətbiqi tədqiqatlar bazasının genişləndirilməsi;
- birgə təhsil proqramlarının təşkili, təhsil prosesinə biznes subyektlərinin aparıcı mütəxəssislərinin cəlb edilməsi, onların maddi - texniki potensiyalından və resurslarından istifadə ilə bağlı iqtisadiyyatın real sektoruna mənsub subyektlərlə əməkdaşlığın inkişaf etdirilməsi;
- tələbə və magistrantların təhsil prosesində əldə etdikləri fundamental elmi biliklərin praktiki reallaşması üçün onların tətbiqi xarakterli tədqiqatlarda iştirakının aktivləşdirilməsi və s.

**4.1.5.Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti**

— LDU-nun elmi-tədqiqat və innovasiya fəaliyyəti aşağıdakı prinsiplərə əsaslanır:

- praktikayönümlü tədqiqatların və ekspert - analitik işlərin prioritet inkişafı;
- aktual elmi tədqiqatların aparılması, hakimiyyət orqanları və biznes subyektlərinin sifarişləri əsasında layihələrin yerinə yetirilməsi istiqamətində elmi-pedoqoji məktəbin formalaşdırılması və inkişafı;
- tələbə, magistrant, doktorant və dissertantların, eləcə də peşəkar təhsil proqramları ilə təhsil alanların elmi - tədqiqat işlərinə cəlb edilməsi;
- elm, biznes və təhsilin inteqrasiyası və bu əsasda büdcədənkənar maliyyə mənbələri

hesabına yerinə yetirilən ETİ-nin həcminin artırılması.
Univesitetin elmi-tədqiqat işlərinin tematikası respublikanın və regionun cari və perspektiv tələbinə istiqamətlənmişdir.

**4.1.6.Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti**

- bütün elmi-pedoqoji kollektivin daha geniş formatda universitetin tədqiqat və innovasiya fəaliyyətinə cəlb edilməsi və 2030-cu ilə qədər professor - müəllim heyətinin 60% - dən çoxunun elmi - tədqiqat işlərində aktiv iştirakının təmin edilməsi;
- bir elmi-pedoqoji işçiyə Elm və Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilən elmi tədqiqatların orta illik maliyyələşmə həcminə nail olunması;
- yaradılacaq elmi-tədqiqat laboratoriyalarının, mərkəzlərin (məsələn, "Biotexnoloji mərkəz") və kiçik müəssisələrin müasir avadanlıqlarla təmin edilməsi;
- beynəlxalq və respublika səviyyəli elmi layihə və proqramlarda iştirak edilməsi;
- müxtəlif maliyyələşmə mənbələri (məsələn, ABŞ-nın Fulbrayt, Almaniya, Turkiyə, Monqolustan və KXR-nın universitetlərinin akademik mübadilə proqramlarında iştirak etmək) hesabına beynəlxalq elmi - tədqiqat işlərinin həcminin artırılması;
- müxtəlif ixtisaslar üzrə fəlsəfə doktorluğu dissertasiyaların müdafiəsi sahəsində birgə dissertasiya şuralarının formalaşdırılması;
- fəlsəfə doktorluğu üzrə dissertasiya müdafiə edən universitet müəllimlərinin həvəsləndirilməsi;
- LDU-nun alimləri tərəfindən Web of Science və Scopus məlumatlar bazasında indeksləşdirilən resenziyalı beynəlxalq jurnallarda hər 100 müəllimə 10 ədəd hesabı ilə nəşrlərin sayının artırılması;
- reklam və sərgi fəaliyyətinin təmin edilməsi, daimi fəaliyyət göstərən sərgi və interaktiv reyestrlərin universitetin elmi - texniki işləmələri və innovasiyaları ilə təzələnməsi;
- universitetin bazasında elm və texnilkanın prioritet inkişaf istiqamətləri üzrə hər il 10-15 beynəlxalq və ümumrespublika təyinatlı elmi-praktiki konfranslar, seminarlar, dəyirmi masaların təşkil edilməsi;
- xarici tərəfdaşlarla birgə nəşrlərin hazırlanması istiqamətində əməkdaşlığın aktivləşdirilməsi;
- gənc alimlərin, dissertantların və tələbələrin qrant müsabiqələrinə cəlb edilməsi, həvəsləndirilməsi üçün təqribən 3500-4000 min manat həcmində qrant fondunun yaradılması;
- elmi - tədqiqat işlərində iştirak edəcək tələblərin sayının ümumi tələbə kontingentinin 35 - 40% - i qədər artırılması;
- ali təhsil müəssisələri arasında tələbə biznes - inkubatorlarının yaradılması və onların işinin aktivləşdirilməsi;
- tələbələrin elmi tədbirlərə və maliyyələşdirilən elmi - tədqiqat işlərinə (proqram, təsərrüfat müqavilələri, qrantlar) cəlb edilməsi ilə onların arasında elmi tədqiqatların populyarlaşdırılması;
- gənclərin elmi - texniki yaradıcılığının təbliğ edilməsi, gənc alim və mütəxəssislərin elmi fəaliyyətinin stimulllaşdırılması məqsədi ilə gənc alim və tələbə Şuralarının işinin təkmilləşdirilməsi və peşəkar inkişaf üçün şəraitin yaradılması;
- yaradılan ixtiraların keyfiyyətinin yüksəldilməsi, patent və şəhadətnamələrlə qorunan intellektual mülkiyyət obyektlərindən istifadəni nəzərdə tutan lisenziya müqavilələrinin sayının artırılması və s.

Bu gün Lənkəran-Astara iqtisadi rayonunu ölkə iqtisadiyyatına mədəni, iqtisadi və siyasi təsir edən elmi-tədris mərkəzlərindən birinə çevrilir. Universitet regionun inkişafında drayver rolunu oynamaqla bilik istehsalı, texnologiyaların işlənib hazırlanması və onların kommersiyalaşdırılması istiqamətində əhəmiyyətli dərəcədə intellektual potensiala malikdir. Bu gün ali tədris ocağının əldə etdiyi nailiyyətlərin səviyyəsi yerinə yetirilən fundamental

tədqiqatların və ***Scopus və Web of Science*** məlumatlar bazasına daxil olan resenziyalaşdırılan beynəlxalq jurnallarda çap edilən məqalələrin sayı ilə qiymətləndirilir.

**4.1.7.Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti**

Strategiaya akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatandır və aşağıdakı prinsiplər əsasındadır.

1. Ölkədə rəqabət apara biləcək səviyyədə qabaqcıl tədqiqat işləri yerinə yetirən müəllim və əməkdaşları real və effektiv həvəsləndirməyə imkan verən mexanizmin yaradılması.
2. Universitetin professor-müəllim heyəti və tədqiqatçılar üçün ***course buy-out*** siyasətinin tətbiq edilməsi.
3. Tələbə və magistrantlarda tədqiqat işlərinə həvəs yaradan tədbirlərin keçirilməsi: gənc alimlərin müsabiqə, konfrans və ekspedisiyaları, akademik mübadilə və təcrübə keçmələrdə iştirak üçün təqaüdlər, fərdi tədqiqat lahiyələrinin reallaşması üçün qrantların ayrılması.
4. Nüfuzlu elmi ədəbiyyatların nəşrinin elmi fəaliyyətə həsr olunan dövrü mətbuat məlumatları, radio verilişləri, internet resursları ilə təmin edilməsi.
5. Texnoloji inkişaf prioritetlərinin formalaşması və biznes-elm-dövlət vəhdətinə nail olunması məqsədi ilə universitetin bazasında kollektiv istifadə mərkəzi və texnoloji platforma kimi digər maraqlı təşkilatlarla birgə müasir laboratoriyaların yaradılması.
6. Scopus, Web of Science - də indeksləşdirilən impact faktorlu elmi jurnallarda professor - müəllim heyətinin, tələbələrin, magistrantların və doktorantların məqalələrinin nəşr edilməsi ilə bağlı fəaliyyətin aktivləşdirilməsi.
7. Universitetdə sahibkarlıq ekosisteminin yaradılması məqsədilə professor - müəllim heyəti üçün təlim kursları, treyninqlərin təşkil edilməsi və keçirilməsi.
8. Regionun iri təsrrüfat subyektləri ilə birlikdə biznes layihələrin reallaşdırılması.
9. Biznes nümayəndələri ilə birgə proqramlarda təhsil alanların iştirakının təmin edilməsi.
10. Universitet elmi jurnalının Ali Attestasiya Komissiyasının icazə verdiyi nəşrlər siyahısına daxil edilməsinə nail olunması.

**4.1.8.Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti**

Universitetin Elmi-tədqiqat strategiyasının hazırlanmasında, bölgədə fəaliyyət göstərən Elmi təşkilatlar, özəlliklə aqrar sektor fəaliyyəti göstərən mərkəzlərin eləcə də ikili elmi tədqiqat əlaqənin olduğu respublika-beynəlxalq səviyyəli təşkilatlarla maraqlı tərəf qismində fikir mübadiləsi aparılmışdır.

*4.2. Tədqiqat resursları*

**4.2.1.ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti**

LDU-nun maliyyə təminatı əsasən tələbələri təhsil haqqı hesabına formalaşır. Daxil olmuş gəlirlər universitetin maddi-texniki bazasının, infrastrukturunun güclənməsinə və kadr potensialının inkişafına sərf olunur. Son 5 ildə 3 tədris korpusu, kitabxana, turizm tədris bazası, yataqxana, müəllimlər üçün xidməti evlər və s. tikilib istifadəyə verilməsi və laboratoriyaların alınması universitetin infrastrukturunu və maddi-texniki bazasının yüksəlməsinə səbəb olmuşdur.

**4.2.2.Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti**

Lənkəran Dövlət Universitetində professor-müəllim heyətindən 113 nəfəri hal-hazırda aktiv elmi tədqiqatla məşğul olur.

**4.2.3.Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti**

Lənkəran Dövlət Universitetində Tələbə Elmi Cəmiyyətinin Elm istiqaməti olaraq hər

fakültə üzrə Tələbə Elmi Tədqiqat Mərkəzində (TETD) mütəmadi olaraq elmi tədqiqat işinin aparılması ilə bağlı öyrədici seminarlar keçirilir. Hər ay boyunca nəzərdə tutulan müəyyən mövzularda tələbələrə elmi dərəcəli müəllimlər tərəfindən seminarlar təşkil olunur. Bu təlim-seminarların əsas məqsədi tələbələrdə elmi tezislərin hazırlanması və təqdimatı bacarıqlarını formalaşdırmaqdır. Həmçinin Universitet konfransları keçirilir.

**4.2.4.Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti**

Lənkəran Dövlət Universitetinin professor-müəllim heyətinin böyük əksəriyyəti google scholar, Web of Science, Scopuc, Research Gate elmi məlumat bazalarından qeydiyyatdan keçmişdir.

**4.2.5.Nəticəyönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti**

Lənkəran Dövlət Universitetində nəticəyönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün diferensial əməkhaqqı sisteminin tətbiq olunması nəzərdə tutulur. Bundan başqa Respublika daxili və Beynəlxalq səviyyəli ikili elmi-tədqiqat əlaqələri həyata keçirilir.

**4.2.6.Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası**

Elmi-tədqiqat Kommersiyalaşması ilə bağlı olaraq Lənkəran Dövlət Universitetində strateji inkişaf planına uyğun oaraq layihə tədbirləri hazırlanır.

**4.2.7.Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti**

Lənkəran Dövlət Universitetinin tədqiqatçılarının digər birgə tədqiqatlar aparması məqsədilə Respublikanın və xarici ali təhsil və elmi-tədqiqat müəsisələri ilə 2017-2022-ci illərdə 39 müqavilə imzalanmışdır. Bu müqavilələrdən 21-i xarici ölkələrin ali təhsil və elmi-tədqiqat müəsisələri ilə olmuşdur. Bu müqavilələr imkan verir ki, tədqiqatçılar digər elmi müəssisələrlə əməkdaşlıq şəklində tədqiqat aparsınlar.

*4.3. Elmi-tədqiqat fəaliyyəti*

**4.3.1.Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti**

Lənkəran Dövlət Universitetində elmi-tədqiqat fəaliyyətinin idarə edilməsindən ötrü "Elm və tədqiqat işləri" şöbəsi fəaliyyət göstərir. Burada universitetin və ölkənin inkişaf strategiyası nəzərə alınmaqla elmi-tədqiqat fəaliyyətinin illik və 5 illik planlar tərtib olunur. Tədqiqatçılar bu plana uyğun olaraq elmi-tədqiqat işlərini aparır və hər ilin sonunda hesabat verirlər. Verilən hesabatlar əsasında "Elm və tədqiqat işləri" şöbəsində "Universitetin elmi-fəaliyyəti haqqında hesabatı" hazırlanır və Elm və Təhsil Nazirliyinə təqdim edilir.

**4.3.2.Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti**

Lənkəran Dövlət Universitetində Elmi-tədqiqat xarakterli beynəlxalq və respublika konfransları mütəmadi olaraq təşkil olunmaqdadır. Beləki, 2017-2022-ci illərdə Universitetdə 9 beynəlxalq, 12 respublika və 3 Universitet daxili konfrans keçirilmişdir.

Universitetdə professor-müəllim, magistrant və doktorantların iştirakından əlavə Tələbə Elmi Cəmiyyətinin üzvü olan tələbələr üçün də konfranslar təşkil edilir.

**4.3.3.Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti**

Lənkəran Dövlət Universitetində keçirilən elmi konfranslarda ölkənin digər ali təhsil müəssisələrinin tədqiqatçıları rəsmi şəkildə dəvət olunur və onların konfranslarda iştirakı

üçün şərait yaradılır.
Təkcə 2022-ci ildə keçirilən beynəlxalq konfranslarda 39 müxtəlif xarici ölkədən tədqiqatçılar məruzələrlə çıxışlar etmişdirlər. Ölkə daxilində isə 36 müəssisənin tədqiqatçıları konfransda iştirak etmişdirlər.

**4.3.4.Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti**

Lənkəran Dövlət Universitetində Tələbələrin elmi-tədqiqat işinin təşkilini əsasən Tələbə Elmi Cəmiyyəti həyata keçirmişdir.
Universitetdə Tələbə Elmi Cəmiyyətinin konfransı hər il mütəmadi olaraq təşkil olunur (pandemiya dönəmində bu mümkün olmamışdır). Keçirilən hər konfransın işində yüzlərcə gənc tələbə-tədqiqatçılar iştirak edir və elmi nəşrləri konfrans materiallarında çap olunur.

**4.3.5.Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti**

Lənkəran Dövlət Universiteti tərəfindən davamlı olaraq qrant layihələri təqdim edilsədə yalnız 2 beynəlxalq qrant layihəsi qazanmaq mümkün olmuşdur.

**4.3.6.Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti**

Lənkəran Dövlət Universiteti tərəfindən patentlərin əldə edilməsi və mövcud potensialın stimullaşdırılması istiqamətində işlər həyata keçirilir.

**4.3.7.İnstitusional əməkdaşlığı (milli və beynəlxlaq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti**

Lənkəran Dövlət Universiteti milli və beynəlxalq təşkilatlarla 2017-2022-ci illərdə 39 müqavilə imzalanmışdır. Bu müqavilələrdə birgə tədqiqatların aparılması və bigə proqramların həyata keçirilməsi də xüsusi yer almışdır.

**4.3.8.Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti**

Lənkəran Dövlət Universitetinin tədqiqatçılarının digər birgə tədqiqatlar aparması məqsədilə Respublikanın və xarici ali təhsil və elmi-tədqiqat müəsisələri ilə 2017-2022-ci illərdə 39 müqavilə imzalanmışdır. Bu müqavilələrdən 21-i xarici ölkələrin ali təhsil və elmi-tədqiqat müəsisələri ilə olmuşdur.

**4.3.9.Tədqiqatçıların beynəlxlaq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti**

Lənkəran Dövlət Universitetinin tədqiqatçıları, doktorant və magistrantları davamlı olaraq beynəlxalq elmi konfranslarda iştirak edir və beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan jurnallarda məqalələr nəşr etdirirlər. Belə ki, 2017-2022-ci illərdə Universitet əməkdaşlarının **Web of Science** bazasına daxil olan jurnallarda 62 məqalə dərc etdirmişdirlər.

**4.3.10.Yerinə yetirilən elmi tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti**

Bu istiqamətdə, Lənkəran Dövlət Universitetinin professor-müəllim heyəti tərəfindən 2017-2022-ci illərdə 2 dərslik, 41 dərs vəsaiti, 7 monoqrafiya, 109 fənn proqramı nəşr etdirilmişdir.

**4.3.11.Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti**

Elmi məqalələrin dərc edilməsindən ötrü Lənkəran Dövlət Universitetinin Elmi xəbərləri jurnalının Humanitar elmlər seriyası və Riyaziyyat və təbiət elməri seriyası elmi məqalələrin nəşrini həyata keçirir. Həmçinin 2022-ci ildən Universitetin “Texnika və aqrar elmləri” elmi praktiki jurnalı nəşrə başlamışdır. Lənkəran Dövlət Universitetinin Elmi xəbərləri jurnalının Humanitar elmlər seriyası jurnalında humanitar elmlərin müxtəlif sahələrinə, o cümlədən, dilçilik, ədəbiyyatşünaslıq, tarix, şərqşünaslıq, pedoqogika, sosiologiya və psixologiya sahələrinə aid yüksək keyfiyyətli, yeni nəticələri

özündə saxlayan rəydən keçirilmiş məqalələr çap edilir. Jurnalın məqsədi humanitar sahənin öyrənilməsində yeni elmi istiqamətləri təqdim etmək, tədqiqatçılar arasında elmi məlumat mübadiləsi aparmaq üçün açıq platforma yaratmaqdır. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə edilən elmi nəşrlərin siyahısına, **İNDEKS COPERNİCUS** bazasına həmçinin **E-Library (РИНЦ)** indeksləmə sisteminə daxildir.

Lənkəran Dövlət Universitetinin Elmi xəbərləri jurnalının Riyaziyyat və təbiət elməri seriyası jurnalı riyaziyyat və təbiət elmlərinin geniş spektrini əhatə edən elmi jurnaldır. Jurnalda riyaziyyat və təbiət elmləri sahəsində orijinal, ciddi rəyləşdirilmiş, nəzəri və tətbiqi əhəmiyyətə malik, yeni nəticələri özündə saxlayan məqalələr çap edilir. Jurnalın məqsədi alim və tədqiqatçılar üçün təbiət elmlərinin müxtəlif sahələrinə aid yeni nəticələri və istiqamətləri müzakirə etmək üçün yeni imkanlar təklif etməkdir. Jurnal **E-Library (РИНЦ)** indeksləmə sisteminə daxildir.

Jurnalın hər iki seriyası ildə iki dəfə çap olunur, azərbaycan, ingilis, rus və türk dillərində məqalələr qəbul edilir.

Universitetin “Texnika və aqrar elmləri” elmi praktiki jurnalı müasir istehsalatlarla əlaqəli və texnologiyaların sənayeyə və aqrar sahəyə transferində iştirak etmək imkanı olan elmi və pedaqoji işçilərin, alimlərin, mütəxəssislərin tədqiqat işlərinin materialları nəşr üçün qəbul edir. Jurnal ildə 4 dəfə nəşr edilir. Məqalələr azərbaycan, ingilis, türk və rus dillərində qəbul olunur.

Həmçinin Universitetdə hər il beynəlxalq və respublika statuslu elmi konfranslar təşkil edilir. 2017-2022-ci illərdə Universitetdə 9 beynəlxalq, 12 respublika və 3 Universitet daxili konfrans keçirilmişdir. Keçirilən bütün elmi konfranslarda iştirak edən tədqiqatçıların əsərləri konfrans materiallarında çap olunmuşdur.

**4.3.12.Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikası**

Universitet əməkdaşları tərəfindən dərc olunmuş elmi əsərlərə istinadetmə indeksinin hər il artması ilə yanaşı, 2017-2022-ci illərdə Lənkəran Dövlət Universitetində çalışan əməkdaşların elmi məqalələrinə ümumilikdə 277 istinad olmuşdur.

**4.3.13.Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqatyönümlü fənlərin nəzərə alınması vəziyyəti**

Magistraturada tədris Elm və Təhsil Nazirliyi tərəfindən hər bir ixtisas üçün təsdiq olunmuş tədris planına uyğun şəkildə aparılır.

**4.3.14.Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti**

Lənkəran Dövlət Universitetində mütəmadi olaraq akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlər və elmi seminarlar təşkil olunur.

**4.3.15.Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu**

2016-2022-ci illərdə 56 nəfər fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul edilmişdir. Bunlardan 43 nəfəri təhsil aldıqları müddətdə Universitetdə işə cəlb edilmişdir.

**4.3.16.Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti**

Hal hazırda 14 elmlər doktoru və professor tədris prosesində iştirak edir. Eyni zamanda son illərdə 2 nəfər elmlər doktoru, 2 nəfər isə professor elmi adı almışdır. Eləcə də 2017-2022 illərdə Universitetdə çalışan 19 əməkdaş Respublikanın nüfuzlu universitetlərində müxtəlif sahələr üzrə elmlər doktoru proqramı üzrə məqsədli yerlərə qəbul olunmuşdur.

**4.3.17.Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi**

**vəziyyəti**
Lənkəran Dövlət Universitetində elmi-tədqiqat işi yerinə yetirən 113 əməkdaşdan 68-nin elmi dərəcəsi vardır, 45 nəfər isə elmi dərəcəsi olmayan əməkdaşdır. Son illərdə Universitetin doktorant və dissertantlarının dissertasiya işlərinin müdafiəsində artım dinamikası olmuşdur. Bu da elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinə müsbət təsirini göstərməkdədir.

**4.3.18.Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi tədqiqat hədəflərinə uyğunluğu**
Lənkəran Dövlət Universitetində Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərancamlarına eləcə də ölkənin strateji inkişaf planlarına uyğun olaraq Universitetin prioritet istiqamətləri üzrə fəlsəfə doktorluğu və elmlər doktorluğu (məqsədli) proqramları üzrə elmi-təqdiqat işləri aparılır.

**4.3.19.Elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti**
Lənkəran Dövlət Universitetində elmi tədqiqat işi ilə məşğul olan professor-müəllim heyətinin görəcəkləri işlər haqqında illik və 5 illik elmi-tədqiqat işlərinin planı uyğun olaraq hər il və hər 5 ildən bir təsdiq edilir. Universitetin professor-müəllim heyətindən təsdiq olunmuş plana uyğun olaraq hər ilin sonunda gördükləri elmi-tədqiqat işləri haqqında hesabatları alınır və Elm və Təhsil Nazirliyinə təqdim edilir. Universitetə yeni qəbul olunmuş magistrantlara veriləcək dissertasiya mövzuları Kafedra iclaslarında və Fakültə elmi şuralarında müzakirə olunduqdan sonra Universitet rəhbərliyi tərəfindən təsdiq edilir. Universitetə yeni qəbul olunmuş doktorant və dissertantlara veriləcək dissertasiya mövzuları Kafedra iclaslarında və Fakültə elmi şuralarında eləcə də Universitetin Elmi Şurasında müzakirə edilərək Universitet rəhbərliyi tərəfindən təsdiq edilir. Universitetin magistrant və doktorantları gördükləri elmi-tədqiqat işləri haqqında vaxtaşırı aid olduqları kafedra və fakültəyə eləcə də Universitetin Elmi hissəsinə hesabatlar tədqim edirlər.

**4.3.20.Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili**
Son 5 ildə Lənkəran Dövlət Universitetində 14 doktorant və dissertantın dissertasiya işinin ilkin müzakirəsi keçirilmiş və işlər müvafiq "Müdafiə şuraları"na təqdim edilmişdir. "Müdafiə şuraları"na təqdim edilən işlərin böyük əksəriyyətinin müdafiəsi artıq uğurla keçirilmiş və yekun qərarın verilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Kommisiyasına təqdim edilmişdir.

*4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti*

**4.4.1. Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu**
Lənkəran Dövlət Universiteti Antiplagiat və akademik dürüstlük siyasəti mövcuddur və bu siyasəti Respublikanın digər ali təhsil müəssisələri ilə birgə korporativ şəkildə (hər sənəd üçün ödəniş etməklə) həyata keçirir.

**4.4.2.Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu**
Bununla bağlı olaraq həm dissertasiya işlərində, həm elmi metodiki işlərdə, həm də məqalə qəbulu proseduralarında mövcud qaydalara uyğun şəkildə Universitet müvafiq qanunvericiliklə qabaqlayıcı tədbirlər həyata keçirir

**4.4.3.ATM-in antiplagiat sisteminin təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi**
Lənkəran Dövlət Universitetində elmi-tədqiqat işi ilə məşğul olan bütün professor müəllim heyyətini eləcə də magistrant və doktorantların dissertasiya işlərini əhatə edir.

## 5. İDARƏETMƏ SİSTEMİ

### *5.1. İdarəetmə orqanları*

**5.1.1. ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət iş planlarının mövcudluğu vəziyyəti**

LDU-nun rəqabətqabiliyyətliliyinin təmin edilməsi onun idarə edilməsinə iqtisadi yanaşma tələb edir. Hal-hazırda idarəetmənin əsas problemi ali təhsil müəssisəsinin idarəetmə strukturunun bazar xarakterli dəyişən sosial-iqtisadi şəraitə adaptasiya olmaması hesab edilir. Bu baxımdan problem məhz özünü idarəetmə prinsipinə söykənən yeni idarəetmə sistemi vasitəsi ilə aradan qaldırıla bilər. Təhsil proqramlarının iqtisadi effektivliyinə görə bütün cavabdehlik məsuliyyəti, eləcə də müvafiq səlahiyyətlər təhsil proqramlarının koordinatoru kimi fakültələr (kafedralar) və şöbələr üzərinə düşür. Belə struktur yanaşma zamanı LDU-nun bütün aspektlər üzrə aktiv fəaliyyətinin ağırlıq mərkəzini məhz yüksək və orta ierarxiya səviyyələrinin üzvü əlaqələndirilməsi təşkil edir. Universitetin strateji inkişaf planının idarəetmə sisteminin inkişaf etdirilməsini nəzərdə tutan bölməsinin yerinə yetirilməsi zamanı əsas diqqət real islahatların aparılması üçün əlverişli mühüti təmin edən normativ və inzibati-təşkilatı xarakterli işlərin planlaşdırılması və reallaşdırılmasına yönəldilir. “Sahibkarlıq” universiteti konsepsiyasına uyğun olaraq birinci növbədə diqqət maliyyə təminatı məsələsi hesaba alınmaqla təhsil proqramları və ya elmi-tədqiqatların müvəffəq reallaşmasına yönəldiləcəkdir.

Lənkəran Dövlət Universitetinin Nizamnaməsinə uyğun olaraq müvafiq idarəetmə orqanları fəaliyyət göstərir. Azərbaycan Respublikasının Elm və Təhsil nazirinin əmri ilə Universitetin Elmi Şurası yaradılır və fəaliyyət göstərir. Elmi Şuranın hər tədris ilinin əvvəlində illik iş planı təsdiq olunur. Universitetin rektorunun əmri ilə Elmi və tədris-metodiki şura yaradılır və fəaliyyət göstərir. Burada da hər tədris ilinin əvvəlində illik iş planı təsdiq olunur. Həmçinin Tələbə Elmi Cəmiyyətinin müvafiq iş planları hər il təsdiq olunur və fəaliyyət göstərir. Universitetin idarəetmə orqanlarının fəaliyyəti müvafiq əsasnamələrə və universitetin nizamnaməsinə uyğun şəkildə təşkil edilir.

**5.1.2.İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti**

Lənkəran Dövlət Universitetinin Elmi Şurasının tərkibində tələbələrin təmsilçisi olan Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyətinin sədrləri tamhüquqlu üzv kimi təmsil olunurlar. Həmçinin Universitetin obyektiv idarə olunmasını təmin etmək, cəmiyyətə inteqrasiya prosesini həyata keçirmək üçün İctimai Şura fəaliyyət göstərir. Həmin Şuranın tərkibinə maraqlı tərəflər, o cümlədən işəgötürənlər və ictimaiyyətin nümayəndələri daxil edilirlər.

**5.1.3.İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti**

Universitetin idarəetmə orqanlarının iclasları, yığıncaqları və tədbirləri təsdiq edilmiş fəaliyyət planına uyğun şəkildə təşkil olunur. Universitet Elmi şurasının və Universitet Elmi və tədris metodiki şuraların təsdiq olunmuş iş planlarına uyğun olaraq bütün iclaslar protokollaşdırılaraq təsdiq olunur.

**5.1.4.İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti**

Universitetin idarəetmə orqanlarında məsələlər açıq şəkildə müzakirə olunur. Burada müzakirələrdə iştirak etmək üçün bütün üzvlərə bərabər şəkildə şərait yaradılır. Qərarların verilməsi qanunvericiliyə uyğun şəkildə həyata keçirilir.

**5.1.5.İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti**

Universitetin idarəetmə orqanları tərəfindən qəbul olunmuş qərarların ilk növbədə mövcud qanunvericiliyin tələblərinə uyğun olub-olmaması aydınlaşdırılır. Əgər həmin qərar layihəsi qanunvericiliyə uyğundursa qəbul olunur. İdarəetmə orqanları tərəfindən qəbul olunmuş qərarların əlçatanlığını təmin etmək məqsədilə iş sirri olmayan məlumatlar universitetin rəsmi internet saytında və ya rəsmi sosial media hesablarında yerləşdirilir. Verilmiş qərarların icrasına müvafiq idarəetmə orqanı nəzarət edir.

**5.1.6.İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti**

Universitetdə qarşılıqlı əlaqənin təmin olunması məqsədilə idarəetmə oraqanları arasında əlaqə mövcuddur. Aidiyyatı şəxslər tərəfindən kommunikasiyaların qurulması, məlumatların ötürülməsi, mübadiləsi və s. təmin olunur.

**5.1.7.İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti**

Universitetin idarəetmə orqanlarında işlərin optimal idarə olunması üçün müxtəlif səlahiyyət və vəzifə bölgülərinin aparılması nəzərdə tutulmuşdur. Belə ki, Universitetin Elmi Şurasında müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərən komissiyalar mövcuddur. Bu işləri həyata keçirmək üçün Tədris komissiyası, Elm komissiyası, Etika və İntizam komissiyası, Maliyyə və iqtisadiyyat komissiyaları fəaliyyət göstərir.

**5.1.8.İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti**

Universitetdə idarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin təkmilləşdirilməsi üzrə işlər görülməkdədir. Universitetin Elmi Şurasında müvafiq şöbə, fakültə, kafedralarının fəaliyyətini əks etdirən hesabatların dinlənilməsi təmin edilir. Onların fəaliyyəti müzakirə edilir və müvafiq qərarlar qəbul olunur.

**5.1.9.İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti**

Lənkəran Dövlət Universitetində idarəetmə orqanlarının fəaliyyətinin şəffaf şəkildə təşkili üçün ilk növbədə orada təmsil olunan şəxslərin bilik, bacarıq və vərdişlərinin səviyyəsi nəzərə alınır. Hər sahənin spesifik xüsusiyyətləri nəzərə alınaraq orada fəaliyyət göstərəcək kadrlar seçilir. Müasir dövrün tələbləri nəzərə alınaraq İdarəetmə orqanlarının davamlı təkmilləşdirilməsi prosesi həyata keçirilir.

*5.2. İnsan resurslarının idarə edilməsi*

**5.2.1. ATM-də işə qəbul prosedurunun mövcud olması, səffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti**

Lənkəran Dövlət Universitetinin (LDU) “İnsan Resursları və Kargüzalıq” şöbəsi (İRKŞ) öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarını, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərar və Sərəncamlarını, Azərbaycan Respublikasının Əmək məcəlləsini, Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimatı, Azərbaycan Respublikasının müfaviq qanunlarını və normativ-hüquqi aktlarını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin əsasnaməsini, Nazirliyin Kollegiyasının qərarlarını, Azərbaycan Respublikası Təhsil Nazirinin əmr və sərəncamlarını, Universitetin Nizamnaməsini və onun fəaliyyətini tənzimləyən digər normativ-hüquqi aktları, habelə şöbənin əsasnaməsini rəhbər tutaraq şöbənin işini təşkil edir.

Cənab Prezident İlham Əliyevin müvafiq illər üzrə minimum aylıq əmək haqqının artırılması haqqında sərəncamlarına, yeni tədris və yataqxana korpuslarının istifadəyə

verilməsi və tədris ilində tələbə qəbulunun nəticələrinə əsasən dərs yükünün dəyişdirilməsi, universitetə perspektivli kadrların, o cümlədən, professor və müəllimlərin işə qəbulu zamanı ixtisasının mənimsəmə səviyyəsini, qanunvericilik, intizam qaydaları və zəruri olan digər normativləri düzgün qiymətləndirmək məqsədilə 20 noyabr 2017-ci il tarixli 1/164 nömrəli əmrə əsasən yaradılmış "Müsahibə komissiyası"nın tərkibi 2 sentyabr 2019-cu il tarixinli 1/68, 2 oktyabr 2022-ci il tarixli 1/165 nömrəli əmrlərlə dəyişdirilmişdir.

Lənkəran Dövlət Universiteti üzrə yaranmış vakansiya yerlərinə işə qəbul üçün müraciətlərə əsasən müvafiq tarixlərdə Müsahibə komissiyası, o cümlədən Elmi şura tərəfindən qiymətləndirilmiş mütəxəssislər cəlb edilir. Elmi şura və Müsahibə komissiyasının işi müvafiq şəkildə protokollaşdırılır. Əmək qanunvericiliyinə, LDU-əsasnaməsinə, təlimat və qaydalara, rektorun əmrlərinə müvafiq olaraq işçilərin qəbulunun vaxtında rəsmiləşdirilməsi həyata keçirilir.

**5.2.2.ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması**

Lənkəran Dövlət Universitetinin akademik və inzibati heyəti onun strateji inkişaf planına uyğun şəkildə tənzimlənir. Onlara əməkhaqqı və digər əlavələrin ödənilməsi universitrtin maliyyə resurslarına proporsional şəkildə həyata keçirilir.

**5.2.3.ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması**

Lənkəran Dövlət Universitetində işçilərə əmək haqqının ödənilməsi müvafiq qanunvericiliyə uyğun olaraq ödənilir. İşçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq təsdiq olunmuş ştat cədvəlinə uyğun olaraq əmək haqqı sistemi tətbiq edilir.

**5.2.4.ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması**

Əmək funksiyasını yüksək peşəkarlıq səviyyəsində yerinə yetirən, intizam qaydalarına əməl edilməsində fərqlənən əməkdaşların mükafatlandırılması, rəğbətləndirilməsi, təltif edilməsi müvafiq sərəncamlar və əmrlər vasitəsilə aparılır. Milli və dünyəvi bayram günləri ilə əlaqədar universitet əməkdaşlarının mükafatlandırılması prosesi sistemli həyata keçirilir. Həmçinin təlim-tədris işinin təşkili və aparılmasında, universietin tədris korpuslarının genişləndirilməsində və tapşırılan digər işlərin yerinə yetirilməsində peşəkarlığı və intizamı ilə fərqlənən əməkdaşlar müvafiq olaraq Azərbaycan Respublikasının Əmək məcəlləsinin 185-ci maddəasına əsasən rəğbətləndirilirlər.

**5.2.5.ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti**

Lənkəran Dövlət Universitetinin Elmi şurasının İntizam Komissiyası tərəfindən mütəmadi olaraq şöbə və struktur bölmələrdə manitorinqlər aparılır. Monitorinqlərin nəticələrinə əsasən işçilərin fəaliyyəti qiymətləndirilir.

**5.2.6.ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti**

LDU-nun "Xarici dillər və tərcümə", "Maliyyə idarəetməsi və audit", "Tarix və onun tədrisi metodikası" kafedralarının müəllimlərinin Rumuniya və Türkiyə Cümhuriyyətində, "Baytarlıq və Aqrar elmlər" kafedrasının müəllimləri Gürcüstan Respublikasında təcrübə mübadiləsində iştirak etmişlər. Həmçinin Türkiyə Cümhuriyyətinin Kars-Kafkas Universitetinin professor-müəllim heyyəti 2021/2022-ci illərdə LDU-da tələbələrə dərs keçmiş və hal hazırda LDU müəllimlər arasında təcrübə mübadiləsi apararaq elmi-tədqiqat və pedaqoji biliklər paylaşırlar.

Lənkəran Dövlət Universitetinin tərəfdaş olduğu universitetlər və onların koordinatorluq etdiyi layihələr çərçivəsində əməkdaşlar ixtisasartırma və peşəkarlıq səviyyəsinin

artırılması məqsədilə müxtəlif təlimlərə cəlb edilirlər. Ali təhsildə potensialın gücləndirilməsi Erasmus+ layihəsi çərçivəsində Beynəlxalq Əməkdaşlıq Şöbəsi əməkdaşları, o cümlədən akademik heyət nümayəndələri müxtəlif təlimlərdə, professor-müəllim mübadiləsində iştirak edirlər.

"Texnologiya və texniki fənlər" kafedrasının baş müəllimi Rusiya Federasiyasının Tomsk şəhərində "Texnoanalit elm istehsalat mərkəzi"ndə təcrübə keçmişdir. Maliyyə və mühasibat şöbəsinin müdiri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən Təhsil Nazirliyinin və tabe təşkilatlarının müvafiq əməkdaşlarına "Dövlət Satınalmaların təşkili" mövzusunda təlimdə iştirak etmişdir.

LDU Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor Azərbaycanda Rektorlar Konfransının yaradılması (ECAR) qrant layihəsi çərçivəsində Bakı mühəndislik Universitetində "Dəyişikliklərin idarə edilməsi-2 Transformasional tədris və təlim" mövzusunda, "Pedaqogika, psixologiya və incəsənət fənləri", "Tarix və onun tədrisi metodikası", "İbtidai təhsil və məktəbəqədər təlim" kafedralarının müəllimləri Bakı şəhəri Regional İnkişaf İctimai Birliyində keçirilən "Gender yönümlü pedaqogika" adlı təlimdə iştirak etmişlər.

LDU-nun Elm və innovasiya məsələləri üzrə prorektoru Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar 2022-ci il yol xəritəsi" adlı təlimdə iştirak etmişdir.

Lənkəran Dövlət Universitetində müvafiq akademik məsləhətçilərin seçilməsi məqsədilə tyutor hazırlıq kursu təşkil edilir.

**5.2.7.ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti**

LDU-da mədəni, ictimai, vətənpərvərlik tərbiyəsini daim önə çəkən, ölkəmizə, dünyamıza sülh və əmin-amanlıq arzulayan, Lənkəran şəhərinin sosial, iqtisadi, mədəni inkişafına daima öz dəyərli töhfəsini verən tədbirlər, bayramlar, görüşlər keçirilir. Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və yeni il tədbiri, Azərbaycanın ərazi bütövlüyü, vətənin müstəqilliyi, torpaqlarımızın azadlığı uğrunda canlarından keçən 20 Yanvar şəhidlərinin anım günü, 8 Mart Beynəlxalq Qadınlar günü, Novruz bayramı, 28 May Azərbaycan Demokratik Respublikasının qurulması, 15 iyun Milli Qurtuluş günü, 26 iyun Silahlı Qüvvələr günü, Qurban bayramı ilə əlaqədar keçirilmiş tədbirlər, mükafatlandırmalar, Dərs ilinin yekunu ilə əlaqədar kollektiv gəzinti, Məzun günü, 15 sentyabr Bilik günü, Dövlət Müstəqilliyi günü, 8 Noyabr Zəfər günü, Bilik yarışları, İdman yarışları, Musiqi festivalı, Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbirlər, Kolektiv teatra baxış, adlı təqaüdlərin təltifi, Müharibədə iştirak etmiş həmkarların ailələri ilə görüşlər təşkil edilir.

**5.2.8.Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti**

Qeyri-akademik heyətə (inzibati, texniki və köməkçi işçilər) aid müraciətçilərin işə qəbulu prosesi Müsahibə komissiyasının qiymətləndirilməsi ilə aparılır. Əmək qanunvericiliyinə, LDU-əsasnaməsinə, təlimat və qaydalara, rektorun əmrlərinə müvafiq olaraq işçilərin qəbulu rəsmiləşdirilməsi həyata keçirilir.

**5.2.9.Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti**

Lənkəran Dövlət Universitetində qeyri-akademik heyətin fəaliyyəti daxil olan şöbə və struktur bölmələrdə Elmi şuranın intizam komissiyası tərəfindən mütəmadi olaraq monitorinqlər aparılır.

**5.2.10. Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti**

Lənkəran Dövlət Universitetinin İnsan Resursları və Kargüzalıq şöbəsi Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikası Prezidentinin Fərman və

| |
|---|
| Sərəncamlarını, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərar və Sərəncamlarını, Azərbaycan Respublikasının Əmək məcəlləsini, Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimatı, Azərbaycan Respublikasının müfaviq qanunlarını və normativ-hüquqi aktlarını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin əsasnaməsini, Nazirliyin Kollegiyasının qərarlarını, Azərbaycan Respublikası Təhsil Nazirinin əmr və sərəncamlarını, Universitetin Nizamnaməsini və onun fəaliyyətini tənzimləyən digər normativ-hüquqi aktları, habelə şöbənin əsasnaməsini rəhbər tutaraq rektorun əmrlərinə müvafiq olaraq işçilərin işə qəbulu, başqa vəzifəyə keçirilməsi və işdən azad edilməsinin rəsmiləşdirilməsi prosesini həyata keçirir. |

5.3. *Maliyyə resurslarının idarə edilməsi*

| |
|---|
| **5.3.1. ATM-in maliyyə reurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi-tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu**<br>Lənkəran Dövlət Universiteti maliyyə resursları mənbələrini nizamnaməyə uyğun təşkil edir. Dövlət büdcəsindən maliyyələşən tələbələrin təhsil haqqısı Nazirlər Kabinetinin 2010-cu il tarixli 120 nömrəli qərarına əsasən hər bir təhsilalana düşən illik təhsil xərcinə uyğun hesablanır. Azərbaycan Respublikasının qanununa əsasən dövlət sifarişi və aşağıda qeyd olunan kateqoriyalarına uyğun olan tələbələrin təhsil haqqı Dövlət büdcəsi hesabına ödənilir.<br>I. Azərbaycan Respublikasının Prezidentinin “Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi haqqında” 14 sentyabr 2011-ci il tarixli Sərəncamına əsasən məcburi köçkün statusu olan Azərbaycan Respublikası vətəndaşları illik təhsil haqqı ödənişindən azad edilirlər.<br>II. “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” 22 iyun 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu (maddə 5) və "Təhsil haqqında” Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli Qanununa (maddə 14-8-1) əsasən aşağıdakı kateqoriyalara aid olan ən çoxu 23 yaşınadək şəxslər illik təhsil haqqı ödənişindən azad edilirlər.<br>III. Azərbaycan Respublikasının Prezidentinin “Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil müddəti ərzində təhsil haqqı xərcləri 2019/2020-ci tədris ilindən etibarən dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi haqqında” 3 may 2019-cu il tarixli Sərəncamına əsasən bu kateqoriyalardan olan şəxslər illik təhsil haqqı ödənişindən azad edilirlər.<br>IV. Azərbaycan Respublikasının Prezidentinin “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında” 18 mart 2014-cü il tarixli Sərəncamına əsasən 2014/2015-ci tədris ilindən etibarən həmin şəxslərin təhsil alan övladları illik təhsil haqqı ödənişindən azad edilirlər.<br>IV.I. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş vətəndaşların övladları:<br>IV.II. Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların övladları (Şəhidlərin övladları):<br>Ödənişli təhsil qəbul planı verilərkən hər ixtisas üzrə təhsil haqqı müəyyən olunur. Akademik borc üzrə hesablamada hər bir kredit üzrə təhsil haqqı, illik təhsil haqqı |

semestr üzrə nəzərdə tutulan kreditə bölməklə hesablanır.
Universitet müxtəlif qrant layihələrində iştirak edir və bu da qarşılıqlı müqaviləyə əsasən nizamlanır.

**5.3.2.Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi**

Lənkəran Dövlət Universitetində hər il büdcə tərtib olunarkən növbəti ilin maliyyə resursları planlaşdırılır.

**5.3.3.Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti**

Maliyyə resurslarının cəlb edilməsi və istifadəsi ilə bağlı hər il illik büdcə smetası tərtib olunur, buna nəzarəti Elmi Şurada yaradılmış nəzarət komissiyası həyata keçirir.

**5.3.4.Əlavə maliyyə resurslarının əldə etmək imkanlarının vəziyyəti**

Lənkəran Dövlət Universiteti bir sıra qrantlarda iştirak edir. Amma gəlir əsasən təhsil haqqından formalaşır, şəffaf və keyfiyyətli təhsilin təşkili nəticəsində tələbələrin sayının artırılması Universitetin maliyyə resurslarının cəlb olunmasına təkan verir.

**5.3.5.Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi**

Əldə olunan maliyyə resursları il ərzində təsdiq olunmuş smetaya uyğun şəffaf şəkildə icrası təmin olunur və nəzarəti Elmi Şurada yaradılmış nəzarət komissiyası həyata keçirir.

**5.3.6.Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu**

Maliyyə resursları Lənkəran Dövlət Universitetinin nizamnaməsinə uyğun, tədris və elmi işlərin təşkil olunmasına sərf olunur.

**5.3.7.Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu**

Hər il dekabr ayında növbəti təqvim ilinin gəlir və xərclər smetası Elmi Şurada müzakirə olunur və razılaşdırma üçün yanvar ayında təsdiq olunaraq Təhsil Nazirliyinə təqdim olunur. Təsdiq olunmuş, razılaşdırılmış smetanın bir nümunəsi banka təqdim olunur. Smeta Nizamnaməyə uyğun tərtib olunur.

**5.3.8.Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi**

Maliyyə resurslarından təyinatı üzrə istifadə olunur.

**5.3.9.Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti**

Malların alınması, işlərin görülməsi və xidmətlərin həyata keçirilməsi "E-Tender haqqında" qanuna əsasən satınalma proseduruna uğun təşkil olunur.
Lənkəran Dövlət Universitetində satınalma proseduru daha çox iki üsul ilə aparılır Açıq Tender və və kotirovka üsulu ilə Kotirovka və Açıq tender proseduru – Lənkəran Dövlət Universitetinin rəhbərliyi tərəfindən hər ilin yanvar ayında tender komissiyasının yaradılması ilə bağlı əmr imzalanır və bu əmrə əsasən tender elanı verilməsi üçün açıq tender protokolu tərtib edilir, bütün komissiya üzvləri tərəfindən imzalandıqdan sonra tenderin şərtlər toplusu hazırlanır və etender.gov.az elektron portalında elan verilir əlavə olaraq Azərbaycan qəzetində də elan bağlı məlumat verilir. Müvafiq satınalma proseslərindən sonra tenderdə iştirak etmiş şirkətlərin təklifləri tender komissiyası tərəfindən qiymətləndirilir və şərtlər toplusunda qeyd olunan tələblərə uyğun olan şirkət qalib seçilir. Açıq tender prosedurunun yekun protokolu Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Yanında Antiinhisar və İstehlak Bazarına Dövlət Nəzarat Xidmətinə göndərilir. ARİNAİBDNX tərəfindən 15 iş günü ərzində məsələyə baxılır və Azərbaycan Respublikası Dövlət Satınalmaları haqqında qanuna əsasən müqavilə baglanması ilə bağlı məktub göndərilir. Qalib seçilən təşkilat ilə müqavilə bağlanıldıqdan sonra etender.gov.az portalına yerləşdirilir.

**5.3.10.Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti**

Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə əməliyyatlar

qanunvericiliyə uyğun uçotu aparılır.

**5.3.11.Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti**

Maliyyə və mühasibat hesabatları nəzərdə tutulan qrafik üzrə aylıq, rüblük və illik təqdim olunaraq aidiyyatı üzrə qurumlara elektron formada təqdim edilir.

**5.3.12.Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti**

Maliyyə və mühasibat hesabatlarının aidiyyatı orqanlara tələb olunan qaydada təqdim olunur.

**5.3.13.Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu**

Maliyyə resurslarının əldə edilməsi üçün daxili auditin nəzarəti Elmi Şurada yaradılan nəzarət komissiyası həyata keçirir.

**5.3.14.Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu**

Tələb olunan hesabatlara əsasən aidiyyatı qurumlara hesabat təqdim edilir.

**5.3.15.Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti**

Maliyyə resursları əsasən tələbələrin təhsil haqqı hesabına formalaşır. Universitetdə tələbə sayının artırılması ilə əlaqədar, tədrsin keyfiyyətinin yüksəlməsi üçün professor-müəllim heyətinin əmək haqqlarının artırılması və Universitetin maddi və texniki bazanın formalaşdırılması istiqamətində işlər həyata keçirilir.

*5.4. İnformasiya idarəetmə sistemi*

**5.4.1. ATM-də informasiya idarəetmə sisteminin, onun hüquqi əsaslarının və reqlamentinin mövcudluğu**

Lənkəran Dövlət Universitetində İKT-dən idarəetmə proseslərinin elektronlaşdırılması məqsədi ilə geniş istifadə edilir. Belə ki, 2016-cı ildən Elektron Universitet (https://e.lsu.edu.az/php/login.php) layihəsinin yaradılmasına start verilmiş və sistem uğurla tətbiq edilməkdədir. Layihə çərçivəsində universitetdə dərs deyən professor-müəllim heyətinin, təhsil alan tələbələrin və tədris olunan fənlərin ORACLE bazası və bu bazaların əsasında elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının elektron idarə olunması sistemləri yaradılmışdır. Tələbələrin tədris fəaliyyəti və imtahan prosesinin gedişi onların şəxsi kabinetində öz əksini tapır.

Hazırda sistemin daha da genişləndirilməsi məqsədlə yaradılmış işçi qrupun elektron sənəd dövriyyəsi (lokal şəbəkədə), əmək haqlarının hesablanması sistemi (lokal şəbəkədə), elmi jurnallara göndərilən məqalə və tezislərin qəbulu, qeydiyyatı və cavablandırılması üçün elektron sistem, (https://technoagrarian.lsu.edu.az/index.php), (https://lsu.edu.az/new/Elmi-jurnallar.php) tələbə ödənişlərinə nəzarət sistemi və elektron kitabxana və kataloq sistemi (https://lsu.edu.az/new/LSU-Library/) və s. tələbə və əməkdaşların xidmətindədir. Bunlardan əlavə, pandemiya dövründə onlayn dərslərin təşkili MS Teams proqramı üzərindən aparılmış və imtahan sessiyalarının keçirilməsi üçün LDU İKTK mərkəzi tərəfindən yaradılmış onlayn imtahan sistemi uğurla tətbiq edilmişdir.

**5.4.2.İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti**

LDU-da tətbiq olunan E-universitet, E-sənəd dövriyyəsi, E-mühasibatlıq, E-kitabxana və Elmi nəşrlər üçün hazırlanıb tətbiq olunan sistemlər universitetin demək olar ki, bütün struktur bölmələrinin şaquli və üfüqi idarə olunmasının avtomatlaşdırılması üçün geniş

imkanlar yaratmışdır. Hazırda həmin sistemlərin qarşılıqlı əlaqələndirilməsi işinin daha da təkmilləşdirilməsi, müxtəlif təyinatlı server kompüterlərin sazlanması, onların proqram və texniki təminatının və bölmələr üzrə elektron bazaların daimi yenilənməsi və müşayiəti məqsədi ilə işlər davam etdirilir.

**5.4.3. İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu**

Ümumiyyətlə LDU-da İKT vasitələrindən əsasən 2 istiqamətdə istifadə olunur: Kargüzarlıq və idarəetmə işlərinin avtomatlaşdırılması və sırf tədris məqsədləri üçün. Hər iki istiqamət üzrə bütün bölmələrdə İKT-dən istifadə zamanı yarana biləcək problemlərin dərhal və yerində həll olunması məqsədi ilə ixtisaslı mütəxəssislər ayrılmış, universitetin bir-birindən uzaq məsafədə yerləşən binalarının internetlə normal təmin olunması məqsədi ilə yaradılmış optik intranet şəbəkədə informasiya mübadiləsinin fasiləsiz və düzgün aparılması məqsədi ilə əməkdaşlardan birinə şəbəkə administratoru səlahiyyəti verilmişdir.

**5.4.4. Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti**

LDU-da 2016-cı ildən Elektron Universitet (https://e.lsu.edu.az/php/login.php) layihəsinin yaradılmasına start verilmiş və sistem uğurla tətbiq edilməkdədir. Layihə çərçivəsində universitetdə dərs deyən professor-müəllim heyətinin, tədris olunan fənlərin, təhsil alan tələbələrin ORACLE üzərindən elektron bazası və bu bazaların əsasında elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının elektron idarə olunması sistemləri yaradılmışdır. Tələbənin tədris fəaliyyəti və imtahan prosesinin gedişi onların şəxsi kabinetində öz əksini tapır. Hazırda sistemin daha da genişləndirilməsi məqsədilə yaradılmış işçi qrupun elektron sənəd dövriyyəsi (lokal şəbəkədə), əmək haqlarının hesablanması sistemi (lokal şəbəkədə), elmi jurnallara göndərilən məqalə və tezislərin qəbulu, qeydiyyatı və cavablandırılması üçün elektron sistem, tələbə ödənişlərinə nəzarət sistemi və elektron kitabxana və kataloq sistemi və s. tələbə və əməkdaşların xidmətindədir.

**5.4.5. İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi**

Universitetdə dərs deyən professor-müəllim heyətinin, tədris olunan fənlərin, təhsil alan tələbələrin ORACLE üzərindən elektron bazası və bu bazaların əsasında elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının elektron idarə olunması sistemləri yaradılmışdır. Tələbənin tədris fəaliyyəti və imtahan prosesinin gedişi onların şəxsi kabinetində öz əksini tapır. Hazırda sistemin daha da genişləndirilməsi məqsədlə yaradılmış işçi qrupun elektron sənəd dövriyyəsi (lokal şəbəkədə), əmək haqlarının hesablanması sistemi (lokal şəbəkədə), elmi jurnallara göndərilən məqalə və tezislərin qəbulu, qeydiyyatı və cavablandırılması üçün elektron sistem, tələbə ödənişlərinə nəzarət sistemi və elektron kitabxana və kataloq sistemi və s. tələbə və əməkdaşların xidmətindədir.

**5.4.6.İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi**

Yuxarıda adları çəkilən idarəetmə sistemləri həm tədrisin aparılmasında, həm də inzabati idarəetmə strukturlarının işinin təşkilində çox böyük rolu vardır və universitetin idarəolunmasına yaxşı töhvə verir.

**5.4.7.İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi**

Hələki LDU-da istifadə olunan İnformasiya idarəetmə sistemlərinin digər qurumlara inteqrasiya məsələlərinə baxılmaqdadır.

**5.4.8.İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti**

Hazırda LDU-nun İnformasiya İdarəetmə sistemlərinin təhlükəsizliyinin qorunması, informasiyaların məxfiliyinin və etibarlılığının təmin olunmasını qənaətbəxş hesab etmək olar.

*5.5. İctimaiyyətlə əlaqələr*

**5.5.1. ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti**

LDU-nun rəsmi saytı mövcuddur və hazırda www.lsu.edu.az domen adı ilə internet üzərindən yayımlanır. Sayt universitet üzrə bütün struktur bölmələrin vəziyyətini, universitetin tədris, elmi, inzibati təsərrüfat, beynəlxalq, insan resursları, kitabxana, elmi konfrans, seminar və simpoziumlar, gündəlik xəbərlər və s. sahələr üzrə ictimaiyyəti maraqlandıran sahələri işıqlandırmaqda davam edir. Bundan əlavə LDU-nun facebook, instagram və youtube səhifələri də mövcuddur və onların daimi aktiv olması üçün mütəmadi iş aparılır.

**5.5.2. ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti**

Universitetin rəsmi saytında (https://lsu.edu.az) məlumatların dəqiq, aktual olmasına, mütəmadi yenilənməsinə mətbuat xidmətinin rəhbəri və universitet rəhbərliyi daim nəzarət edir. Bu zaman jurnalistikanın əsas prinsipləri (dəqiq, tərəfsiz, qərəzsiz) qorunur. Həmçinin, forma və məzmun vəhdəti əsas götürülür. Foto və video materiallardan geniş istifadə edilir.Təhsil yönümlü xəbərlərlə yanaşı, vətənpərvərlik mövzusunda olan informasiyalara, paylaşımlara da böyük diqqət yetirilir, universitetin şəhid məzunları haqqında silsilə yazılar verilir.

**5.5.3. ATM-in ictimaiyyəti məlumatlandırılması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti**

Lənkəran Dövlət Universitetində mətbuat xidmətinin əsas vəzifəsi informasiya siyasətini günün tələbləri səviyyəsində qurmaq, geniş əhatə dairəsi yaratmaqla daha çox izləyici əldə etməkdir. Bu məqsədlə qurumun bütün sosial şəbəkələrdə informasiya fəaliyyəti təşkil edilib. Votcap, facebook, tvitter, instaqram, youtube və s. sosial şəbəkələr vasitəsilə daim LDU-nun elmi, təhsil və ictimai həyatında baş verən yenilklər əksini tapır.Həmçinin ölkənin aparıcı KİV-də universitetlə bağlı video materiallar, xəbərlər yayımlanır. AZTV, İTV, Space tv, Xəzər, ARB, APA Tv-də, Modern.az, Azedu.az, Azadmedia.az, Muallim.az, Azpost.info, Metbuat.az, Mektebguşesi.az, Qafqazinfo, 525-ci qəzet, Kaspi.az və s.media orqanları ilə daimi əməkdaşlıq edilir. Qeyd edək ki, informasiyanın əlçatanlığını təmin etmək məqsədi ilə media nümayəndələri, yaradıcı insanlar, oxucular, tələbələr və onların valideynləri ilə mütəmadi görüşlər keçirilir.

**5.5.4. ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planın olması vəziyyəti**

Hər ilin əvvəlində universitetin digər qurumları kimi ictimaiyyətlə əlaqələr və mətbuatla iş xidməti aylıq, rüblük, illk iş planını hazırlayır. Bu planda il ərzində universitetdə keçiriləcək elmi konfranslar, dövlət əhəmiyyətli tədbirlər, milli bayramlar, məzun yarmarkaları, imtahan sessiyalarının təşkili, vətənpərvərlik mövzusunun işıqlandırılması və s.əksini tapır.

**5.5.5.ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti**

Lənkəran Dövlət Universitetinin ictimaiyyətlə əlaqələr və mətbuatla iş xidmətinin operativ fəaliyyəti hər ilin sonunda müxtəlif media qurumları arasında keçirilən sorğularda - (Azedu.az, Modern.az, Mektebguşesi.az, Tehsil.biz, Metbuat.az və s.) dəfələrlə təqdir olunmuş, bu barədə müsbət fikirlər yazılmışdır. Nüfuzlu media orqanlarının keçirdiyi sorğularda həmişə LDU-ya da yer ayrılmış və sorğular operativ cavablandırılmışdır. Xidmət rəsmisi sosial şəbəkələrdə işin modern təşkilinə görə

nazirliyin “Təşəkkürnamə”sinə layiq görülmüşdür. Həmçinin ictimaiyyətlə əlaqələri genişləndirmək, universitetdə görülən işlərin əhali arasında təbliği və obyektiv qiymətləndirilməsi məqsədi ilə “İctimai şura” yaradılmışdır.

**5.5.6.ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti**

Medianın əsas vəzifəsi yenilənən zamanla ayaqlaşmaq, operativliyi və informasiyanın keyfiyyətli təqdimini həyata keçirməkdir. Bu məqsədlə bütün mümkün variantlardan, sosial şəbəkələrin gücündən, modern üsullardan istifadə edilir. Hədəf LDU-nun oxucu aiditoriyasını mümkün qədər genişləndirmək, informasiyaları hamı üçün əlçatan etməkdir.

## 6. İNFRASTRUKTUR

### *6.1. Tədris infrastrukturu*

**6.1.1.Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti**

Universitetin **Maddi texniki bazanın gücləndirilməsi** istiqamətində son illər xeyli işlər görülmüşdür. Belə ki, 2016-cı ildə 5 mərtəbəli bina əsaslı təmir olunaraq tədrisə yararlı vəziyyətə gətirilmişdir. 2018-ci ildə Universitetin 2 saylı tədris binasının ərazisində 100 nəfərlik **tələbə yeməkxanası** tikilib istifadəyə verilmişdir. 2019-cu ildə universitetin **1 saylı tədris binasına** bitişik 4 mərtəbəli yeni **tədris binası** tikilmiş, eyni zamanda yeni **3 saylı tədris binası** və müasir tipli 160 nəfərlik **yataqxana binası** tikilərək istifadəyə verilmişdir. Binanın həyətyanı sahəsində suni ot örtüklü **idman meydançası** yaradılmışdır. 2021-ci ildə Universitetin **Elmi kitabxana kompleksi** əsaslı təmir olunmuşdur. Burada müasir tələblərə cavab verən 100 nəfərlik **oxu zalı**, 300 nəfərlik **konfrans zalı, Elektron kitabxanaya giriş** üçün rahat şərait yaradılmışdır. Eyni zamanda kitabxana fondunun zənginləşdirilməsi istiqamətində işlər görülmüşdür. Son ildə universitetin **2 saylı tədris binasının həyətində** 5 mərtəbəli yeni **tədris binası** tikilmiş və istifadəyə verilmişdir. **Qeyd edək ki,** yeni tikilən və əsaslı təmir olunan bütün binalar yeni zərüri avadanlıq və mebellə təchiz edilmişdir.

**Professor-müəllim heyətinin mobilliyini** təmin etmək məqsədilə Respublikada ilk dəfə olaraq **18 ədəd xidməti mənzil** (7 mənzil- 1 otaqlı, 8 mənzil- 2 otaqlı, 3 mənzil- 3 otaqlı) zərüri avadanlıqlarla birlikdə digər yerlərdən dəvət olunan şəxslərin istifadəsinə verilmişdir**.**

Universitetdə **aqrar ixtisaslar** üçün 2,5 hektarlıq **Tədris-təcrübə sahəsində** çoxlu sayda sitrus bitkiləri (çay, müxtəlif tərəvəz və bostan bitkiləri) əkilmiş, **bitki mühafizəsi, aqronomluq** ixtisasları üçün 2 **yeni istixana** tikilərək təcrübə üçün tələbələrin istifadəsinə verilmişdir**. Turizm və otelçilik və Qida mühəndisliyi** ixtisaslarının tələbələrinin təcrübə keçmələri üçün Universitetin balansında olan təmirsiz bina rekonstrukturizasiya olunaraq 35 yerlik **Otel-ə** çevrilmişdir**.**

**6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti**

Hazırda Kitabxana fondunda müxtəlif xarici dillərdə elmi, dərslik və dərs vəsaitlərinin sayı 12265 ədəddir. Onlardan rus dilində 10811, ingilis dilində 1150, alman dilində 56, fransız dilində 73, ərəb dili 54, fars dili 49, türk dili 60 ədəd, digər dillərdə 12 nüsxə ədəbiyyatdır. Kitabxanada 2018-ci ilin əvvəlində 12151 xarici dillərdə kitab mövcud olmuşdur. 2018-cı ildə 48 kitab alınmış və bu say 12199 ədədə yüksəlmişdir. 2019-cu ildə 16 kitab alınmış və bu say 12542 olmuşdur. 2020-ci ildə 5 kitab alınmış və bu say 12547 olmuşdur. 2021-ci ildə 22 kitab alınmiş və 12242-yə çatmışdır. 2022-ci ildə 23 kitab alınmış və bu say 12265 ədəd olmuşdur. 2021-ci ildə LDU nin Elmi Kitabxanası əsaslə təmir və bərpa edilərək yenidən istifadəyə verilmişdir.

**6.1.3. Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti**

Universitetdə təchiz olunmuş tədris laboratoriyaları, idman və akt zalı, təhsilalan və təhsilverənlər üçün mebel avadanlığı, informasiya-kommunikasiya texnologiyaları, audio-vizual avadanlıqlar, tədris-əyani vəsaitləri, təlimin texniki vəsaitləri, dərslik və elmi-bədii ədəbiyyat fondu mövcuddur.

**6.1.4. Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti**

Lənkəran Dövlət Universitetində Elmi-tədqiqat işlərinin aparılmasında istifadə edilən avadanlıq və cihazların maddi texniki təminatı daim diqqət mərkəzində saxlanılır. Universitetində Elmi-tədqiqat işlərinin aparılması məqsədi ilə Aqrar və mühəndislik fakültəsində 2018-ci ildə "Qida təhlükəsizliyi", "Baytarlıq cərrahiyyəsi" və "Torpaqşünaslıq" kimi laboratoriyalar yaradılmış və həmin laboratoriyalar BioBase firmasının müasir avadanlıqları ilə təchiz olunmuşdur. 2018-ci ildən həmin laboratoriyalarda bir çox Elmi-tədqiqat işlərinin icrası həyata keçirilmişdir. Aqrar istiqamət üzrə təhsil alan tələbələrin nəzəri biliklərinin təcrübədə həyata keçirilməsi üçün universitetin 1 saylı tədris korpusunun ərazisində 3 hektara yaxın sahədə tədris təcrübə sahəsi yaradılmış və burada bölgə üçün xarakterik olan bitkilərindən (çay, narıngi, portağal, limon, kivi) başqa, həm də tərəvəz, bostan və taxıl bitkiləri də əkilmişdir.
Yaxın gələcəkdə "Baytarlıq klinikası"nın fəaliyyətə başlaması nəzərdə tutulmuşdur.
LDU Təbiyyat fakültəsində fəaliyyət göstərən "Kimya və biologiya müəllimliyi" və "Ekologiya" ixtisaslarının laboratoriya dərslərinin təşkil edilməsi üçün müasir stadartlara cavab verən PASCO rəqəmsal avadanlıqları ilə təmin edilmiş 2017-ci ildən "Biologiya tədris laboratoriyası" və "Kimya tədris laboratoriyası" yaradılmışdır. Bu laboratoriyalar həm müəllim hazırlığına istiqamətlənmiş  və həm də ilkin elmi tədqiqat işləri aparmağa imkan verən rəqəmsal laboratoriya avadanlıqları ilə təchiz olunmuşdur. "Biologiya tədris laboratoriyası"nda biologiyanın və ekologiyanın müxtəlif sahələrini əhatə edən laboratoriya işilərini bilavasitə aparmaq mümkündür. Eyni zamanda laboratoriyalar internet  və kompyuterlə təmin olunmuşdur ki, bunun vasitəsi PASCO firmasının bazasına daxil olub, laboratoriya işlərini virtual olaraq izləmək imkanı yaradır. Laboratoriya işlərinin aparılması üçün müxtəlif avadanlıqlarla təmin olunmuş  "Fizika tədris laboratoriyası"  2019 –cu ildə yaradılmışdır. Fizika laboratoriyası "Riyaziyyat informatika müəllimliyi", "Riyaziyyat müəllimliyi", "Texnologiya müəllimliyi", "Kimya və biologiya müəllimliyi", "Ekologiya"  ixtisaslarında tədris olunun "Ümumi fizika" və "Fizika" fənninə aid laboratoriya işlərinin, həmçinin fizika müəllimliyi ixtisasının ayrı ayrı bölmələrinə aid laboratoriya işlərini yerinə yetirmək, nümayiş təcrübələri aparmaq  üçün müasir cihaz və avadanlıqlarla təhciz olunmuşdur və laboratoriya işlərini yerinə yetirmək mümkündür. Həmçinin zamanda 2019-cu ildə "NARGİS" fondunun və "SAMSUNG" firmasının dəstəyi ilə fakültədə Samsung planşetləri (11 ədəd), "ağıllı lövhə", televizor və 3D formatlı telefonları (2 ədəd) ilə təmin olunmuş virtual laboratoriya yaradılmışdır. Bu tədris laboratoriyasından müxtəlif ixtisas qruplarında təhsil alan tələbələr istifadə edirlər. Fakültədə fəaliyyət göstərən "İnformatika" laboratoriyası 2020-ci ildən ABŞ-nın USAİD fondunun hesabına müasir standartlara cavab verən son model kompyuterlərlə (17 ədəd), "ağıllı lövhə" təmin olunmuşdur. Laboratoriyanın  internet şəbəkəsinə qoşulması beynəlxalq və respublika səviyyəli elmi kitabxanalara çıxışıda təmin etmişdir ki, buda tələbələrin dərsdən kənar vaxtda  bu laboratoriyadan istifadə etməsinə imkan yaratmışdır. "İnformatika" laboratoriyası "Riyaziyyat informatika müəllimliyi", "Riyaziyyat müəllimliyi", "Texnologiya müəllimliyi", "Kimya və biologiya müəllimliyi", "Fizika müəllimliyi, " "Ekologiya" ixtisaslarında İnformatika, İnformatika və təhsildə İKT, Proqramlaıdrma üsülları, Əməliyyatlar sistemi və kompyuter arxitekturası, Axtariş sistemləri, Kompyuter modelləşməsi və s fənlərin praktik məşğələlərinin tədrisi üçün təmin olunmuşdur. Eyni zamanda 1 saylı korpusda üç informatika tədris laboratoriyası, 2 saylı korpusda bir informatika tədris laboratoriyası, bir linqafon otağı, bir şifahi nitq laboratoriyası fəaliyyət göstərir.

**6.1.5.İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti**
Lənkəran Dövlət Universitetinin 1 saylı tədris binasının ərazisində aqrar yönümlü ixtisaslar üçün yardımçı təcrübə təsərrüfatı sahəsi ayrılmışdır. Təcrübə sahəsində istilikxana salınmış və bir sıra bitkilər becərilmişdir. İlkin olaraq Universitetin ərazisində aqrar ixtisaslar üçün tərəvəz və bostan bitkiləri əkilmişdir. Cənub bölgəsi üçün spesifik olan və gələcəkdə yaxşı gəlir vəd edən sitrusçuluq və çayçılığı inkişaf etdirmək məqsədi ilə Universitetin yardımçı təsərrüfatında sahəsində yaşıl çay bitkisi əkini aparılmış və sitrus ağacları alınmış və yaxın vaxtlarda əkilməsi gözlənilir.
Həmçinin Turizm yönümlü ixtisaslarda təhsil alan tələbələr üçün turizm təcrübə bazası fəaliyyət göstərir. Turizm təcrübə bazası Lənkəran rayon Sütəmurdov rayonu ərazisində yerləşir. 2018-ci ildən istifadəyə verilmişdir. 2 mərtəbədən ibarət olmaqla sahəsi 2123.00 kv. m-dir və 13 otaqdan ibarətdir.
**6.1.6. ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti**
Pandemiya dövründə universitet üzrə distant təhsil təşkil olunub. Hazırda distant təhsilə ehtiyac olmadığı üçün dərslər ənənəvi şəkildə keçirilir.
**6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti**
Hazırda LDU-da 6 minik 1 yük maşını fəaliyyət göstərir. Eyni zamanda Universitetin tədris binaları üzrə ictimai nəqliyyat fəaliyyət göstərir.
**6.1.8. Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti**
LDU-nun tələbələrinin hər bir tədris binasında yerləşən kitabxanalar, elmi kitabxana, laboratoriyalar, tədris-təcrübə bazalarından və s. infrastrukturundan istifadə etmələri üçün şərait yaradılmışdır.
**6.1.9. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti**
Lənkəran Dövlət Universitetində əlilliyi olan tələbələr üçün imkanlar yaradılmışdır. Universitetimiz bu sahədə yerli və avropa təcrübəsindən geniş istifadə edir.
Avropa ittifaqının maliyyələşdirdiyi Xəzər Universitetinin koordinator olduğu və Lənkəran Dövlət Universitetinin tərəfdaş olduğu ESFİDİP (Əlilliyi olan əşəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması) TEMPUS qrant layihəsi çərçivəsində Xəzər Universiteti, Lodz Universiteti, Makedoniya Universiteti, Qraz Universiteti, Gəncə Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Sumqayit Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Naxçıvan Dövlət Universiteti, Əmək və Sosial Problemlər üzrə Elmi Tədqiqat və Tədris Mərkəzi və Əlil Təşkilatları İttifaqının nümayəndələri birgə bu sahədə əməkdaşlıq etmişlər. Layihə çərçivəsində Lənkəran Dövlət Universitetində "Əlil tələbələr üçün mərkəz yaradılmış", mərkəz müasir avadanlıqlarla təchiz edilmiş, əlillərin tədris alması məqsədiylə 2 saylı tədris binasında onlar üçün panuslar, lift qurşdırılmış və digər lazımi avadanlıqlarla təchiz edilmişdir.
"Əlilliyi olan tələbələr üçün Mərkəz"in fəaliyyəti sağlamlıq imkanları məhdud tələbələrə aid məsələləri təşkil və idarə etməkdən ibarətdir. Mərkəzin əsas funksiyası əlilliyi olan tələbələrə təhsildə dəstək olmaq üçün onları məlumatlar və xidmətlərlə təmin etməkdən ibarətdir.
**6.1.10. Yeməkxanaların mövcudluğu vəziyyəti**
Hazırda LDU-da hər tədris binası üzrə olmaqla 3 yeməkxana fəaliyyət göstərir. Yeməkxanaların fəaliyyəti sanitar-gigiyena qaydalarına və dövlət standarlarına uyğundur.
**6.1.11. Yataqxanaların mövcudluğu vəziyyəti**
Lənkəran Dövlət Universitetində qızlar üçün 160 nəfərlik müasir tələblərə uyğun yataqxana mövcuddur. Tələbələr yataqxanada 1 otaqda 3 nəfər olmaqla bütün lazımi şəraitlə təmin olunublar. Hazırda oğlanlar üçün təqribən 300 nəfərin yerləşəcəyi müasir

tipli yataqxananın da təmirinə başlanılmışdır.
**6.1.12. Tibbi xidmətin mövcudluğu vəziyyəti**
Universitetdə tibbi xidmətin təşkili müvafiq qurmlara müraciət olunmuş, lakin bu məsələnin həlli ilə bağlı hələki müsbət nəticə əldə edilməmişdir.
**6.1.13. İT xidmətinin mövcudluğu vəziyyəti**
LDU-da 2016-cı ildən Elektron Universitet (https://e.lsu.edu.az/php/login.php) layihəsinin yaradılmasına start verilmiş və sistem uğurla tətbiq edilməkdədir. Layihə çərçivəsində universitetdə dərs deyən professor-müəllim heyətinin, tədris olunan fənlərin, təhsil alan tələbələrin ORACLE bazası və bu bazaların əsasında elektron dərs jurnalı, elektron dərs cədvəli, imtahan sessiyasının elektron idarə olunması sistemləri yaradılmışdır. Tələbənin tədris fəaliyyəti və imtahan prosesinin gedişi onların şəxsi kabinetində öz əksini tapır. Hazırda sistemin daha da genişləndirilməsi məqsədilə yaradılmış işçi qrupun elektron sənəd dövriyyəsi (lokal şəbəkədə), əmək haqlarının hesablanması sistemi (lokal şəbəkədə), elmi jurnallara göndərilən məqalə və tezislərin onlayn qəbulu, qeydiyyatı və cavablandırılması üçün elektron sistem, tələbə ödənişlərinə nəzarət sistemi və elektron kitabxana və kataloq sistemi və s. tələbə və əməkdaşların xidmətindədir.
**6.1.14.Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti**
Aktivlərin və öhdəliklərin inventarizasiyası Qaydalarına uyğun olaraq ildə bir dəfə Lənkəran Dövlət Universitetində aktivlərin və öhdəliklərin inventarizasiyası həyata keçirilir. Mövcud qaydalara uyğun olaraq müəyyənləşdirilmiş tələblər və müddətlər nəzərə alınaraq rəsmiləşdirilməklə inventarizasiyanın həyata keçirilməsi ilə bağlı tədbirlər görülür. İnventarizasiyanın yekun nəticəsi barədə cari ilin sonunadək Elm və Təhsil Nazirliyinə məlumat verilir. Universitetin maddi-texniki bazası mütəmadi yoxlanılır və tədris prosesinə uyğun təkmilləşdirilir.

*6.2. Elmi-tədqiqat infrastrukturu*

**6.2.1. Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti**
Elmi-tədqiqat və innovasiya mərkəzi ilə bağlı olaraq, Lənkəran Dövlət Universitetinin “İqtisadiyyat və innovativ idarəetmə” fakültəsində “İqtisadi araşdırmalar” laboratoriyası yaradılmışdır. Eyni zamanda Universitetdə innovasiya istiqamətində bir neçə mərkəzin yaradılması da planlaşdırılmışdır.
6.2.2
Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti
Bununla bağlı olaraq Lənkəran Dövlət Universitetində adları aşağıda qeyd olunan 3 laboratoriya qurulmuşdur:
— Qida təhlükəsizliyi laboratoriyası;
— Baytarlıq cərrahiyəsi laboratoriyası;
— Torpaqşünaslıq laboratoriyası.
Həmin laboratoriyalar Avropa ölkələrindən alınmış müasir avadanlıqlarla təhciz olunaraq Universitetin tələbə-müəllim heyyətinin istifadəsinə verilmişdir.

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

*7.1. Beynəlmiləlləşmə siyasəti*

**7.1.1. ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğunun vəziyyəti**

LDU-nin 2022-2030-cu illər üçün beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlliləşdirilməsi ilə bağlı inkişafı beynəlxalq akademik və peşəkar əməkdaşlıq, beynəlxalq təhsil xidmətləri bazarında aktiv iştirak, beynəlxalq simpozium və konfransların təşkili, eləcə də universitet əməkdaşlarının yüksək reytinqli beynəlxalq tədbir və konfranslarda iştirakının təmin edilməsi, əcnəbi tələbələrin və müvafiq ixtisaslar üzrə peşəkar kadrların cəlbi, beynəlxalq sərgilərdə fəal iştirak, beynəlxalq layihələr və proqramlar üçün kadr təchizatı əsasında iqtisadiyyatın biznes və sahibkarlıq, aqrar və hümanitar sahələrdə dünya səviyyəli bilik və kompetensiyaların inteqrasiyası və yayılmasını təmin edən bir elmi mərkəz-departament kimi nəzərdə tutur.

**7.1.2. Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti**

Lənkəran Dövlət Universitetinin beynəlxalq əlaqələrinə böyük önəm verilir. Universitet dünyanın bir sıra qabaqcıl ali məktəbləri ilə təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq edir. LDU Xəzəryanı Ölkələrin Universitetləri Assosiasiyasının, Avrasiya Universitetləri Assosiasiyanın və Qafqaz Universitetləri Assosiasiyasının fəal üzvüdür. Bu Assosiasiyalardan başqa LDU-nun dünyanın 50-ə dək Universiteti ilə təhsil və elmi əlaqələr saxlayır və bu barədə muvafiq ikitərəfli muqavilələr bağlanmışdır.

Lənkəran Dövlət Universiteti ölkəmizdə fəaliyyət göstərmiş və indi fəaliyyət göstərən beynəlxalq təşkilatlarla - INTAS, ABŞ-ın Açıq Cəmiyyət Institutu, ABŞ Dövlət Departamentinin Beynəlxalq Tədqiqat və Mübadilə Şurası /IREX/, Avrasiya Fondu, DAAD (Almaniya), ERASMUS+ (Avropa İttifaqı) əməkdaşlıq edir, layihələr həyata keçirir, qrantlarda işləyir.

**7.1.3. Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasının təşviq olunması vəziyyəti**

Lənkəran Dövlət Universitetinin beynəlxalq əlaqələri universitetlər ilə ikitərəfli əməkdaşlığı, beynəlxalq təhsil proqramlarında iştirakı, əcnəbi tələbələrin cəlb olunmasını, müvafiq beynəlxalq təşkilatlarla işbirliyini və digər istiqamətləri əhatə edir. Bununla yanaşı, ortaq Yay Məktəblərinin və İkili diplom proqramlarının reallaşdırılması, birgə elmi konfrans, simpozium və seminarların təşkili, qarşılıqlı faydalı təcrübə mübadiləsinin aparılması nəzərdə tutulur.

Beynəlxalq Əməkdaşlıq Şöbəsinin qarşısına qoyduğu vəzifələrdən biri də əcnəbi tələbələrin Universitetə cəlbi olmuşdur. Bu istiqamətdə müvafiq işlər aparılmış, İKT və Kitabxana Mərkəzinin əməkdaşlarının köməkliyi ilə LDU-nun rəsmi veb saytında əcnəbi vətəndaşlar üçün onlayın müraciət portalı yenilənmişdir.

**7.1.4. Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti**

LDU-nun 2022-2030-cu illər üçün beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlliləşdirilməsi ilə bağlı inkişafı beynəlxalq akademik və peşəkar əməkdaşlıq, beynəlxalq təhsil xidmətləri bazarında aktiv iştirak, beynəlxalq simpozium və konfransların təşkili, eləcə də universitet əməkdaşlarının yüksək reytinqli beynəlxalq tədbir və konfranslarda iştirakının təmin edilməsi, əcnəbi tələbələrin və müvafiq ixtisaslar üzrə peşəkar kadrların cəlbi, beynəlxaq sərgilərdə fəal iştirak, beynəlxalq layihələr və proqramlar üçün kadr təchizatı əsasında iqtisadiyyatın biznes və sahibkarlıq, aqrar və hümanitar sahələrdə dünya səviyyəli bilik və kompetensiyaların inteqrasiyası və yayılmasını təmin edən bir elmi mərkəz-departament (dünya təcrübəsində prorektorluq və ya departament kimi fəaliyyət göstərilir) kimi nəzərdə tutur. Ziddiyətli meyllərlə müşahidə edilən qloballaşma və milli ənənələrin gücləndiyi müasir şəraitdə beynəlxaq əməkdaşlığın effektiv təşkili və koordinasiyası universitetin müvəffəq inkişafı baxımından mühüm prinsipial əhəmiyyət kəsb edir.

**7.1.5. Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti**

İstedadlı xarici tələbələr, magistrantlar və tədqiqatçılar üçün universitetin cəlbediciliyinin yüksldilməsi universitet qarşısında duran strateji vəzifə və effektivlik göstəricisi hesab

edilir. Universitetdən kənar beynəlmiləlliləşdirmənin əsas vəzifələrinə aiddir:
- xarici akademik mobilliyin inkişafı. Xaricdə təhsil yüksək səviyyəli peşəkar mütəxəssis hazırlığının ayrılmaz tərkib hissəsidir. Məhz buna görə də beynəlxalq akademik mobilliyin inkişaf etdirilməsi beynəlxalq fəaliyyətin mühüm istiqamətlərindən birini təşkil edir. Erasmus, Mevlana, Horizon və d. proqramlar çərçivəsində xarici universitetlərdə təcrübə keçmək, akademik mobilliyin imkan verdiyi hədd daxilində tələbə və əməkdaşlar arasında müntəzəm seminarlar təşkil etmək, xarici təhsil müəssisələri və tərəfdaşlarla akademik mobillik üzrə müqavilələrin implementasiyası və s. akademik mobilliyin inkişaf etdirilməsinə motivasiya yaradır.

**7.1.6. Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti**

İstedadlı xarici tələbələr, magistrantlar və tədqiqatçılar üçün universitetin cəlbediciliyinin yüksldilməsi universitet qarşısında duran strateji vəzifə və effektivlik göstəricisi hesab edilir. LDU Xəzəryanı Ölkələrin Universitetləri Assosiasiyasının, Avrasiya Universitetləri Assosiasiyanın, Rusiya-Azərbaycan Ali Təhsil Müəssisələri Assosiasiyası və Qafqaz Universitetləri Birliyininin fəal üzvüdür. Bu Assosiasiyalardan başqa LDU dünyanın 50-dən çox universiteti və institututları ilə təhsil və elmi əlaqələrini inkişaf etdirməkdədir və bu barədə müvafiq ikitərəfli müqavilələr bağlanmışdır. LDU hal-hazırda ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla – British Council (Birləşmiş Krallıq), DAAD (Almaniya), CAMPUS (Fransa), ERASMUS+, Mevlana (Türkiyə) və digər təşkilatlarla əməkdaşlıq edir, layihələr həyata keçirir. Layihələr çərçivəsində Fransanın, Böyük Britaniyanın, İtaliyanın, Almaniyanın, Polşanın, Macarstanın və d. ölkələrin bir sıra universitetləri ilə əlaqələr yaradılmış, müəllim və tələbələr müvafiq Universitetlərdə təlimlərdə olmuşdur.

**7.1.7. İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti**

Lənkəran Dövlət Universitetinin 40- dan çox xarici ölkələrin universitetləri və elm mərkəzləri ilə təhsil, elm və mədəniyyət sahəsində əlaqələri vardır. İmzalanan müqavilələr əsasən Meksika, Macarstan, Polşa, Türkiyə, Rusiya, Ukrayna, Belarusiya, Gürcüstan və d. ölkələrin elmi müəssisələrini əhatə edir. Xəzəryanı Ölkələrin, Avrasiya Universitetləri Assosasiyasının, Rusiya Azərbaycan Ali Təhsil Müəssisələri Assosiasiyasnının, Qafqaz Universitetlər Birliyinin üzvü olan universitet assosiasiyaların işində aktiv iştirak etməklə yanaşı birgə konfranslar keçirilir. Macarstanın Kapoşvar Universiteti ilə ikili diplomların həyata keçirilməsi məqsədilə anlaşma memarandumu imzalanmış, elmi-tədqiqat əlaqələri formalaşmışdır. Türkiyə Cümhuriyyətinin bir neçə universitetinin əməkdaşları LDU-da dissertantlara elmi rəhbərlik edir, universitetdə təşkil olunan elmi konfranslarda fəal iştirak edir, LDU tələbələrinə dərslər verir və müvafiq istiqamətlərdə kurslar keçirlər.

**7.1.8. Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti**

LDU-nun 2022-2030-cu illər üçün beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlliləşdirilməsi ilə bağlı inkişafı beynəlxalq akademik və peşəkar əməkdaşlıq, beynəlxalq təhsil xidmətləri bazarında aktiv iştirak, beynəlxalq simpozium və konfransların təşkili, eləcə də universitet əməkdaşlarının yüksək reytinqli beynəlxalq tədbir və konfranslarda iştirakının təmin edilməsi, əcnəbi tələbələrin və müvafiq ixtisaslar üzrə peşəkar kadrların cəlbi, beynəlxaq sərgilərdə fəal iştirak, beynəlxalq layihələr və proqramlar üçün kadr təchizatı əsasında iqtisadiyyatın biznes və sahibkarlıq, aqrar və hümanitar sahələrdə dünya səviyyəli bilik və kompetensiyaların inteqrasiyası və yayılmasını təmin edən bir elmi mərkəz-departament kimi nəzərdə tutur.

*7.2. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu*

**7.2.1. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilatı strukturun mövcud olması vəziyyəti**

Beynəlmiləlləşmə prosesinin idarə edilməsi Beynəlxalq Əməkdaşlıq Şöbəsi tərəfindən həyata keçirilir.




**7.2.2.Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti**

Lənkəran Dövlət Universitetinin beynəlmiləlliləşdirmə səviyyəsini xarakterizə edən mühüm göstərici professor-müəllim heyəti və təhsil alanların mobilliyi, tədris proqramları və planlarının inteqrasiyası, təhsil xidmətlərinin keyfiyyətinin dünya standartlarına uyğunluğunu təmin edən regional və beynəlxalq məzun şəbəkəsinin yaradılması hesab olunur. Universitetin beynəlxalq tələblərə uyğun təhsilin keyfiyyətinin yüksəlilməsinə istiqmətlənmiş beynəlxalq əməkdaşlıq proqramlarında iştirakı, beynəlxalq əlaqələrin və işgüzar tərəfdaşlığın inkişaf etdirilməsi və möhkəmləndirilməsi onun beynəlxalq fəaliyyətinin məqsədini təşkil edir.

**7.2.3. Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti**

Mübadilədə iştirak edən tələbələrin kreditlərinin tanınması əsasən mübadilə proqramlarının normativ qaydalarına uyğun aparılır və universitet də bu xüsusda lazımi dəstəyi göstərir; Kredit sistemi ilə tədrisin təşkilində Bolonya bəyannaməsinin müddəalarına müvafiq olaraq, tələbələrin akademik mobilliyi onların digər ali təhsil müəssisələrində, o cümlədən xarici ölkə ali təhsil müəssisələrində ayrı-ayı fənlər üzrə kreditləri qazanmaları ilə təmin edilir. Tələbənin digər ali təhsil müəssisələrində kreditləri qazanması təhsil aldığı ali təhsil müəssisəsinin razılığı ilə həyata keçirilir. Bu zaman təhsil haqqının ödəniş şərtləri tələbə ilə göndərən və qəbul edən ali təhsil müəssisələri arasında razılaşdırılır. Qazanılmış kreditlər tələbənin təhsil aldığı ali təhsil müəssisəsi tərəfindən tanınır. Digər ali təhsil müəssisələrində qazanılacaq kreditlərin sayı ixtisas (ixtisaslaşma) üzrə nəzərdə tutulmuş kreditlərin 30 faizindən çox olmamalıdır.

**7.2.4. Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti**

Lənkəran Dövlət Universiteti əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsinə yüksək diqqət göstərir. Belə ki başlayaraq LDU və Türkiyə Cümhuriyyətinin

Kafkas (Kars) Universiteti arasında ikili əməkdaşlıq müqaviləsi çərçivəsində həmin universitetin professor-müəllim heyəti, xüsusilə də aqrar və mühəndislik fakultəsinin tədris prosesinə mütəmadi olaraq cəlb olunurlar.

**7.2.5. Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti**

Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyi monitorinqi zamanı məlum olmuşdur ki, universitet beynəlxalq qrant layihələrində aktiv iştirak edir və layihələrin məqsədlərinə uyğun olaraq universitetin kadr potensialının artırılması və təhsilin keyfiyyətinin yüksəldilməsində uğurlu nəticələr əldə edir. Bu istiqamətdə universitetdə struktur islahatları aparılır, beynəlxalq əlaqələrdən cavabdeh şöbənin işi təkmilləşdirilir və onlara daha əlverişli şərait yaradılır.

**7.2.6. ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti**

Lənkəran Dövlət Universiteti qeyd olunan universitetlərlə ikili diplom proqramlarını təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq həyata keçirilir. Lənkəran Dövlət Universitetinin hal-hazırda Azərbaycan Dövlət Neft və Sənaye universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, və Azərbaycan Dövlət İqtisad Universiteti ilə ikili diplom müqaviləsi imzalanmışdır

**7.2.7. Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası**




**7.2.8. Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti**

Akademik və inzibati heyətin mübadiləsi prosesi zamanı akademik heyətin seçilməsi və sənədləşmə işləri (Viza, Sığorta və digər sənədlər) və s. şəffaf və hərkəsə əlçatanlıq prinsipləri və daxili prosedurlar əsasında hazırlanmışdır.

**7.2.9. ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti**

Aşağıda qeyd olunan Erasmus+ KA1 və Mevlana mübadilə proqramları çərçivəsində 2018-2022-ci illərdə tələbə- müəllim mübadiləsi həyata keçirilmişdir. Növbəti illərdə daha çox tələbə-mübadiləsinin həyata keçirilməsi proqnozlaşdırılır.




**7.2.10. Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti**

LDU "QS World University Rankings"-dünyanın ən nüfuzlu ali məktəb reytinqləri siyahısına qoşulub!

Lənkəran Dövlət Universitetinin (LDU) bu günlərdə "QS World University Rankings"-dünyanın ən nüfuzlu ali məktəb reytinqləri siyahısına qoşulması bu ali təhsil ocağının həyatında ən mühüm və xoş yeniliklərdən biri sayıla bilər. LDU-nun dünyanın reytinqli universitetlər siyahısında yer alması, universitetin beynəlxalq nüfuzunun artmasına imkan verəcək, əməkdaşlarının dünya miqyasında tanınmasına şərait yaradacaq.

*7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

**7.3.1. Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti**

Universitet əməkdaşlarının məqsədli sosial müdafiə mexanizmini gücləndirmək: yüksək səviyyədə elmi aktivlik nümayiş etdirənlərə, təhsil fəaliyyətində innovativ ideyaları ilə fərqlələn-lərə, həmçinin istedadlı müəllimlərə ünvanlı yardımların göstərilməsi; gənc müəllimlər, aspirant və doktorantlar üçün universitet daxili qrant sisteminin inkişafı; sosial məsələlərin həlli və kadr siyasətinin reallaşmasına yönəli əlavə maliyyə vəsaitlərinin cəlbedilməsi məqsədi ilə universitetin biznes sferası ilə qarşılıqlı fəaliyyətini təmin edən effektiv üsulların axtarılıb tapılması prioritet istiqamətlərdən biridir.

Professor-müəllim heyətinin beynəlxalq səviyyəli proqramlarda iştirakı əksər hallarda Universitetin qoşulduğu beynəlxalq qrant layihələri tərəfindən maliyyələşmiş və layihə çərçivəsində olmadığı halda LDU tərəfindən maliyyələşdirilmişdir. Erasmus+ KA2 proqramı çərçivəsində icra edilən layihələr çərçivəsində Avropa təcrübəsinin öyrənilməsi üçün müxtəlif vaxtlarda təlimlər təşkil edilmişdir.

**7.3.2.Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti**

Lənkəran Dövlət Universitetindən 2018-2023-cü illər ərzində 10 müəllim mübadilə proqramında iştirak edib, əlavə olaraq 4 müəllim isə mübadilə proqramında iştirakı qazanıb lakin pandemiya şəraitinə görə mübadilədə iştirak etməyib.

Lənkəran Dövlət Universitetindən 2018-2023-cü illər ərzində 2 tələbə mübadilə proqramında iştirak etmişdir. 12 tələbə isə istehsalat təcrübəsi keçmələri üçün göndərilir.




Mavi - müəllim
Narıncı – tələbə

**7.3.3. Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti**

• Universitetin balansında olan təmirsiz bina rekonstrukturizasiya olunaraq (35 yerlik ümumi sahəsi 600 m2 olan iki mərtəbəli) SeaSide Otel-ə çevrilmişdir.

• 2019-cu ildə şəhərin mərkəzində yerləşən istifadəyə yararsız 5 mərtəbəli keçmiş yataqxana binası sökülmüş, yerində 3 saylı tədris korpusu və müasir tipli 160 nəfərlik yataqxana binası istifadəyə verilmişdir (ümumi sahəsi 4350 m2 olan bir növbədə min tələbə qəbul edə bilən). Binanın həyətyanı sahəsində suni ot örtüklü idman meydançası yaradılmışdır.

• Universitetin 2 saylı tədris korpusunun ərazisində 2018-ci ildə sahəsi 297 m2 olan 100 nəfərlik tələbə yeməkxanası tikilib istifadəyə verilmişdir.

• 2021-ci ildə Universitetin Elmi kitabxana kompleksi əsaslı təmir olunmuşdur. Burada müasir tələblərə cavab verən 100 nəfərlik oxu zalı, 300 nəfərlik konfrans zalı, Elektron kitabxanaya giriş üçün rahat şərait yaradılmışdır. Eyni zamanda kitabxana fondunun zənginləşdirilməsi istiqamətində işlər görülmüşdür.

**7.3.4.Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti**

Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə əsasən Avropa Birliyi qrant layihələrindən, Təhsil Nazirliyi və LDU büdcəsindən ayrılan maliyyə resursları vasitəsilə tənzimlənir. Siyasətin icra edilməsində Beynəlxalq əlaqələr üzrə şöbə, LDU-nun digər struktur vahidləri ilə əməkdaşlıq edir.

LDU hal-hazırda 3 qrant layihədə tərəfdaş kimi iştirak edir:

- ECAR (Establishment of The Rectors Conference in Azerbaijan) – 66448 EURO
- REFRESH – 60486 EURO

DIRNA – 49871 EURO

7.4. *Beynəlmiləlləşmə performansı*

**7.4.1. Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti**

LDU-da təhsilin keyfiyyətinə nəzarət və müəllimin özünüqiymətləndirmə sistemi fəaliyyət göstərir. Bunun nəticəsində imtahanların düzgün təşkili, tələbələrin biliyinin qiymətləndirilməsi diqqət mərkəzindədir. Universitetdə təhsil həm məzmun, həm də zamanın tələblərinə uyğun yeni səviyyədə qurulmuşdur.

**7.4.2. Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti**

Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətləri əsasən tələbələrin mübadiləsində xarici dil biliklərinin təkmilləşdirilməsi prossesidir.

**5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri**

| İstiqamətlər və meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| **1. Strateji inkişaf** | | | | | |
| 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri | 34 | | | Əsasən uyğundur. | |
| 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi | 12 | | | Əsasən uyğundur | |
| **İstiqamət üzrə yekun bal** | **46** | | | Əsasən uyğundur | |
| **2. Keyfiyyət təminatı** | | | | | |
| 2.1 Keyfiyyət təminatı siyasəti | 10 | | | Əsasən uyğundur | |
| 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri | 25 | | Qismən uyğundur | | |
| 2.3 Keyfiyyət təminatı mədəniyyəti | 11 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | **46** | | | Əsasən uyğundur | |
| **3.Təlim və tədris** | | | | | |
| 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması | 11 | | | | Uyğundur |
| 3.2 Təhsil proqramları | 29 | | | | Uyğundur |
| 3.3 Tədrisin təşkili | 64 | | | | Uyğundur |
| 3.4 Tədris metodları və üsulları | 22 | | | | Uyğundur |
| 3.5 Təlim və tədris resursları | 46 | | | Əsasən uyğundur | |
| 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 34 | | | | Uyğundur |
| 3.7 Professor-müəllim heyəti | 29 | | | Əsasən uyğundur | |
| 3.8 Tələbəyönümlü tədris | 31 | | | Əsasən uyğundur | |
| 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 14 | | | | Uyğundur |
| 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 10 | | Qismən uyğundur | | |
| **İstiqamət üzrə yekun bal** | **290** | | | Əsasən uyğundur | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4. Elmi tədqiqat** | | | | | |
| 4.1 Elmi-tədqiqat strategiyası | 22 | | | | Uyğundur |
| 4.2 Tədqiqat resursları | 19 | | | Əsasən uyğundur | |
| 4.3 Elmi-tədqiqat fəaliyyəti | 56 | | | | Uyğundur |
| 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 8 | | | Əsasən uyğundur | |
| **İstiqamət üzrə yekun bal** | **105** | | | | Uyğundur |
| **5. İdarəetmə sistemi** | | | | | |
| 5.1 İdarəetmə orqanları | 25 | | | | Uyğundur |
| 5.2 İnsan resurslarının idarə edilməsi | 28 | | | | Uyğundur |
| 5.3 Maliyyə resusrlarının idarə ediləsi | 43 | | | | Uyğundur |
| 5.4 İnformasiya idarəetmə sistemi | 22 | | | | Uyğundur |
| 5.5 İctimaiyyətlə əlaqələr | 17 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | **135** | | | | Uyğundur |
| **6. İnfrastruktur** | | | | | |
| 6.1 Tədris infrastrukturu | 41 | | | | Uyğundur |
| 6.2 Elmi-tədqiqat infrastrukturu | 5 | | | Əsasən uyğundur | |
| **İstiqamət üzrə yekun bal** | **46** | | | | Uyğundur |
| **7. Beynəlmiləlləşmə** | | | | | |
| 7.1 Beynəlmiləlləşmə siyasəti | 22 | | | | Uyğundur |
| 7.2 Beynəlmiləlləşmə prosesinin idarə edilməsi və təşkilatı strukturu | 26 | | | Əsasən uyğundur | |
| 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar | 10 | | | Əsasən uyğundur | |
| 7.4 Beynəlmiləlləşmə performansı | 4 | | Qismən uyğundur | | |
| **İstiqamət üzrə yekun bal** | **62** | | | Əsasən uyğundur | |
| **Təhsil müəssisəsi  üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | **730** | | | | Uyğundur |

## 6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər

- Lənkəran Dövlət Universiteti Nizamnamə və Strateji inkişaf planının tələblərinə uyğun olaraq idarə edilir. Universitetin Strateji inkişaf planı əmək bazarının, cəmiyyətin və milli iqtisadi inkişafın istiqamətləri, dövlət təhsil standartlarının tələblərinə tam uyğundur.
- Universitetdə sonuncu dəfə 2016-cı ildə aparılan akkreditasiya qiymətləndirilməsi nəticəsində verilmiş tövsiyələr nəzərə alınmış, tam olaraq icra olunmuşdur.
- Son 6 ildə universitetin idarə edilməsinin təkmilləşdirilməsi üçün əsaslı islahatlar aparılmış, yeni zəruri infrastruktur yaradılmış və struktur bölmələr yenidən təşkil olunmuşdur.
- LDU-nun keyfiyyət təminatı sistemi yenidən qurulmuşdur. Bununla bağlı TKTA ilə müntəzəm əlaqələr saxlanılır, agentliyin təklif və tövsiyələri əsasında universitetin Keyfiyyət təminatı şöbəsi işini qurur.
- Büdcəsinin əsas hissəsi təhsil haqlarından formalaşır.
- LDU-da ali təhsil pilləsinin hər üç səviyyəsi (bakalavriat, magistratura və doktorantura) üzrə kadr hazırlığı aparılır. Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş ixtisasların (ixtisaslaşmaların) təhsil proqramlarına əsasən tədris planları, fənn proqramları və sillabuslar hazırlanır. Bu zaman cəmiyyətin, sənayenin, istehsalın və əmək bazarının tələbləri nəzərə alınmaqla hazırlanır.
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edimiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinə uyğun olaraq hazırlanır (bu qaydalara əlavə olunmuş forma əsasında) ixtisasların (ixtisaslaşmaların) tədris planı, tədris qrafiki, illik işçi tədris planları, tələbələrin fərdi tədris planları, Müəllimlərin illik işçi tədris planı və s. mövcuddur.
- Fakültə üzrə tədris köməkçi heyət kvalifikasiyaya uyğun təşkil edilmişdir. Lakin bir sıra kafedralarda tədris-köməkçi heyətin sayı normaya uyğundur.
- Təcrübələrin təşkili ixtisas peşə hazırlığı istiqamətinə uyğundur. Təcrübələrin təşkili üçün regionun bir sıra aparıcı dövlət və özəl müəssisələri ilə müqavilələr bağlanmışdır.
- İxtisasların (ixtisaslaşmaların) təhsil proqramları əsasında tərtib edilən tədris planları üzrə seçmə fənlər universiteti tərəfindən müəyyən olunarkən professor-müəllim

heyətinin təcrübəsi, yerli və beynəlxalq iş imkanları, eləcə də, işəgötürənlərin təklif və tövsiyələri əsas götürülərək əmək bazarının və cəmiyyətin tələbləri nəzərə alınır.

- Tədris planlarının ixtisasın təhsil proqramlarının tələblərinə uyğunluğu, tədris prosesi və imtahanların o cümlədən, Yekun Dövlət Attestasiyanın təşkili və nəticələrinin rəsmiləşdirilməsi müvafiq normativ-hüquqi aktlara uyğun həyata keçirilir.
- Tələbələrin hərəkəti (akademik məzuniyyətdən götürməsi, bərpa edilməsi, xaric olunması, köçürülməsi və s.) mövcud qanunvericiliyin tələblərinə uyğun həyata keçirilmişdir.
- Regionda yerləşən ali təhsil müəssisəsi olaraq LDU-nun bir sıra sahələr üzrə dərəcəli professor-müəllim heyətinə ehtiyacı vardır.
- Təcrübə, potensial inkişaf və karyera bölməsi LDU-nun məzunları ilə apardığı işlər günün tələbləri səviyyəsində qurulması tövsiyə edilir.
- LDU-nun tədqiqatçıları, doktorant və magistrantları davamlı olaraq beynəlxalq elmi konfranslarda iştirak edir və beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan jurnallarda məqalələr nəşr etdirirlər. Belə ki, 2017-2022-ci illərdə Universitet əməkdaşlarının Web of Science bazasına daxil olan jurnallarda 62 məqalə dərc etdirmişdirlər.
- LDU milli və beynəlxalq təşkilatlarla 2017-2022-ci illərdə 39 müqavilə imzalanmışdır. Bu müqavilələrdə birgə tədqiqatların aparılması və bigə proqramların həyata keçirilməsi də xüsusi yer almışdır.
- Elmi-tədqiqat fəaliyyəti vasitəsilə əldə olunan gəlirlərdə müsbət dinamika var.
- Lənkəran Dövlət Universitetində Elmi-tədqiqat xarakterli beynəlxalq və respublika konfransları mütəmadi olaraq təşkil olunmaqdadır. Beləki, 2017-2022-ci illərdə Universitetdə 9 beynəlxalq, 12 respublika və 3 Universitet daxili konfrans keçirilmişdir. Universitetdə professor-müəllim, magistrant və doktorantların iştirakından əlavə Tələbə Elmi Cəmiyyətinin üzvü olan tələbələr üçün də konfranslar təşkil edilir.
- Elmi-tədqiqatlar üçün vacib əhəmiyyəti olan Elektron-kitabxana sisteminin yaradılması üçün ciddi yenidənqurma layihəsi həyata keçirilməyə başlanmışdır.
- Tələbələrin hüquq və vəzifələrinə dair, tədris sənədləri, təhsil ödənişləri haqqında məlumatlar və mövcud qaydalar universitetin veb-saytında dərc olunur. Eyni zamansda təhsilalanların müxtəlif növ müraciətlərini nəzərdən keçirmək üçün fakültələr üzrə ixtisaslı tyutorlar fəaliyyət göstərir.
- LDU-nun idarə olunmasında iştirakını təmin etmək məqsədilə yaradılan Tələbə Həmkarlar Təşkilatı, Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyəti, və müxtəlif

tələbə klublarının üzvlərinin sayının inkişaf dinamikasında son illərdə artım müşahidə olunur.

- LDU-da tələbə təşkilatlarının fəaliyyət göstərməsinə maliyyə və maddi-texniki dəstəyin verilməsi məsələsi daim diqqət mərkəzində saxlanmışdır.
- Kitabxana resurslarından istifadənin tələbə və professor-müəllim heyəti üçün əlçatanlığı təmin edilərək təkmilləşdirilib. Kitabxanada oxuculara abonoment və müasir avadanlıq, sürətli internetlə təmin olunmuş zallar xidmət göstərir. Oxucuların dünya kitabxana resurslarına əlyetənliyinin təmin olunması üçün elektron kitabxana zalı və elektron kataloqda mövcuddur.
- 2021-ci ildə LDU nin Elmi Kitabxanası əsaslə təmir və bərpa edilərək yenidən istifadəyə verilmişdir. Hazırda LDU-da Elektron Kitabxana sistemi mövcuddur və həmin sistem https://lsu.edu.az/new/LSU-Library/ səhifəsi vasitəsi ilə internet üzərindən oxuculara xidmət göstərir.
- UNEC və LDU arasında bağlanmış ikitərəfli qarşılıqlı əməkdaşlıq müqaviləsinə əsasən UNEC-in Elmi kitabxanasının iqtisadiyyat profilli ədəbiyyat fonduna giriş üçün LDU-nun rəsmi saytı üzərindən xüsusi keçid verilmişdir.
- AzTU-da bir çox fərqli rəqəmsal həllər illər boyunca olan ehtiyacı qarşılamaq məqsədilə qurulmuşdur. Fəqət bu sistemlər vahid məlumatlar bazasına və vahid idarəetmə sisteminə sahib olmamışdır. AzTU-da olan rəqəmsal həllər, məlumatların gələcəkdə Rəqəmsal Universitet layihəsi istiqamətində vahid mexanizmə inteqrasiya edilmə imkanı təqdim edir.
- Auditoriyalarda proyektorlar, ağıllı interaktiv lövhələr mövcuddur. Elmi-tədqiqat işlərinin aparılmasında istifadə edilən avadanlıq və cihazların maddi texniki təminatı daim diqqət mərkəzində saxlanılır. Universitetdə elmi-tədqiqat işlərinin aparılması məqsədilə müasir standartlara cavab verən "Qida təhlükəsizliyi", "Baytarlıq cərrahiyyəsi", "Torpaqşünaslıq", PASCO rəqəmsal avadanlıqları ilə təmin edilmiş "Biologiya tədris laboratoriyası", "Kimya tədris laboratoriyası", o cümlədən, Samsung planşetləri, "ağıllı lövhə", televizor və 3D formatlı telefonları ilə təmin olunmuş virtual laboratoriya yaradılmışdır. "İnformatika" laboratoriyası ABŞ-ın USAİD fondunun hesabına müasir standartlara cavab verən son model kompüterlərlə və "ağıllı lövhələr"lə təmin olunmuşdur. Həmin laboratoriyalar BioBase firmasının müasir avadanlıqları ilə təchiz olunmuşdur.
- Daxil olmuş gəlirlər universitetin maddi-texniki bazasının, infrastrukturunun gücləndirilməsinə və kadr potensialının inkişafına sərf olunur. Son 5 ildə 3 tədris korpusu,

kitabxana, turizm tədris bazası, yataqxana, müəllimlər üçün xidməti evlər və s. tikilib istifadəyə verilməsi və laboratoriyaların alınması universitetin infrastrukturunu və maddi-texniki bazasının yüksəlməsinə səbəb olmuşdur.

- LDU beynəlmiləlləşmə prosesinə önəm verir. Bu istiqamətdə universitetdə struktur islahatlar aparılmış və beynəlxalq əlaqələr şöbəsi yenidən təşkil olunmuşdur. Eyni zamanda, xarici ezamiyyələrə ayrılan vəsaitlər ildən-ilə artırılaraq bu prosesin daha da inkişaf etməsi üçün işlər aparılır.
- LDU Xəzəryanı Ölkələrin Universitetləri Assosiasiyasının, Avrasiya Universitetləri Assosiasiyanın və Qafqaz Universitetləri Assosiasiyasının fəal üzvüdür. Ölkəmizdə fəaliyyət göstərmiş və indi fəaliyyət göstərən beynəlxalq təşkilatlarla - INTAS, ABŞ-ın Açıq Cəmiyyət Institutu, ABŞ Dövlət Departamentinin Beynəlxalq Tədqiqat və Mübadilə Şurası /IREX/, Avrasiya Fondu, DAAD (Almaniya), ERASMUS+ (Avropa İttifaqı), British Council (Birləşmiş Krallıq), DAAD (Almaniya), CAMPUS (Fransa), Mevlana (Türkiyə) əməkdaşlıq edir, layihələr həyata keçirir və qrantlarda işləyir.
- LDU-nun 40-dan çox xarici ölkələrin universitetləri və elm mərkəzləri ilə təhsil, elm və mədəniyyət sahəsində əlaqələri vardır. İmzalanan müqavilələr əsasən Meksika, Macarstan, Polşa, Türkiyə, Rusiya, Ukrayna, Belarusiya, Gürcüstan və digər ölkələrin elmi müəssisələrini əhatə edir.
- LDU hal-hazırda ölkəmizdə fəaliyyət göstərən beynəlxalq və digər təşkilatlarla layihələr həyata keçirir. Layihələr çərçivəsində Türkiyənin, Fransanın, Böyük Britaniyanın, İtaliyanın, Almaniyanın, Polşanın, Macarstanın və digər ölkələrin bir sıra universitetləri ilə əlaqələr yaradılmış, müəllim və tələbələr müvafiq Universitetlərdə təlimlərdə olmuşdur.

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər**

1. Təhsil müəssisəsinin Nizamnaməsi;
2. Təhsil müəssisəsinin ötən beş və qarşıdan gələn beş il üzrə Strateji İnkişaf Programı;
3. Təhsil müəssisəsinin tədris ili üzrə iş planı;
4. Təhsil müəssisəsinin son beş il üzrə maliyyə hesabatı;
5. Təhsil müəssisəsində təhsil alan təhsilalanların beş il üzrə müvəfəqqiyət göstəriciləri (keyfiyyət göstəriciləri daxil olmaqla);
6. Son beş tədris ilində təhsilalan, akademik heyət və məzunlar arasında keçirilmiş sorğuların nəticələri;
7. Son 5 ildə elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti haqqında məlumat;
8. Elmi-tədiqat fəaliyyətindəki gəlir və xərclər ilə bağlı hesabat;
9. Məzun olan təhsilalanların məşğulluq göstəriciləri;
10. Təlim resursları və tələbələrə dəstək xidmətləri;
11. Təhsil müəssisəsinin maddi-texniki bazası;
12. Təhsil müəssisəsinin sosial-məişət şəraiti;
13. Kitabxana fondunun (elektron daxil) vəziyyəti;
14. Müəssisədə çalışan professor-müəllim heyəti və digər əməkdaşların xarici ölkələrdə təcrübə və mübadilə proqramlarında iştirakı barədə məlumat;
15. Son 5 ildə müəssisəyə qəbul olunan əcnəbi tələbələr barədə məlumat;
16. Təhsil müəssisəsi tərəfindən daxili keyfiyyət təminatı siyasətini əks etdirən sənəd;
17. Təhsil müəssisəsi tərəfindən tərtib edilmiş müəssisənin elmi (pedaqoji) fəaliyyətinin və tədris prosesinin tənzimlənməsinə və təşkilinə dair tədris planları və digər müvafiq sənədlər;
18. Akkreditasiya olunan proqramlar üzrə tədris planına daxil olan fənlərin, dərsdənkənar məşğələlərin, proqramların, sillabusların (işçi tədris proqramları) və (və ya) modulların təsviri;
19. Akkreditasiya olunan proqramlar üzrə təhsilalanların sayı və təhsilalanların qəbulu, yerdəyişməsi, köçürülməsi, bərpası və xaric edilməsi haqqında əmrlərin surəti;
20. Akademik (pedaqoji) heyətin siyahısı, professor müəllim heyətinin şəxsi uçot məlumatları;
21. Tədris planında nəzərdə tutulmuş bütün növ təcrübələr üzrə proqramlar, təcrübənin keçirildiyi müəssisələrlə bağlanılmış müqavilələrin surəti və təcrübənin nəticəsi barədə hesabat;
22. Ümumtəhsil müəssisəsi üzrə buraxılış sinif şagirdlərinin yekun attestasiyasının nəticələri, proqramlar üzrə bütün imtahanların nəticələri, diplom işləri haqqında məlumat və təhsilalanların yekun tezislərinin siyahısı;
23. Əvvəlki akkreditasiya qiymətləndirmə nəticələrinin icmalı və müvafiq Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat;
24. Birgə təhsil proqramını təklif edən təhsil müəssisələri arasındakı razılaşma (əgər varsa);
25. Başa çatmış hər tədris ili üzrə sentyabr ayının 10-dək TMİS vasitəsilə təqdim olunmuş Akkreditasiya Meyarlarına dair müvafiq məlumatların məcmusu;
26. Akkreditasiyaya görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.